RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 55 (9222) 12 MART 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Bakıdan dünyaya sülh çağırışı




## Prezident İlham Əliyevin himayəsi altında baş tutan X Qlobal Bakı Forumu dünyanın üzləşdiyi problemlərin həllinə mühüm töhfə verəcək

**Martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündən qısa müddət sonra Bakı daha bir qlobal foruma uğurlu evsahibliyi etdi. Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-11-də "Dünya bu gün: çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu keçirildi.**

Forumun açılış mərasimində Prezident İlham Əliyevin vurğuladığı kimi, dünyamızın daha dinc və təhlükəsiz olmasına töhfə vermək üçün X Qlobal Bakı Forumunda müharibələr, iqlim dəyişikliyi, su qıtlığı, qida çatışmazlığı, aclıq və sair kimi hazırkı qlobalmiqyaslı problemlərin zəruri həll yolları barədə mühüm müzakirələr aparıldı, çıxış yolları arandı.

### Azərbaycan qlobal məsələlərin həlli ilə bağlı bir çoxlarını ilhamlandırıb

Dünyada nüfuzu sürətlə artan Cənubi Qafqazın lider ölkəsi Azərbaycanın beynəlxalq problemlərin həlli yollarının müzakirə olunduğu mərkəzə çevrilməsi heç də təsadüfi deyil. Sülhü, humanizmi, tolerantlığı, multikultural dəyərləri daim təbliğ edən ölkəmiz hər zaman dialoq formasında qlobalmiqyaslı problemlərin həllinin mümkünlüyünü də təbliğ edir. Dünyanın mötəbər beynəlxalq qurumlarında uğurla təmsil olunan Azərbaycan bəşəri qərarların qəbuluna və icrasına da birbaşa töhfələr verir. 120 ölkə arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının da məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması bu baxımdan vacib nümunələrdən biridir.

Eləcə də qlobal forumun Bakı şəhərində keçirilməsi Azərbaycana olan yüksək beynəlxalq etimadın, ölkəmizin bütün sahələr üzrə dünya siyasətindəki mühüm yerinin və rolunun olmasının göstəricisidir.

Forumdakı çıxışı zamanı Latviya Respublikasının Prezidenti Egils Levits də xüsusi qeyd etdi ki, Azərbaycanın son illər ərzində qlobal məsələlərdə oynadığı əhəmiyyətli rol əslində beynəlxalq münasibətlərdə etiraf olunub: "Əslində Azərbaycan siyasi baxımdan, yəni sülhün necə qorunması, qlobal məsələlərin həlli ilə bağlı bir çoxlarını ilhamlandırıb".

→ 6

## "Biz strateji tərəfdaş və müttəfiq kimi Azərbaycan Prezidenti ilə işləməkdən məmnunuq"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə videokonfrans formatında görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşün videokonfrans formatında keçirilməsinə səbəb Bolqarıstan nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Bolqarıstan Prezidentini salamlayan Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Xoş gəlmisiniz, cənab Prezident. Sizi Bakıda görmək çox xoşdur. Ümid edirəm ki, forumdakı iştirakınızdan məmnun olacaqsınız.

→ 2

## Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə X Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirdə iştirak edən nüfuzlu qonaqların sayının ilbəil artdığı vurğulandı. Dünya gündəmində duran aktual məsələlərin müzakirəsi baxımından bu beynəlxalq platformanın çox mühüm rol oynadığı bildirildi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Xorvatiyanın sabiq Prezidentinin görüşləri xatırlandı, Azərbaycan-Xorvatiya ikitərəfli münasibətlərinin uğurlu inkişafı qeyd edildi.

## Çin Azərbaycan üçün etibarlı tərəfdaş və dost dövlətdir

### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr.

Çin Xalq Respublikasının Sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Səsvermənin yekdil nəticələri Sizin şəxsinizə olan böyük inam və etimadın, həyata keçirdiyiniz siyasi xəttə dəstəyin təzahürü, Çinin hərtərəfli inkişafı və rifahı yolunda genişmiqyaslı fəaliyyətinizə və xidmətlərinizə verilən yüksək qiymətdir.

Çin Azərbaycan üçün etibarlı tərəfdaş və dost dövlətdir. Biz Azərbaycan ilə Çin arasında tarixi ənənələrə əsaslanan və möhkəm təməllər üzərində qurulmuş münasibətlərə xüsusi əhəmiyyət veririk. Dövlətlərarası əlaqələrimizin gündən-günə yüksələn xətt üzrə inkişaf edərək hazırkı səviyyəyə çatması və yeni məzmun kəsb etməsi məmnunluq doğurur.

Daim genişlənən siyasi dialoqumuz, iqtisadiyyat, nəqliyyat, logistika, infrastruktur, investisiya, enerji və digər sahələrdə uğurlu əməkdaşlığımız, "Kəmər və yol", "Orta dəhliz" layihələri çərçivəsində tərəfdaşlığımız, Çin şirkətlərinin ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərində fəal iştirakı sıx münasibətlərimizi səciyyələndirən başlıca amillərdəndir.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Çin əlaqələrinin bütün sahələrdə dərinləşdirilməsi, əməkdaşlığımızın genişləndirilməsi, regional iqtisadi tərəfdaşlıq üçün geniş perspektivlər açan infrastruktur layihələri çərçivəsində qarşılıqlı fəaliyyətimizin daha da inkişaf etdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Hörmətli cənab Sədr, bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Çin Xalq Respublikasının dost xalqının firavanlığı naminə məsul fəaliyyətinizdə daim müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2023-cü il*

## Dövlətçiliyin keşiyində əzmkar xidmət nümunəsi

Artıq 31 ildir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Bu gün Daxili Qoşunlar, sözün əsl mənasında, xalqımızın əmin-amanlığı, dövlət və dövlətçiliyin daha da gücləndirilməsi naminə fədakar xidmətini davam etdirməkdədir.

Ötən illərdə Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqların yerinə yetirilməsinə hər zaman böyük məsuliyyətlə yanaşıb və ona göstərilən bu yüksək etimadı doğrultmağa çalışıb. Yarandığı gündən daim dövlətin və dövlətçiliyin keşiyində yenilməz əzmkarlıqla dayanan Daxili Qoşunların inkişaf və yüksəliş yolu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Daxili Qoşunlar Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində formalaşıb, inkişaf edib, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib. Daxili Qoşunlar yarandığı gündən ölkə daxilində ictimai təhlükəsizliyin təmin olunması ilə yanaşı, Vətənin müdafiəsində də iştirak edib.

→ 7

## Azərbaycan İrana nota verdi

**Martın 11-də İran İslam Respublikasına məxsus hərbi təyyarə saat 09:44-dən 10:26-dək fasiləsiz olaraq Azərbaycan-İran dövlət sərhədi boyunca, Zəngilan rayonu istiqamətindən Biləsuvar rayonu istiqamətinə və geriyə doğru uçuş həyata keçirib. Təyyarə iki ölkə arasında dövlət sərhədindən 3-5 kilometr məsafədə, bəzi hallarda isə dövlət sərhədinin tam üstü ilə uçub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər və Müdafiə nazirliklərinin birgə bəyanatında deyilir.

Hərbi təyyarələrin dövlət sərhədinə yaxınlaşması ilə bağlı qonşu dövləti əvvəlcədən xəbərdarlıq etməyə dair beynəlxalq aləmdə qəbul olunmuş təcrübəyə zidd olaraq, İran İslam Respublikasının hərbi təyyarəsinin iki ölkə arasında dövlət sərhədinə bu qədər yaxınlaşması və sərhəd xətti üzərindən uçması mülki aviasiyanın təhlükəsizliyinə təhdid törədir və iki ölkə arasında münasibətləri daha da gərginləşdirməyə xidmət edir.

İşğaldan azad edilmiş Azərbaycan ərazilərinin yaxınlığında yarım saatdan çox müddət ərzində hərbi təyyarənin uçuşu Azərbaycana qarşı təxribat və qeyri-dost davranışdır. Xatırlatmaq istərdik ki, İran tərəfi ötən il də Araz çayı boyunca Azərbaycan sərhədləri yaxınlığında genişmiqyaslı hərbi təlimlər keçirmişdi.

İran tərəfini bu cür təhrikçi addımına görə şiddətlə qınayır, müvafiq izahat verməyə və gələcəkdə belə təxribatçı addımlardan çəkinməyə çağırırıq.

Martın 11-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb və ona müvafiq etiraz notası təqdim olunub.

## İstənilən təxribat Ermənistana baha başa gələcək

"...Biz onları qovandan sonra indi onlar ədalət üçün yalvarırlar. Onlar - ərazimizi 30 il ərzində işğal altında saxlayanlar bizi işğalda günahlandırırlar. Bir məsələni də unutmaq olmaz ki, baş nazirin istinad etdiyi 2020-ci il noyabr tarixli üçtərəfli Bəyanat, əslində, de-fakto Ermənistan tərəfindən kapitulyasiya aktıdır".

Bu il fevralın 18-də baş tutan Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən plenar iclasda yalanları ilə dünya ictimaiyyətini aldatmağa çalışan Ermənistan baş naziri Nikol Paşinyanı tutarlı və reallıqları əks etdirən cavabları ilə ifşa və rüsvay edən Prezident İlham Əliyev həm də Azərbaycanın sülh müqaviləsi ilə bağlı dəyişilməz şərtlərini bir daha qətiyyətlə bəyan etdi. Dövlət başçısı xarici havadarlarının dəstəyi ilə Cənubi Qafqazda barışa nail olunmasına hər vəchlə əngəl olmağa çalışan Ermənistana bu riyakar davranışlarının heç bir nəticə verməyəcəyinin, rəsmi İrəvanın Azərbaycanın sülhlə bağlı diktə etdiyi şərtləri qeyd-şərtsiz yerinə yetirməyə məcbur və məhkum olduğunun mesajını çatdırdı.

→ 8

## Azərbaycan könüllüləri Türkiyədəki fəaliyyətlərini yekunlaşdırıblar

Türkiyədə zəlzələ bölgəsində könüllü kimi çalışan gənclərimiz öz qardaşlıq borcunu yerinə yetirib ötən gün vətənə yola düşüblər.

Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, bir ay müddətində ümumilikdə 150 könüllüdən ibarət Azərbaycan nümayəndə heyəti on minlərlə zərərçəkmiş müxtəlif dəstəkverici humanitar xidmətlər göstəriblər. Bu, Azərbaycan gənclərinin həm müddət, həm də say baxımından mütəşəkkil formada xarici ölkədə humanitar yardım istiqamətində təşkil olunmuş ilk könüllü fəaliyyəti kimi yadda qalacaq.

→ 7

## Nizami Gəncəvi Azərbaycan şairi və mütəfəkkiridir

Tehranda keçirilən "Nizami Gəncəvi həftəsi"nin açılış mərasimində İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani anti-Azərbaycan mövqeli iddialar səsləndirib, böyük Azərbaycan mütəfəkkiri Nizami Gəncəvini "fars şairi" adlandırıb.

Rəsmi Tehran bununla anti-Azərbaycan xislətini bir daha nümayiş etdirib. İranın bu əsassız iddiasına Azərbaycanın cavabı gecikməyib. X Qlobal Bakı Forumunun açılış mərasimində Nizami Gəncəvinin doğma Gəncə şəhərində dünyaya gəldiyini, orada yazıb-yaratdığını və dəfn olunduğunu bildirən Prezident İlham Əliyev deyib ki, "Onun müdrikliyi və istedadı Azərbaycan xalqının müdrikliyinin və istedadının təzahürüdür".

→ 8

# "Biz strateji tərəfdaş və müttəfiq kimi Azərbaycan Prezidenti ilə işləməkdən məmnunuq"



*Əvvəli 1-ci səh.*

Əvvəlcə bu vacib tədbirdə iştirak etmək üçün səfərinizə görə Sizə təşəkkür edirəm. Sizin şəxsi iştirakınız Qlobal Bakı Forumunun səviyyəsini yüksəldir və əlbəttə əminəm ki, Siz bu beynəlxalq tədbirin potensialına mühüm töhfə verəcəksiniz. Həmçinin Sofiyadakı görüşlərimizi də məmnunluqla xatırlayıram - keçən il rəsmi səfərim zamanı və interkonnektorun açılışı mərasimində. O vaxtdan ötən dövrdə işlər uğurla irəliləyir və biz strateji əməkdaşlığımızın çox əməli nəticələrini görürük. Bir daha xoş gəlmisiniz.

Bolqarıstan Prezidenti **Rumen Radev** dedi:

- Çox sağ olun, cənab Prezident. Dəvətiniz və səmimi qonaqpərvərliyiniz üçün Sizə təşəkkür edirəm. Bizim münasibətləri dərinləşdirdiyiniz üçün bir daha Sizə təşəkkür edirəm. Çox şadam ki, bu, təkcə enerji sahəsinə şamil edilmir. Sofiyaya səfəriniz bizim əməkdaşlığımızın digər çox vacib sahələrini inkişaf etdirmək üçün dönüş nöqtəsi idi. Əvvəlcə enerjidən başlayaq. Bildiyiniz kimi, Yunanıstanla Bolqarıstan arasında interkonnektorun işə salındığı ilk gündən hər şey mükəmməl və heç bir problem olmadan işləyir. Biz Azərbaycandan qaz aldığımıza görə məmnunuq. Bilirsiniz ki, biz daha da irəli getməyə hazırıq. Bizim "Həmrəylik Həlqəsi" təşəbbüsümüz Sizə məlumdur. Lakin əlbəttə ki, əsas məqam Azərbaycandır. Biz Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qazötürücü operatorlarının imkan və səylərini birləşdirərək əlavə həcmdə Azərbaycan qazı nəql etməyə hazırıq. Bu andan etibarən qərar Sizindir. Məlumat üçün bildirim ki, fevralın 1-də Prezident Vuçiçlə birlikdə biz Bolqarıstanla Serbiya arasında interkonnektora start verdik. Beləliklə, görə bilərsiniz ki, imkanlar demək olar hər ay artır. Biz şaxələndirməni, təchizatın təhlükəsizliyini təmin edərək bu çox mühüm sahədə strateji tərəfdaş və müttəfiq kimi Sizinlə işləməkdən məmnunuq. Söhbət təkcə bundan getmir. Vədinizə əməl etdiyinizə və Sofiyada SOCAR-ın ofisini açdığınıza görə bir daha təşəkkür edirik. Mən mayda açılış mərasimində iştirak etməyi gözləyirəm. Bu, həqiqətən də irəliyə doğru çox yaxşı addım olacaq.

❖ ❖ ❖

Görüşdə enerji, nəqliyyat, təbii qaz təchizatı, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə qeyd edilərək Avropada yeni qaz konnektorunun inşası məsələsinə toxunuldu. Ötən ay Bakıda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Avropaya "yaşıl enerji" təchiz edən önəmli ölkəyə çevrildiyi bildirildi.

Söhbət zamanı nəqliyyat sahəsində əməkdaşlıqla bağlı Bolqarıstandan Azərbaycan ərazisindən Orta Asiya ölkələrinə tranzit yüklərin həcminin artırılması məsələləri barədə fikir mübadiləsi aparıldı.

Rumen Radev Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

# Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransının (MİNEPS VII) 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İdman sahəsində hökumətlərarası təşkilatları, idman hərəkatlarını, ixtisaslaşmış qeyri-hökumət təşkilatlarını və idman mütəxəssislərini bir araya toplayan UNESCO-nun Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin Beynəlxalq Konfransı (MİNEPS) dünyada bədən tərbiyəsi və idman sahəsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biri hesab olunur.

2022-ci il oktyabrın 28-də Paris şəhərində UNESCO-nun Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitəsinin (CİGEPS) növbəti sessiyasında Azərbaycan Respublikası Hökuməti ilə UNESCO arasında Evsahibliyi haqqında Saziş imzalanmış və Azərbaycan 2023-cü ildə keçiriləcək Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransına (MİNEPS VII), eləcə də əlaqədar yığıncaqların təşkilinə evsahibliyi etmək hüququ əldə etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransının (MİNEPS VII) Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Azərbaycan Respublikasının gənclər və idman naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Reklam Agentliyi İdarə Heyətinin sədri
Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəsi
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Milli Komissiyasının Baş katibi
Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini
Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri
"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Bakı Konqres Mərkəzinin direktoru.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransının (MİNEPS VII) Bakı şəhərində keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2023-cü il*

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Məmmədov Elçin Əli oğlu - polkovnik
Zahidov Aydın Tofiq oğlu - polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əliyev Əfqan Zaman oğlu - polkovnik
Ağamaliyev Almas Bilal oğlu - polkovnik-leytenant
Bağırov Zaur Hacı oğlu - polkovnik-leytenant
Əliyev Elşad Vəli oğlu - polkovnik-leytenant
İldırımov Səxavət Qəfər oğlu - polkovnik-leytenant
Paşayev Azər Qafar oğlu - polkovnik-leytenant
Qubatov Neymət Şərafəddin oğlu - mayor
Mancanov Rasim Abdulkərim oğlu - mayor
Yusubov Etibar Hacımurad oğlu - mayor
Musazadə Turqay Məmməd oğlu - kapitan.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2023-cü il*

# Baş nazir Əli Əsədov Çinin yeni Baş nazirini təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Li Çiana Çin Xalq Respublikası Dövlət Şurasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məktubda Li Çiana fəaliyyətində uğurlar arzulanıb, Azərbaycan-Çin münasibətlərinin bundan sonra da dostluq, əməkdaşlıq məcrasında inkişaf edəcəyinə və daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub.

# Albaniya Prezidenti Bayram Beqay Azərbaycana işgüzar səfərə gəlib

**Albaniya Respublikasının Prezidenti Bayram Beqay X Qlobal Bakı Forumunda iştirak etmək üçün martın 11-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Albaniya Prezidenti Bayram Beqayı Azərbaycanın energetika naziri Pərviz Şahbazov və digər rəsmi şəxslər qarşıladılar.

# Qərbi Azərbaycana qayıdış yaxın gələcəkdə reallığa çevriləcək

Dədə-baba yurdlarından zorla çıxarılan, mülkü, mal-qarası və təsərrüfatı əlindən alınıb məcburən respublikamızın müxtəlif bölgələrində məskunlaşdırılmış Qərbi azərbaycanlılardan dəfələrlə: "Kaş, bircə dəfə Vediyə gedə, uşaqlığım keçən o güllü-çiçəkli yerlərə uzaqdan da olsa tamaşa edə biləydim...", "Qocalmışam, elə ürəyimdən keçir ki, Göyçəyə gedəm, atamın-anamın, doğmalarımın məzarını ziyarət edəm...", "Vəsiyyət etmişəm, işdi-şayədi dünya düzəlsə, mənim nəşimi Şəmkir qəbiristanlığından götürüb, Zodda, kənd qəbiristanlığında, doğmalarımın yanında dəfn edərsiniz" və digər bu kimi fikirlərin şahidi olmuşuq.

Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyası xəyallarda yaşayan bu arzuları, istəkləri reallığa çevirmək iqtidarında olandan bu insanların sevincinin həddi-hüdudu yoxdur. Bu sevincin, bu ovqatın yazılı forması redaksiyamıza daxil olan məktub və teleqramlarda, internet vasitəsi ilə göndərilən mesaj və müraciətlərdə də öz əksini tapır.

Həmin müraciətlərdən, habelə rəsmi arxiv sənədlərindən məlum olur ki, Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması 1988-1991-ci illərdə indiki Ermənistandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyanı hesablamış, hazırda bu işlər dəqiqliyi ilə davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, kəndlərin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində ciddi iş aparır. Qeyd edək ki, sovet dönəmində erməni daşnakları məqsədli şəkildə yazdıqları, yaydıqları kitab, qəzet və jurnallarda mədəniyyətimizin, zəngin irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya ermənilərə mənsub olduğunu iddia etməyə çalışıblar. Eyni zamanda onlar tərəfindən azərbaycanlıların mənfi obrazının formalaşdırılması cəhdləri də unudulmayıb.

Prezident İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələlərə xüsusi önəm verərək demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Azərbaycan Prezidentindən dəstək alan Qərbi Azərbaycan İcmasının beynəlxalq hüququn norma və prinsipləri əsasında hazırladığı Qayıdış Konsepsiyası ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Hətta Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Bu yayım indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur.

Qərbi Azərbaycan İcması məsələnin daha qlobal müstəvidə həllinə nail olmaq üçün bu günlərdə Avropa Şurası Parlament Assambleyasına (AŞPA) müraciət ünvanlayaraq Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtması hüququ üzrə monitorinqə başlamağa çağırış edib.

Bu barədə icmanın Mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumatda bildirilir ki, Ermənistanın öz ərazisindən azərbaycanlıları qovması və onların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına imkan verməməsi bu ölkənin insan hüquqları sahəsində Avropa Şurası çərçivəsində götürdüyü, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyası və Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiyasından irəli gələn öhdəliklərinin ciddi şəkildə pozulmasıdır.

Qərbi Azərbaycan İcması hesab edir ki, Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsi Avropa Şurası Parlament Assambleyasının (AŞPA) bu ölkənin öz üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməsi üzrə monitorinq prosedurunun predmeti olmalıdır.

Bütün bunları nəzərə alaraq, Qərbi Azərbaycan İcması Avropa Şurasına Üzv Dövlətlər Tərəfindən Öhdəliklərin Yerinə Yetirilməsi üzrə AŞPA Komitəsinin (Monitorinq Komitəsi) Ermənistan üzrə həmməruzəçiləri Kimmo Kilyunenə və Boriana Eberqə məktub göndərərək onları Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtma hüququnun təmin edilməsi sahəsində Ermənistanın öhdəliyini yerinə yetirməsi üzrə monitorinq proseduruna başlamağa çağırıb.

Monitorinq proseduru çərçivəsində bu məsələyə spesifik şəkildə baxmaq Monitorinq Komitəsinin bir vəzifəsi olmaqla yanaşı, insan hüquqlarının universal və effektiv şəkildə tanınmasına və onlara riayət olunmasına, eləcə də davamlı sülh və təhlükəsizliyin bərqərar olunmasına böyük töhfə olardı.

Milli Məclisin İnsan hüquqları komitəsinin "Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış" mövzusunda keçirdiyi ictimai dinləmələr zamanı Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli bildirib ki, artıq Qərbi Azərbaycanda 237 kəndin siyahıya alınması tam yekunlaşıb, bir neçə aya bu siyahıyaalınma başa çatacaq. Eyni zamanda 20 minə yaxın ailənin sənədləri toplanıb, həmin ailələrə dəymiş ziyan sənədləşdirilib.

Görünən odur ki, sülh və inkişafın təmin edilməsinin yolu həm də barışıqdan keçir. Qərbi Azərbaycan məsələsi Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin tərkib hissələrindən biri olmalıdır. Qərbi azərbaycanlılar onların vətəninə başqa ölkələrdən köçürülən ermənilərlə dinc və yanaşı yaşamağa hazırdırlar. Qərbi azərbaycanlıların həmin ərazilərə qayıtması könüllüdür və onların həmin ərazilərə qayıdanda təhlükəsizlik və sosial-iqtisadi təminatı yerinə yetirilməlidir. Ermənistan bu məsələləri könüllü olaraq üzərinə götürməli, həmçinin həll etməli, azərbaycanlılara qarşı nifrət və ayrı-seçkilik aşılayan siyasətini dayandırmalıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Tovuz, Ağstafa və Qazax rayonlarında yaşayan vətəndaşlarla görüşüb.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib, tikintiməqsədli müraciətlər təhlil edilib, şəhərsalma və torpaq qanunvericiliyinin tələbləri, layihələndirmə norma və qaydalarına dair geniş fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***

# Milli Məclisin Sədri Bəhreyndə bir sıra ölkələrin parlament rəhbərləri ilə görüşüb





**Bəhreyn Krallığında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova martın 11-də bir sıra ölkələrin parlament rəhbərləri ilə görüşlər keçirib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Malavi Milli Assambleyasının sədri Katrin Qotani Hara, Kot-d'İvuar Milli Assambleyasının sədri Adama Biktogo və Belarus Milli Məclisinin Respublika Şurasının sədr müavini Valeriy Belskiy ilə görüşlərdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq haqqında müzakirələr aparılıb. Beynəlxalq təşkilatlarda əməkdaşlığın əhəmiyyətinin vurğulandığı görüşlərdə Parlamentlərarası İttifaq çərçivəsində dialoqun önəmi qeyd olunub.

Bu görüşlərin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin İkinci Konfransı ərəfəsində baş tutduğunu qeyd edən Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan hazırda Qoşulmama Hərəkatına uğurla sədrlik edir və bu platforma çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi, həmçinin beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiəsi üçün ciddi səylər göstərir. O, Azərbaycan Prezidenti İlham Əliyevin mühüm qlobal təşəbbüsləri haqqında da məlumat verib.

Həmçinin qeyd olunub ki, Qoşulmama Hərəkatı həm də parlamentlərarası əlaqələrimizin inkişafı üçün platforma rolunu oynaya bilər. Azərbaycan Qoşulmama Hərəkatının Sədri kimi Hərəkatın parlament ölçüsünü inkişaf etdirmək təşəbbüsü ilə çıxış edib və Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edilib.

Eyni zamanda bildirilib ki, 2021-ci ilin noyabrında Madriddə Parlament Şəbəkəsinin təsis, 2022-ci ilin iyun ayında isə Bakıda birinci konfransı keçirilib.



Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbədən sonra regionda yaranan reallıqlar, azad olunmuş ərazilərdə aparılan bərpa-yenidənqurma işləri, məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıtması üçün görülən tədbirlər, Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımlar barədə məlumat verib.

Görüşlərdə Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, irəli sürdüyü təşəbbüslərin əhəmiyyəti vurğulanıb, o cümlədən Hərəkatın Parlament ölçüsünün yaradılması yüksək qiymətləndirilib. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Parlamentlərarası İttifaqın 146-cı Assambleyasında




Martın 11-də Bəhreyn Krallığının paytaxtı Manama şəhərində Parlamentlərarası İttifaqın 146-cı Assambleyasının təntənəli açılış mərasimi keçirilib. Tədbirdə Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti iştirak edib.

Spiker Sahibə Qafarova Assambleyada çıxış edəcək.

***"Azərbaycan"***



# Ağdamda İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun iclası olub

Ağdamda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirin birinci müavini, İşçi Qrupun rəhbəri Elnur Əliyev ölkə başçısının tapşırıqlarına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin inkişafı istiqamətində kompleks proqramların, genişmiqyaslı bərpa tədbirlərinin, o cümlədən infrastruktur layihələrinin icra olunduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılmasının, sənaye potensialının reallaşdırılmasının, eləcə də optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması əsas vəzifələr sırasındadır.

Tədbirdə işğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması üçün əlverişli şəraitin yaradılması məqsədilə görülən işlər, o cümlədən vergi və gömrük güzəştləri, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, sosial sığorta haqlarının subsidiyalaşdırılması və digər güzəştlər barədə məlumat verilib. Stimullaşdırıcı alətlərin və güzəştlərin Qarabağla yanaşı, regionda təhlükəsiz və layiqli həyat səviyyəsinin formalaşdırılmasına, sosial-iqtisadi potensialın xalqın rifahı naminə effektiv istifadəsinə, xüsusilə, insan kapitalının keyfiyyətinin yüksəldilməsinə, elmin və biliktutumlu sahələrin inkişafına, əmək məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsinə, məşğulluğun artırılmasına təkan verəcəyi vurğulanıb.







Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev aparılan bərpa və quruculuq işləri barədə məlumat verib, bu ərazilərə köçürülən əhalinin məşğulluğunun təmin edilməsində dövlət və özəl müəssisələr tərəfindən xüsusi yanaşmanı tətbiq etməklə, özəl-dövlət tərəfdaşlığının vacibliyini qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sektor müdiri, İşçi Qrupun üzvü Şaiq Adıgözəlov işğaldan azad edilmiş ərazilərdə məşğulluğun təmin olunması ilə bağlı fikirlərini bölüşüb. İşçi Qrupun digər üzvləri təmsil etdikləri qurumlar tərəfindən bu sahədə görülmüş işlər barədə məlumat veriblər. İclasda təqdim olunan hesabatlar İşçi Qrupunun üzvləri tərəfindən müzakirə edilib.

İqtisadi məsələlər üzrə İşçi Qrupunun üzvləri Ağdam rayonunda həyata keçirilən layihələrlə, o cümlədən Ağdam Sənaye Parkında görülən işlərlə də tanış olublar.

# Bəstəkarlar İttifaqının kollektivi ilə görüş

Mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli martın 10-da Azərbaycan Bəstəkarlar İttifaqında qurumun kollektivi ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Adil Kərimli mədəniyyətimizin dayanıqlı inkişafı məqsədilə həyata keçirilən islahatlardan danışıb, görüşün əsas məqsədinin qurumun rəhbərliyi ilə fikir mübadiləsi aparmaq, sahələr üzrə onların təkliflərini dinləmək olduğunu bildirib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin mədəniyyət sahəsinin inkişaf etdirilməsi istiqamətindəki tapşırıqlarına uyğun olaraq yeni strategiya hazırlanır. Buna uyğun olaraq yeni forma və yeni struktur mexanizmləri yaradılacaq. Əsas iş həm də bu sahədə ixtisaslı kadrların artırılmasına diqqət etməkdir. Qeyd olunub ki, milli-mənəvi dəyərlər, mədəni irsimizə münasibətdə müəyyən boşluqlar var. Bu baxımdan peşəkar, yaradıcı sahələrə dəstək verilməlidir və ölkədəki yaradıcı birliklərin əməkdaşlığı önəmlidir.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə qurumun fəaliyyəti, ənənələri barədə məlumat verib. İttifaqın üzvləri bəstəkarlıq sahəsində problemlər və perspektivlərlə bağlı fikirlərini bölüşüblər.



# Heydər Əliyev İli 2023



*Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təfəkkürü tarixi şüura əsaslanır. Azərbaycan Respublikası gənclərinin birinci forumunda Ulu Öndər Heydər Əliyev çıxış edərək tarixi məsələlərə öz konseptual baxışını gənclərə çatdırır: "Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlər Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti - bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr, 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçmişdir. Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik".*

# Heydər Əliyevin dövlətçilik düşüncəsində milli maraqlar

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik düşüncəsinin mayasını müstəqillik ideyası təşkil edir. Heydər Əliyev müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünü dərk etməsinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünərilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmkar mübarizə aparırdı.

Heydər Əliyev bu siyasətin zərgər dəqiqliyi ilə aparılması və ona həssas yanaşılmasını zəruri hesab edərək deyirdi: "Vəziyyət elə gətirmişdir ki, biz öz siyasətimizi sanki nazik bir sap üzərində yeridirik və istənilən anda xırdaca bir səhv nəticəsində hər şey alt-üst ola bilər. Ona görə də bu nazik tel üzrə addımlarımızı elə qurmalıyıq ki, nə xarici, nə də daxili təsirlər bizi büdrətməsin və planlaşdırdığımız işi yüksək səviyyədə axıra çatdıra bilək".

Heydər Əliyev dövlətçilikdə müstəqillik ənənələrinin möhkəmlənməsində parlamentin rolunu çox yüksək qiymətləndirirdi. Təsadüfi deyil ki, Heydər Əliyev parlamentdəki ilk çıxışı zamanı bütün bu problemlərə fərqli yanaşma sərgiləməklə tarixi varislik kontekstində yeni ideoloji konsepsiya irəli sürürdü.

## Tarixi varislik və yeni ideoloji konsepsiya

Sözügedən çıxışda Heydər Əliyev deyir: "İndi biz respublikamızın adını sovet sosialist sözlərdən azad etdik. Bəs indi biz hansı yeni siyasi quruluşu qəbul edirik? Məlum deyil. Yeni bayraq qəbul etdik. Fəqət, bu, heç də eyni bayraq deyil. O, 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı?"

Rus tarixçisi, araşdırmaçı Nikolay Zenkoviçin "Heydər Əliyev. Tale yolları" adlı kitabında onun dövlətçilik düşüncəsinin ən zəruri konponentini təşkil edən milli təəssübkeşliyini səciyyələndirən bir hadisə barəsində qeyd edir. 1960-cı illərin sonunda SSRİ rəhbərliyi Vəli Axundovun yerinə yeni namizədlər axtarışına çıxır. Heç kimə sirr deyildi ki, o dövrdə ən parlaq namizəd məhz Heydər Əliyev idi. Belə bir vaxtda milli təəssübkeşlik bütün dövlət siyasətini beynəlmiləlçilik üzərində quran SSRİ rəhbərliyi üçün ən pis jest ola bilərdi və Heydər Əliyevin karyera yüksəlişinin üstündən xətt çəkmiş olardı. Lakin Heydər Əliyev üçün milli maraqlar həmişə öndə gedirdi. Sözügedən siyasi şəraitdə Azərbaycan DTK-sinə məlumat daxil olur ki, Azərbaycan Dövlət Universiteti Tarix fakültəsinin elmi şurasında fövqəladə hadisə baş verib. Bəzi alimlər öz çıxışlarında iddia etmişdilər ki, Azərbaycan Rusiyaya heç də rəsmi sovet tarixşünaslığının öyrətdiyi kimi, könüllü birləşməmişdir. Bu əraziləri çar generalları silah gücünə qanlı çarpışmalarda zəbt etmişlər. Heydər Əliyev xidməti məlumatı oxuyur, gözlərinə inanmırdı. "Aranı qarışdıranlar" tanınmış tarixçilər M.İsmayılov, S.Əliyarov idilər. Xüsusən təəccüblü idi ki, hamı üçün sanki aydın olan bu faktları təkzib edən alimlər arasında Böyük Vətən müharibəsinin iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun da adı vardı. Qalmaqal universitet divarlarından kənara yayılmışdır. Kommunist Partiyasının Mərkəzi Komitəsinə və DTK-yə müraciət edən "xeyirxahlar" tələb edirdilər ki, həmin alimlərə, xüsusən də Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadova qarşı ən sərt tədbirlər görülsün. Bu ideoloji təxribata göz yummaq olmaz! Beş il əvvəl Azərbaycanın Rusiya tərkibinə könüllü daxil olmasının yubileyi ilə əlaqədar təntənəli tədbirlər keçirilmiş, respublikanı "Lenin" ordeni ilə təltif etmişdilər, indi isə gözlənilmədən belə bir xoşagəlməz hadisə baş verib. Heydər Əliyev "aranı qarışdıranlarla" söhbət etdi. Onlar tarixi mənbələr, o cümlədən Rusiya arxivlərindən olan sənədlər göstərdilər. Qaynaqlar sübut edirdi ki, alimlər doğru danışırlar.

- Heydər Əliyeviç, - Ziya Bunyadov dedi:

- Siz ki ağıllı adamsınız, bilirsiniz tarix siyasətdən nə ilə fərqlənir. Biz tarixi, yalnız tarixi tədqiq edirik. Müzakirələrsiz elm olmaz...

Əliyev çox şeyi, o cümlədən öz karyerasını təhlükə altında qoymuşdu. Bircə yanlış addım kifayət idi ki, bədxahları öz bildikləri kimi yozsunlar. Lakin ədalət hissi, öz xalqına məhəbbət üstün gəldi. Heydər Əliyev tapşırıq verdi ki, bu işi elmi mübahisələrə aid edərək bağlasınlar.

Heydər Əliyevin dövlətçilik konsepsiyası milli dövlətçiliyə əsaslanırdı. Odur ki, onun dövlətçilik düşüncəsində ən vacib amil milli təəssübkeşlik idi.

Sonradan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olanda tam əsasla bəyan etmişdi ki, dövlət təhlükəsizliyi orqanlarında və Kommunist Partiyasının Mərkəzi Komitəsində rəhbər vəzifələrdə işlədiyi zaman Azərbaycan xalqının milli maraqlarına zidd olan heç bir hərəkətə yol verməmişdir.

O, 1997-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti qarşısındakı çıxışında deyirdi: "Antisovet təbliğat və təşviqat üstündə heç vaxt bircə nəfəri də həbs etmədik, baxmayaraq ki, bizə təzyiq göstərmək cəhdləri olurdu".

Əlbəttə, Heydər Əliyev sovet rejiminə inanmış və vicdanla, sədaqətlə xidmət etmişdir. O vaxtlar kim xidmət etmirdi ki? Lakin o biri müttəfiq respublikalarda yaradıcı ziyalıları yadfikirlilik üstündə amansızlıqla təqib edən bəzi həmkarlarından fərqli olaraq, Azərbaycan lideri tarixi hadisələr barədə, Moskvanın "yuxarıdan gələn" rəsmi versiyalarından fərqli fikir irəli sürənləri başa düşməyə çalışırdı. Nə qədər yasaq etsələr də, alternativ tarix həmişə mövcud olur, nəsildən-nəslə ötürülür. Bunu isə yalnız Heydər Əliyev kimi demokratik düşüncə sahibi olan insanlar düzgün dəyərləndirə bilərdi. Heydər Əliyevin parlamentdəki ilk çıxışına sözardı kimi verdiyimiz bu fikirlər onu göstərir ki, onun leksikonunda təsadüfi heç nə yoxdur. Qayıdaq parlamentdəki ilk çıxışa.

## Üçrəngli bayraq və Lenin büstü bir yerdə ola bilməz

Heydər Əliyev aşağıdakı fikirləri söyləməklə respublika rəhbərliyini ölkənin formal deyil, real müstəqillik yolu tutmağa aydın ideoloji konsepsiya yaratmağa səsləyir. O, qeyd edir: "Məmməd Əmin Rəsulzadə partiyasının ideyasını təmsil edən bayraqla ona zidd olan ideyanın banisinin büstünün sessiya keçən salonda yan-yana durması da təəccüb doğurur. Sadəcə desək, bu uyğunsuzluğu anlamaq çətindir. Bəlkə buna bir izahat vermək lazım idi?"

Heydər Əliyevin irəli sürdüyü müstəqil ideoloji konsepsiya tarixi varisliyə əsaslanır. O, özünü ADR-nin varisi elan edən bir respublikanı sovet imperiyasına aydın münasibət bəsləməyə çağıraraq deyir: "28 May Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 may 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Belə olan halda bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun. İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət, öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsının sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?"

## Heydər Əliyevin müstəqil dövlət konsepsiyası tezisləri

Heydər Əliyev siyasi fəlsəfəsinin mayasını təşkil edən dövlət müstəqilliyi konsepsiyası onun həyat amalına çevrilmişdir. Biz gənclərə Heydər Əliyevi sevdirən də məhz bu ideoloji konsepsiya idi. Heydər Əliyevin parlamentdəki ilk çıxışı zamanı dövlət müstəqilliyi ilə bağlı irəli sürdüyü fikirləri həyəcansız dinləməmək mümkün deyildir.

Heydər Əliyev deyirdi: "Bəziləri respublikamızın müstəqil, ittifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə onların ittifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır.

Bu təbliğatlar əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. Bu barədə deputat Səmədzadənin çıxışındakı bir çox müddəalarla mən razı deyiləm. Əgər reqlamentdən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm.

İkincisi, dünyanın hər bir dövləti digər başqa dövlətlərlə istədikləri sahələrdə qarşılıqlı iqtisadi, ticarət, texniki əlaqələr yaradır, ümumdünya inteqrasiya prosesində iştirak edir və bunların heç biri bu dövlətləri müstəqillikdən məhrum etmir. Ona görə də ittifaqda olan respublikaların iqtisadi əlaqələri onların müstəqilliyə nail olmasına mane ola bilməz. Fikrimcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi ittifaqda olan respublikaların hər biri ilə, hətta ittifaq qalarsa, onunla da qarşılıqlı, bərabərhüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni ittifaq müqaviləsindən imtina etməsinə daha çox əsası var. Üç ildir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulub. Lakin ittifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib".

Burada bir məsələni qeyd etməyi özümə borc bilirəm. Heydər Əliyevin parlamentdə çıxışına mane olanlar, ona müstəqilliklə bağlı fikirlərini söyləmək üçün əlavə vaxt verməyərək öz riyakar hərəkətləri ilə respublika rəhbərliyinə yarınmaq istəyənlər sonralar onun haqqında cild-cild kitablar yazsalar da, onların səmimiyyətinə heç kim inanmadı.

## 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verdi

Heydər Əliyev respublika rəhbərliyinin ona olan riyakar münasibətini bildiyi üçün parlamentdəki ilk çıxışı zamanı, demək olar ki, Azərbaycan xalqını narahat edən bütün məsələlərə öz münasibətini bildirir. O, tarixi çıxışında deyir: "1990-cı il yanvarın 20-də ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir. Deputat Qarayevin məruzəsindəki məlumatlar buna tam əsas verir. Məsələnin müzakirəsinin təxirə salınması, uzadılması 20 Yanvar faciəsini ört-basdır etmək niyyəti kimi qəbul oluna bilər. Buna yol vermək olmaz.

Xalq deputatı kimi Bakıda bir ildən artıq müddətdə fövqəladə vəziyyətin hökm sürməsini başa düşə bilmirəm. Aydın deyil ki, sovet ordusunun qoşun hissələri kimi kimdən qoruyur.

Bəziləri deyir ki, 20 yanvarda Bakıya çağırılmamış qoşun hissələri gəlibdir. Əgər onlar, doğrudan da, çağırılmamışdılarsa, respublika dövləti öz suveren hüquqlarından istifadə edərək onları dərhal geri qaytarmalı idi. Lakin belə olmayıb. Əksinə, qoşunların Bakıda indiyə qədər saxlanılması zəruri hesab olunur.

Elmira Qafarovanın "Vətəndaş müharibəsi baş verər" sözləri ilə deputatları və xalqı qorxutması da əsassızdır. Anlamaq olmur: kim kiminlə müharibəyə hazırlaşıb? Bu, çox ciddi məsələdir. Əgər belə bir təhlükə varsa, məsələ Ali Sovetin sessiyasında müzakirə olunmalı, lazımi tədbir görülməlidir.

Sessiyanın gedişi bir daha göstərdi ki, Ali Sovetin qarşısında çox böyük və mürəkkəb vəzifələr durur. Lakin ən əsas vəzifə respublikanın ərazi bütövlüyünü bərpa etmək və xalqımızı erməni təcavüzündən qorumaqdır. Son illərdə Ermənistanda millətçi quldur birləşmələri tərəfindən güclü silahlı hərbi potensial yaranmışdır. Şübhə yoxdur ki, bu, Azərbaycana qarşı təcavüzkarlıq məqsədi daşıyır. Azərbaycan, xüsusən onun sərhədyanı rayonları təhlükə altındadır. Uzun müddətdir ki, Naxçıvan Muxtar Respublikasının əhalisi böyük narahatçılıq hissi keçirir. Ona görə sayıqsızlığa yol vermək olmaz. Respublikanın müstəqil müdafiəsini təmin etmək üçün təxirəsalınmaz tədbirlər görülməlidir".

Yuxarıda qeyd edildiyi kimi, Heydər Əliyevin uzun illərdən sonra ilk dəfə parlament kürsüsündə xalqa müraciətini əks etdirən bu çıxış təkcə qəlbi müstəqillik eşqi ilə döyünən bir müdrik siyasətçinin çıxışı deyil, müstəqil dövlət konsepsiyası idi. Hesab edirəm ki, əliyevşünaslıq bu mövzuda akademik araşdırmalarını davam etdirməlidir.

## Heydər Əliyev xalqı həmrəyliyə çağırdı

Heydər Əliyevi narahat edən məsələlərdən biri də məhz xalqın birliyinin pozulması idi. O, bütün cidd-cəhdlə xalqı həmrəyliyə çağıraraq deyirdi: "Bunun üçün respublikada ümumxalq birliyinə nail olmaq lazımdır. Təəssüf ki, belə bir ağır dövrdə bəzi dairələr xalqı birləşdirmək əvəzinə onu parçalamağa, ayrı-ayrı regionları, rayonları, kəndləri, hətta ayrı-ayrı şəxsləri belə bir-birinə qarşı qoymağa cəhd edirlər. Bunun qabağı tezliklə alınmalıdır. Ümumxalq birliyi yaratmaq üçün Ali Sovet gərək öz mövqeyini aydın bildirsin, öz platformasını yaratsın.

Məlumdur ki, Sovet İttifaqı Kommunist Partiyasının bir hissəsi olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin platforması xalqı birləşdirə bilməz. O, xalq arasında nüfuzdan düşüb, bütün xalqın iradəsini təmsil etmir. Kommunist Partiyası hakimiyyətdən tamamilə imtina etməlidir. Yuxarıdan aşağıya qədər partiya komitələrinin katibləri eyni zamanda sovet orqanlarında rəhbər vəzifə tutmamalıdırlar".

## Gələcək müstəqil dövlətin prioritetlərinin elan olunması

Heydər Əliyevin dövlət müstəqilliyi konsepsiyasının ideoloji əsasını təşkil edən bu çıxış gələcək müstəqil dövlətin prioritetlərini elan edir. O, bildirir ki, demokratiyanın, siyasi plüralizmin, aşkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bütün siyasi qüvvələr eyni hüquqda fəaliyyət göstərməlidirlər. Xalqa hər şey düzgün çatdırılmalıdır. Sosial ədalət bərqərar olunmalıdır. Heydər Əliyevin müstəqil dövlət konsepsiyasının əsasını aşağıdakılar təşkil edirdi:

1) Dövlət müstəqilliyi;

2) Demokratiya, siyasi plüralizm, şəffaflıq;

3) Hüququn aliliyi;

4) Sosial ədalət.

Heydər Əliyevin çıxışının son akkordları da məhz müstəqilliyə həsr edilmişdi. O, bu tarixi məsuliyyəti dərk etməyə, azadlıq və istiqlaliyyətimizin əldə olunmasında bütün gücümüzü səfərbər etməyə çağırırdı: "Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır. Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Heydər Əliyevin parlamentdəki ilk çıxışını araşdırdıqca müstəqilliyə münasibətdə əsrin əvvəllərində mövcud olmuş kəskin fikir ayrılıqları diqqətimizi cəlb etməyə bilmir. Hələ Azərbaycanın Zaqafqaziya Seymində olduğu bir vaxtda bir qrup şəxs Azərbaycanın müstəqil ola bilməyəcəyini, nicatımızın yalnız Rusiyada olmasını səsləndirirdi. Lakin M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, F.Xoyski, N.Yusifbəyli Azərbaycanın müstəqilliyinə çalışır və bu ideyanı təbliğ edirdilər. Hələ 1917-ci ildə Bakıda müsəlmanların birinci qurultayında çıxış edən Nəsib bəy Yüsifbəyli deyirdi: "Kim deyə bilər ki, biz özümüzü idarəetmə səlahiyyətində bir millət deyilik?!" Bu tarixi nailiyyəti yüksək qiymətləndirən Heydər Əliyev qeyd edirdi: "XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı".

Azərbaycanın siyasi irsinə münasibətdə Prezident İlham Əliyev tarixi şüura söykənir. Azərbaycanın dövlətçilik ənənələrini yüksək qiymətləndirir. O, bildirir ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. AXC mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı. Ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Cənab İlham Əliyev siyasi irsi yüksək qiymətləndirməklə sələfi olduğu Ümummilli Lider Heydər Əliyevin siyasi varislik fəlsəfəsinə hörmətlə yanaşmaqla gələcək nəsillərə gözəl nümunə verir: "Xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu. Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq".

Heydər Əliyev irsini ən yaxşı əxz etmiş siyasətçi, peşəcə tarixçi, diplomat olan cənab İlham Əliyevin söylədiyi səciyyəvi fikirlər maraq doğurur: "Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı - Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq... Azərbaycanda bu siyasətin alternativi yoxdur".

Bu siyasətin Azərbaycanda alternativi yoxdur. Azərbaycanın aydın gələcəyi yalnız bu müdirk siyasətlə bağlıdır.

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# X Qlobal Bakı Forumu

# X Qlobal Bakı Forumu başa çatıb

## Forum çərçivəsində keçirilən on bir panel iclasında dünyanı narahat edən aktual məsələlər və onların həlli yolları müzakirə edilib

Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən X Qlobal Bakı Forumu martın 11-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, forumun sonuncu günündə dörd panel iclası keçirilib.

Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciyanın moderatorluğu ilə keçirilən 8-ci panel iclası "Aİ kontekstində Qərbi Balkan regionu" mövzusuna həsr olunub.

Tədbirdə əvvəlcə mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Qərbi Balkan regionunun Avropa İttifaqı kontekstində rolunu qeyd edən Zlatko Laqumciya tərəflər arasında əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb və inteqrasiyanın önəmini qeyd edib. Bildirib ki, bu mövzu bizi narahat edən məsələlərdəndir və onun məhz Qlobal Bakı Forumunda müzakirə edilməsini qərara aldıq.

Cənub-Şərqi Avropanın dəyişdiyini bildirən moderator Balkan regionunun Qərbi Avropa tərəfindən dəstəkləndiyini qeyd edib və Balkan ölkələrinin tezliklə Aİ-yə inteqrasiya ediləcəyinə ümid bəslədiyini bildirib.

Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç diqqətə çatdırıb ki, Qərbi Balkan regionu, Avropa İttifaqı (Aİ) və NATO-nun gələcəyi ikitərəfli münasibətlərdə yaranan problemlərin həllindədir. Qərbi Balkan regionu Aİ-nin bir parçasıdır.

Onun sözlərinə görə, Aİ ölkələri qlobal miqyasda sülh yolu ilə birləşdirməlidir. Hazırda Ukraynada gedən müharibə Aİ-də təhlükəsizliyi və sabitliyi çox həssas bir məsələyə çevirib, digər ölkələrin İttifaqa qoşulmaq istəklərinə təhlükə yaradıb. İnsanlar prosesləri dəstəkləməli, seçkilər yolu ilə gələcəklərini müəyyən etməlidirlər. Xorvatiyanın qonşu ölkələrində lazım olan meyarların uyğunlaşdırılması prosesində dövlətlər arasında birgə əməkdaşlıq vacibdir.

Xorvatiyanın sabiq Prezidenti vurğulayıb ki, ölkələr arasında əməkdaşlıq əlaqələrini gücləndirmək lazımdır. Siyasi prosesdə marağı olan insanlara şans verilməlidir.

Bakıda olmaqdan və forumda iştirak etməkdən çox şad olduğunu vurğulayan Çex Respublikasının sabiq Baş naziri Yan Fişer bu tədbirdə dünyanı maraqlandıran və narahat edən məsələlərin müzakirə olunduğunu deyib.

Sabiq Baş nazir qeyd edib ki, zaman tez keçir və biz vaxtdan istifadə etməliyik. O, Qərbi Balkan ölkələrinin Avropaya inteqrasiyasından danışıb, Avropa İttifaqı ilə Qərbi Balkan ölkələri arasındakı inkişaf və ümumi siyasi icmanın yaradılması məsələlərinə toxunub.

Onun sözlərinə görə, Avropa İttifaqının dünya səhnəsində böyük oyunçu olması üçün bir çox amillər tələb olunur. Avropa İttifaqı və Qərbi Balkan ölkələri arasında əməkdaşlıq əlaqələrini genişləndirmək lazımdır. Qərbi Balkan ölkələrinin idxalının üçdə iki hissəsinin Avropa İttifaqının payına düşdüyünü diqqətə çatdıran Yan Fişer əlaqələrin inkişafında bazar iqtisadiyyatının rolunu vurğulayıb.

Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov isə diqqətə çatdırıb ki, Qərbi Balkan dövlətləri Avropa İttifaqına (Aİ) üzvlüyə müharibələrdən uzaq olmaq və tərəqqi kimi baxır. Bu bölgənin Aİ-nin layiqli bir parçasına çevrilməsinin vacibliyini qeyd edən sabiq Prezident Ukraynanın İttifaqa daxil olmasının vacibliyini vurğulayıb.
















Aİ-nın gələcəyinin Qərbi Balkan regionu ilə bağlı olduğunu bildirən sabiq Prezident deyib: "Qərbi Balkan regionundan olan dövlətlər Aİ-nin bir parçası olmağı qəbul etməli, əvvəlki problemləri Aİ standartlarına uyğun həll etməlidirlər. Sabitliyin təmin edilməsi iqtisadi, siyasi problemləri həll etməyə imkan yaradacaq".

Rumıniyanın sabiq Prezidenti Emil Konstantinesku Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd edərək onun beynəlxalq problemlərin müzakirəsi üçün mühüm platforma olduğunu deyib.

Aİ və Qərbi Balkan regionu arasında mövcud münasibətlərdən danışan sabiq Prezident dəyərlərdən bəhs edərək bildirib: "Ən böyük münaqişələr 1990-cı illərdə Bosniya və Herseqovinada baş verib. Bizim vəzifəmiz təcrübədən faydalanmaqdır. Tarix və zaman dəyişir, təbii olaraq, dövlətlərin, ölkələrin baxışları dəyişir. İnteqrasiya olmadan Avropada sabitlikdən danışmaq mümkün deyil. Açar söz həmrəylikdir. Biz birlik göstərməli və ortaq məxrəcə gəlməliyik".

Qlobal Bakı Forumunda aparılan müzakirələrin problemlərin real həlli baxımından çox faydalı olacağını vurğulayan Monteneqronun sabiq müdafiə naziri Miliça Peyanoviç-Durisiç bildirib ki, ölkəsi 1990-cı illərdə sərhədlərində yaranan münaqişələrdən xilas ola bilib. "Monteneqroda müxtəlif millətlərdən olan insanların yaşamasına baxmayaraq, biz bölgəmizdə sülhü təmin edə bildik. Hazırda dünyada münaqişələr müharibələrə çevrilib. Ukraynada baş verənlər hamı kimi, bizi də narahat edir", - deyə Miliça Peyanoviç-Durisiç qeyd edib.

Avropa İttifaqının (Aİ) koronavirus pandemiyası zamanı Monteneqronun səhiyyə sisteminə və iqtisadiyyata dəstək verdiyini qeyd edən sabiq müdafiə naziri bildirib ki, Aİ-yə üzv olmaq ikitərəfli prosesdir.

Günün ikinci, ümumilikdə isə doqquzuncu panel iclası "Yaxın Şərq və ətrafında sülh, sabitlik və inkişaf axtarışı" mövzusuna həsr edilib.

2004-2009-cu illərdə BMT-nin Ukrayna üzrə rezident əlaqələndiricisi Frensis O'Donnellin moderatorluğu ilə keçirilən iclasda çıxış edən Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Turki Al Faysal Al Saud Ukrayna münaqişəsindən sonra bəzi ölkələr üçün bir çox problemlərin yarandığını bildirib. Deyib ki, Birləşmiş Millətlər Təşkilatının dünyada etibarının daha da artması üçün təşkilat yenilənməlidir.

Misirin sabiq xarici işlər naziri Əmr Musa çıxışında diqqətə çatdırıb ki, Yaxın Şərqdə bir çox məsələlər həllini tapmalıdır. O, regionun ən qısa zamanda nüvə silahından təmizlənəcəyinə inandığını bildirib. "Regionda baş verən münaqişələrin həlli üçün ortaq razılaşmalar əldə olunmalıdır. Sülh bərqərar olmadan inkişafdan söhbət gedə bilməz", - deyə sabiq nazir qeyd edib.

Sonra çıxış edən İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmelledin İhsanoğlu (2004-2014-cü illər) regionda sülhün qurulmasının, sabitliyin yaradılmasının uzun müddətdir müzakirə edildiyini bildirib. "Biz bütün çətinliklərin geridə qalması üçün niyə mübarizə aparmırıq? Belə getsə, bütün region bu cür burulğana çəkilmiş olacaq. Ortaq gələcək üçün bölgəyə rifah gətirməliyik. Dünya sülhü tələb edir ki, qonşu ölkələr bir-birinə dözsün və qarşılıqlı anlaşma şəraitində yaşasın, problemləri həll etsin", - deyə Ekmelledin İhsanoğlu vurğulayıb.

2015-2018-ci illərdə Mavrikinin Prezidenti olmuş Amina Qurib-Fakimin moderatorluğu ilə keçirilən "Afrikanın geostrateji əhəmiyyəti: perspektivlər və çağırışlar" mövzusunda iclasda hazırda ciddi problemlər yaşayan Afrika qitəsinin vəziyyəti müzakirə olunub, geostrateji əhəmiyyəti qeyd edilib. İnkişaf üçün böyük potensialı olan bu qitənin perspektivlərindən danışılıb.

Malavinin sabiq Prezidenti Coys Banda iqlim dəyişikliyinin, su çatışmazlığının törətdiyi fəsadlardan danışıb. Bildirib ki, insanlar su qıtlığından əziyyət çəkirlər və ölkəsində qadınlar su daşımaq üçün xeyli yol qət etməli olurlar. Qlobal Bakı Forumunda QHT nümayəndəsi kimi iştirak etdiyini deyən C.Banda Afrikanı çətin vəziyyətdən çıxarmağın ən optimal variant kimi "ağıllı şəhər" və "ağıllı kənd" layihəsini qeyd edib.

"Liberal International" təşkilatının prezidenti, Mərakeşin sabiq ətraf mühit naziri, Mərakeşin İqlim Dəyişikliyi üzrə sabiq xüsusi nümayəndəsi Hakima El Haite Afrikanın ən çox zərər görən qitə olduğunu və müstəmləkəçiliyə məruz qaldığını qeyd edib. Vurğulayıb ki, afrikalılar öz imkanlarından istifadə edərək bölgəni yenidən dirçəltmək istəyirlər. "Afrika çox zəngindir, lakin bölgənin sakinləri kasıb insanlardır. Günəş enerjisi üçün ən böyük qaynaq məhz Afrikadadır. Təəssüflənirik ki, qitəmizdə bu qədər zəngin ölkə kasıblıqdan və aclıqdan əziyyət çəkir. Afrika, nəhayət, inkişaf etmək, öz yerini tutmaq istəyir", - deyə o əlavə edib.

BMT-nin Baş katibinin Qərbi Afrika və Somali üzrə sabiq xüsusi nümayəndəsi Ahmedu Uld-Abdullah qonaqpərvərliyə və yüksəksəviyyəli tədbirə görə təşkilatçılara təşəkkür edib. O bildirib: "Paytaxt Bakı çox təmiz və təhlükəsiz şəhərdir. Yaxınlarımdan Azərbaycanda təhsil alanlar var. Bura mənim çox xoşuma gəlir".

Afrikanı bir vaxtlar "ümidsiz qitə" adlandırdıqlarını xatırladan natiq bildirib: "Hazırda Afrika ciddi çətinliklərlə üz-üzədir. Əslində, Afrika qitəsinin çox böyük potensialı var. Sadəcə, bu potensialdan düzgün istifadə edilməlidir".

Nigerin sabiq xarici işlər naziri, BMT-nin Kot d'İvuar üzrə sabiq xüsusi nümayəndəsi, "IPITI Consulting"in hazırkı baş icraçı direktoru Ayşatu Mindaudu Qlobal Bakı Forumunda ikinci dəfədir iştirak etdiyini deyib və təşkilatçılara təşəkkürünü bildirib. Forumda çox aktual məsələlərin müzakirə edildiyini vurğulayan baş icraçı direktor Afrikanın mövcud vəziyyəti ilə bağlı fikir mübadilələrinin aparılmasının önəmini qeyd edib.

Seneqalın sabiq Baş naziri Aminata Ture qitəsinin böhran vəziyyətində olmasından narahatlığını ifadə edib. Bildirib ki, Afrika kimi zəngin ehtiyatları və potensialı olan qitə susuzluq problemi yaşayır və aclıqdan əziyyət çəkir. O, problemləri həll etmək və vəziyyətdən çıxmaq üçün koalisiya yaradılmasının vacibliyini vurğulayıb.

Bu günü və ümumiyyətlə, forumun 11-ci olan "Gənclər danışsın, biz dinləyək" mövzusunda panel iclasa moderatorluğu 2005-2010-cu illərdə Ukraynanın birinci xanımı olmuş Katerina Yuşşenko və 2007-2011-ci illərdə Latviyanın Prezidenti olmuş Valdis Zatlers ediblər.

X Qlobal Bakı Forumunun sonuncu panelinin gənclərə həsr edilməsindən məmnunluğunu bildirən Latviyanın sabiq Prezidenti bu tədbirin gələcəyə ümid bəxş etdiyi üçün xüsusi önəm daşıdığını vurğulayıb. Valdis Zatlers deyib ki, gənclikdə hamı böyük işlər görəcəyini, fəaliyyətinin uğurlu olacağını düşünür. "Təbii ki, bir insan kimi həyatımızda uğurlarımız da olur, uğursuzluqlarımız da. Amma bir şey var ki, yaşlı nəsil çox təcrübəlidir. Burada çıxış edən gənclər təcrübəsiz olsalar da, yaradıcı düşüncələri var. Gənclər yeni ideya və düşüncələrini həyata keçirərkən yaşlıların təcrübəsindən də faydalanmalıdırlar".

Katerina Yuşşenko əmin olduğunu bildirib ki, burada çıxış edən gələcəyin liderləri Bakıda öyrəndiklərini sonra karyeralarında tətbiq edəcəklər. O vurğulayıb ki, gələcək gənclərindir və onların arzularını dinləmək lazımdır.

Panel iclasının gənc natiqlərini azərbaycanlı gənc fəal, Qarabağ haqqında kitabın müəllifi Vahid Əliyev təqdim edib.

İctimai sektorla məşğul olduğunu deyən ukraynalı gənc fəal Lesa Unesko bildirib ki, Ukrayna müharibəsi ərzaq çatışmazlığına, enerji probleminə səbəb olub. "Ukrayna xalqı bu müharibədən bezib. Sülhü hamıdan çox, təbii ki, biz istəyirik. Ümid edirik ki, danışıqlar yolu ilə müharibəyə son qoyulacaq və sabitlik bərpa ediləcək", - deyə o vurğulayıb.

Latviyadan olan tələbə Natalia Knipse müharibələrin insanlara və xalqlara vurduğu ziyandan danışıb. İndiyədək hərbi toqquşmaların və münaqişələrin heç kimə xeyir vermədiyini vurğulayıb. Bildirilib ki, Rusiya-Ukrayna müharibəsi də təbii olaraq ən çox bu ölkələrə zərər verib.

Myanmadan olan gənc tədqiqatçı alim Talevir İslam diqqətə çatdırıb ki, onun ölkəsi də təcavüzə məruz qalıb. Rusiya-Ukrayna müharibəsinin törətdiyi fəsadlardan bəhs edən myanmalı gənc münaqişələri və müharibələri diplomatik yolla həll etməyin vacibliyini vurğulayıb.

Gənc lider, "ASAN Könüllüləri" Təşkilatının sədri Emiliya Bayramova könüllülərin sülhün və əməkdaşlığın inkişafına verdiyi töhfələrdən danışıb. Azərbaycanda gənclərə dövlət səviyyəsində diqqət və qayğı göstərildiyini vurğulayan E.Bayramova bildirib ki, Azərbaycan gəncləri həmişə fəaldırlar və hazırda könüllülərimiz ölkəmizin təbii ehtiyatlarının Ermənistan tərəfindən talanmasına etiraz əlaməti olaraq Laçın-Xankəndi yolunda etiraz aksiyasını davam etdirirlər. E.Bayramova gənclərə dəstək verilməsinin vacibliyini qeyd edib.

Tədbirdə çıxış edən digər gənclər mövzu ilə bağlı fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər.

Panel iclası çıxışlardan sonra müzakirələrlə davam edib.

Müzakirələrdə çıxış edən Nobel Sülh mükafatı laureatı Kailaş Satyartini Qlobal Bakı Forumu çərçivəsində gənclərlə bağlı panel müzakirələrin keçirilməsindən və gənclərin çıxışlarından məmnun qaldığını vurğulayıb. Gənclərin hüquqlarının qorunması məsələsinə toxunan K.Satyartini onların əməyinin istismar edilməsindən, təhsil hüququndan məhrum olunmasından təəssüfləndiyini bildirib.

Bununla da Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən X Qlobal Bakı Forumu başa çatıb.

Qeyd edək ki, Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 4 prezident, 2 baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360-dək nümayəndə iştirak edib.

# X Qlobal Bakı Forumu

## Bakıdan dünyaya sülh çağırışı

### Prezident İlham Əliyevin himayəsi altında baş tutan X Qlobal Bakı Forumu dünyanın üzləşdiyi problemlərin həllinə mühüm töhfə verəcək

*Əvvəli 1-ci səh.*

#### Etibarlı tərəfdaş

Bu gün dünyada etibarlı və ciddi tərəfdaş kimi tanınan Azərbaycan İlham Əliyevin şəxsi səyləri, nüfuzu, beynəlxalq miqyaslı məsələlərin həllindəki danılmaz rolu sayəsində qlobal diskussiyaların aparıldığı platformaya çevrilib.

"Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusuna həsr olunan X Qlobal Bakı Forumuna bir çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatıldılar. Ümumilikdə 61 ölkədən 360-dək nümayəndə iştirak edən forumda yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salındı. Həmçinin qarşıda duran çağırışların həlli yolları müzakirə olundu, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunuldu, postpandemiya dövründə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparıldı. Qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi miqrasiyanın qarşısının alınması üçün tədbirlər və sair əsas müzakirə mövzularından oldu.

#### Bügunkü parçalanmış dünyada belə bir Hərəkata böyük ehtiyac var

"Panellərdən birinin multilateralizmə həsr olunması məni məmnun etdi. Xüsusilə ona görə ki, Azərbaycan Qoşulmama Hərəkatında 2019-cu ildə öz üzərinə götürdüyü və 120 dövlətin yekdil qərarı ilə daha bir il - 2023-cü ilədək uzadılmış sədrliyini başa çatdırır", - deyə forumda çıxış edən dövlət başçısı İlham Əliyev bildirdi ki, biz böyük ənənələrə sahib, lakin müəyyən dövr ərzində təəssüf ki, bir az passiv Qoşulmama Hərəkatını, - əgər belə demək olarsa, - canlandırmağa çalışdıq. Prezident onu da söylədi ki, biz bu ilin sonunda sədrliyimiz başa çatdıqdan sonra da səylərimizi davam etdirəcəyik. Çünki biz bugünkü parçalanmış dünyada belə bir Hərəkata böyük ehtiyacın olduğunu görürük.

Dünyada təhlükəsizliklə bağlı yaranan problemlərdən danışan İlham Əliyev münaqişələrin həlli ilə bağlı Azərbaycanın təcrübəsi ilə bağlı fikirlərini bölüşdü, həmçinin Vətən müharibəsindən sonra bölgədə yaranan reallıqlardan danışdı: "Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, onları Qarabağdan sürgün salıb və bir milyon azərbaycanlıya əzab-əziyyət verib. Münaqişəni dinc yolla həll etmək və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün Ermənistanı inandırmaq cəhdlərimizə baxmayaraq, Ermənistan sadəcə BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadı və beynəlxalq hüquqa, beynəlxalq ictimaiyyətə hörmətsizlik göstərdi".

Prezident münaqişənin həlli istiqamətində 28 il ərzində Minsk qrupunun da hər hansı nəticəyə nail olmadığını, onların bu münaqişəni daimi dondurmaq istədiklərini və Azərbaycanın bununla razılaşmadığını dedi: "Biz özünümüdafiə hüququmuzdan, BMT-nin Xartiyasından, xüsusən də onun 51-ci maddəsindən istifadə edərək düzgün olanı etdik. Biz öz ərazilərimizi güc tətbiq etməklə azad etdik. Bu, bizim legitim hüququmuz idi".

Dövlət başçısı onu da əlavə etdi ki, Ermənistanla münaqişəni dinc yolla həll etməyə çalışsaq da, erməni tərəfi konstruktiv yanaşma göstərmədi və Azərbaycan güc tətbiq edərək öz ərazisini azad etdi.

Hazırda ölkəmizin sülh istədiyini söyləyən İlham Əliyev forum iştirakçılarının diqqətinə çatdırdı ki, "...biz hər hansı digər müharibəni istəmirik".

#### Avropanın "yaşıl enerji" xəritəsini ölkəmiz dəyişəcək

X Qlobal Bakı Forumunda panel müzakirələrdən biri də enerji və daşımalar dəhlizlərinə, enerji keçidinə həsr olunmuşdu. Ötən illər ərzində apardığı uğurlu siyasət sayəsində ölkədaxili enerji təhlükəsizliyini yüksək səviyyədə təmin edən Azərbaycan hazırda xam neft, neft məhsulları, təbii qaz, neft-kimya məhsulları və elektrik enerjisini xarici ölkələrə ixrac edir. Eləcə də ölkəmizdə bərpaolunan enerji potensialının yüksək olması Azərbaycanı tezliklə "yaşıl enerji" ixracatçısına çevirəcək.

Sözügedən sahədə IX Forumun üzərindən ötən bir il müddətində Azərbaycanın xeyli nailiyyətlərə imza atdığını bildirən Prezident İlham Əliyev məlumat verdi ki, əvvəlcə Azərbaycan və Avropa Komissiyası Enerji Sahəsində Anlaşma Memorandumunu imzalayıblar. Bununla Azərbaycan Avropaya öz təbii qaz təchizatını və ümumi qaz ixracını xeyli artırıb. Ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Avropa Komissiyasının sədrinin iştirakı ilə "yaşıl enerji" və onun ötürülməsinə dair saziş imzalayıblar. Bunun əsasında Azərbaycandan Avropaya dənizdən külək enerjisi stansiyalarından ötürmə xətti çəkiləcək: "Biz Avropanın enerji xəritəsini neft və qaz boru kəmərlərinin inşası ilə artıq dəyişmişik, indi isə növbə "yaşıl enerji"ni təmin edəcək elektrik xətlərinindir".

#### Beynəlxalq missiya

Üç gün ərzində X Qlobal Bakı Forumunda dünya gündəmində yer alan mühüm problemlərin araşdırılması və həlli yönündə aparılan müzakirə və fikir mübadilələrinin dünyanın yeni çağırışlarına töhfə verəcəyi şübhə doğurmur.

Bəli, dünya xəritəsində kiçik nöqtə kimi görünən Azərbaycan bu gün sülhün, ədalətin, əməkdaşlığın bərqərar olunması üçün beynəlxalq mesajların verildiyi mühüm məkana çevrilib. Bu isə bir daha onu göstərir ki, Azərbaycan dünyanın və beynəlxalq aləmin bir parçası olaraq bəşəri dəyərlər naminə üzərinə düşən məsuliyyəti böyük uğur və müvəffəqiyyətlə gerçəkləşdirir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bakı növbəti mötəbər tədbirə evsahibliyi etdi

### Ölkəmiz qlobal problemlərin müzakirə olunduğu mərkəzdir

Martın 9-dan başlayan "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu uğurla başa çatdı. Forum çərçivəsində panel iclaslarında yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə nəzər salındı. Eyni zamanda qarşıda duran çağırışların həlli yolları müzakirə olundu, dünyanı sarsıdan münaqişələrə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunuldu, postpandemiya dövründə görüləcək işlər, yeni səhiyyə sisteminin formalaşdırılması barədə fikir mübadiləsi aparıldı.





#### Prezident İlham Əliyev qlobal ümidləri doğrulda bilən platforma formalaşdırıb

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında X Qlobal Bakı Forumunun əhəmiyyətinin elə öz adında ifadə olunduğunu bildirib. Bu gün dünyada müasir çağırışları cavablandıran və ümidləri doğrultmağa istiqamətlənən beynəlxalq platformaların mövcudluğundan söz açan deputat qısa müddət əvvəl Münhendə və Davosda nəhəng və uğurlu siyasi müstəviyə şahidlik etdiyimizi xatırladıb: "Amma bu platformalar sülh və təhlükəsizliyə yönəlik fəaliyyət ortaya qoya bilirmi, yaxud belə niyyət, ümumiyyətlə, mövcuddurmu? Təəssüf ki, bu gün qlobal müstəvidə dialoq platformalarının hamısı qütbləşmə siyasətinə qurban gedib. Elə Münhendə də, Davosda da konkret olaraq bir qütbün müdafiəsi və digər tərəfə doğru ittiham ritorikası hakim idi. Həmçinin təşəbbüslər daha çox qarşı tərəflə sülhə yox, onun məğlub edilməsi üçün səylərin birləşdirilməsinə yönəlmişdi".

B.Məhərrəmov vurğulayıb ki, fəaliyyət dairəsinə əsasən iştirakçıların sayının ildən-ilə artması fonunda Prezident İlham Əliyev Bakı Qlobal Forumunun timsalında dünyada çağırışları cavablaya, qlobal ümidləri doğrulda bilən, ehtiyac duyulan platforma formalaşdırıb. Digər tərəfdən, Bakı Forumunda özünü doğrultmuş, qlobal müstəvidə qəbul edilən insanların - sabiq dövlət və hökumət rəhbərlərinin və hazırda dövlət və hökumət başçıları olan, xarici siyasətə, parlamentə rəhbərlik edən şəxslərin cəmləşməsi, əslində, bu müstəvini çağırış və ümidləri təhlil etmək üçün ən doğru beyin mərkəzinə çevirir. Prosesə Azərbaycanın öncüllük etməsinə gəlincə, bu məqam heç kimdə sual doğurmur. "Reallıqdır ki, Azərbaycan dövləti özü bir nümunə yaratmış beynəlxalq subyektdir. Biz BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini cənab İlham Əliyevin rəhbərliyi altında özümüz hərbi-siyasi yolla icra etmişik. Habelə dövlət başçımız Qoşulmama Hərəkatını ətalətdən qlobal təşkilatlanmaya doğru aparan ciddi və nüfuzlu liderdir. Sirr deyil ki, Prezident İlham Əliyevin rəhbərlik dönəminə qədər dünyanın ikinci böyük təsisatı olmasına baxmayaraq, Qoşulmama Hərəkatının fəaliyyətində hansısa fövqəladə, çevik qərarların şahidi olmamışdıq".

Deputat əlavə edib ki, Hərəkat pandemiya ilə mübarizədə qlobal səyləri birləşdirib, postpandemiya və qütblərin toqquşması dövründə isə yeni çağırışlara liderlik edən və təşkilatlanmaya doğru gedən təsisata çevrilib. Təbii ki, ortaya belə bir siyasi-diplomatik təcrübə qoyan ölkənin evsahibliyi etdiyi Qlobal Bakı Forumuna marağın artması, gözləntilərin olması başadüşüləndir.

#### Azərbaycanın beynəlxalq arenada böyük gücə malik olmasının növbəti təsdiqi

Milli Məclisin deputatı Rəşad Mahmudov qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl diplomatik gedişləri ölkəmizin həm regional, həm də dünya miqyaslı nüfuzunu artırmaqdadır.

Deputatın sözlərinə görə, bu gün dövlətlər, müxtəlif siyasi qurumlar, beynəlxalq təşkilatlarla qurulan yüksək münasibətlər və Prezident İlham Əliyevin dünyada qəbul olunan yüksək nüfuzu Azərbaycanı bütövlükdə dünya siyasətinin reallaşmasında mühüm iştirakçıya çevirib. Bütün bunların nəticəsidir ki, Bakı ardıcıl olaraq bir neçə beynəlxalq tədbirə evsahibliyi edir. Qoşulmama Hərəkatının son sammitindən sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da keçirilən "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu da bu baxımdan mühüm önəm daşıyır.

Prezidentin forumda çıxışından söz açan Rəşad Mahmudov bildirib ki, dövlət başçısı haqlı olaraq həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin nəticəsi kimi Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsinin və intellektual potensialının aparıcı beynəlxalq konfranslara uyğun olduğunu qeyd edib: "Cənab Prezident həmçinin qeyd etdi ki, dünya hazırkı şəraitdə soyuq müharibənin bitməsindən sonra Şərq-Qərb qarşıdurmasına şahidlik edir. Bütün problemlərin fonunda Qoşulmama Hərəkatı münaqişələrin həllində, yeni yanaşmaların formalaşdırılmasında mühüm rol oynaya bilər. Ölkə rəhbəri münaqişələrin yaranmasından, onun həlli yollarından danışaraq diqqəti Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi hərbi təcavüzə yönəltdi və işğal nəticəsində Azərbaycanda humanitar fəlakətin yarandığını, bir milyondan artıq azərbaycanlının öz ölkəsində qaçqın və məcburi köçkünə çevrildiyini, rəsmi İrəvanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti apardığını vurğuladı. Prezident həmçinin münaqişəni sülhlə aradan qaldırmağı və erməni silahlılarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə işğalçı ölkənin məhəl qoymamasını, beynəlxalq hüquqa nümayişkaranə şəkildə hörmətsizlik etdiyini də diqqətə çatdırdı".

R.Mahmudov Prezident İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bundan əvvəl reallaşan forumundan ötən müddətdə bir sıra önəmli iqtisadi hadisələrin baş verdiyini, Azərbaycan və Avropa Komissiyası arasında enerji sahəsində imzalanan anlaşma memorandumunun hazırda uğurla icrasından söz açdığını xatırladıb: "Prezident İlham Əliyev çıxışında ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın Avropa Komissiyası sədrinin iştirakı ilə "yaşıl enerji"nin ötürülməsinə dair saziş imzalandığını da bildirdi. Ölkə rəhbəri həmin saziş əsasında Azərbaycandan Avropaya dənizdəki külək enerjisi stansiyalarından xəttin çəkiləcəyini, həmin ötürmə xəttinin bir hissəsinin Qara dənizin dibi ilə aparılacağını və bununla bağlı hazırda respublikamızda texniki əsaslandırma prosesinin reallaşdırıldığını iştirakçıların diqqətinə çatdırdı".

O qeyd edib ki, X Qlobal Bakı Forumu Azərbaycanın həm iqtisadi, həm də siyasi baxımdan beynəlxalq arenada böyük gücə malik olduğunu bir daha təsdiqlədi. Prezident İlham Əliyevin həm bu mötəbər tədbirdə çıxışı, həm də forum iştirakçısı olan nüfuzlu siyasətçiləri qəbul edərkən söylədiyi fikirlər ölkəmizin öz maraqlarını təmin etmək gücündə olduğunu göstərdi.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Müasir dünyamızın aktual məsələləri Bakıda müzakirə olunur

Qloballaşma müasir dünyamızın aktual məsələlərindən birinə çevrilib. Yer üzündə sülhün təmin olunması, təhlükəsizlik məsələlərinə təhdidin müzakirə edilməsi və birlikdə çıxış yollarının axtarılması labüddür. Azərbaycanın son illər təşkil etdiyi bir sıra tədbirlər bu mənada olduqca təqdirəlayiqdir. Martın 9-da işə başlayan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən X Qlobal Bakı Forumu da son illər xüsusilə aktuallıq kəsb edən mövzunu - "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunu əks etdirir.

Beynəlxalq forumun təşkilatçısı - Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezident İlham Əliyevin sərəncamına əsasən, 2012-ci il sentyabrın 30-da dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. İldən-ilə fəaliyyəti ilə diqqəti cəlb edib, qlobal problemlərin həlli yollarını araşdıran, dünya ictimaiyyətini bu barədə məlumatlandıran mühüm beynəlxalq mərkəzə çevrilib. Mərkəz çox əhəmiyyətli məsələlərin gündəmə gətirildiyi maraqlı tədbirlərin təşkilatçısı olub. Qlobal Bakı Forumu belə əhəmiyyətli tədbirlərdən biridir.

Növbəti tədbir - "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu ən vacib məsələlərə diqqət çəkdi. Beynəlxalq tədbirdə yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər saldı, qarşıda duran çağırışların həlli yolları müzakirə olundu, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, eləcə də iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunuldu, postpandemiya dövründə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi miqrasiyanın qarşısının alınması üçün tədbirlər əsas müzakirə mövzularından oldu. İştirakçılar Avropanın gələcəyi ilə bağlı təsəvvürlərini bölüşdü, populizmin və ekstremizmin mənbəyini araşdırdı, ona qarşı səmərəli mübarizə yollarını müəyyənləşdirdi.

Əvvəlki forumlarda olduğu kimi, bu tədbirdə də dünyanın müxtəlif ölkələrinin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak etdilər. Belə ki, builki forumun iştirakçıları arasında 4 Prezident, 2 Baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360-dək nümayəndə var idi.

Azərbaycan Prezidenti İlham Əliyev "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimində çıxış etdi. Dövlət başçısı Azərbaycanın Avropanın və dünyanın enerji təhlükəsizliyindəki roluna toxundu. "Bizim müasir infrastrukturumuz var. İndi bu, heç vaxt olmadığı qədər vacibdir", - deyə bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan həmçinin daşımaların təhlükəsizliyini təmin edir.

Bu gün ölkəmizdə bütün sahələrdə həyata keçirilən işlər, əldə olunan uğurlar nəticəsində Azərbaycan dünya dövlətləri sırasında etibarlı tərəfdaşlardan biri kimi tanınır. Prezident İlham Əliyev bu məsələni də vurğuladı: "Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırır, bu belədir, biz hər zaman etibarlı tərəfdaş olmuşuq. Biz neftimizi, təbii qazı, elektrik enerjisini, neft-kimya məhsullarını beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına çıxarırıq". Dövlət başçısı bildirdi ki, qaz yataqlarımıza investisiyalarımızı artırırıq: "Ukrayna-Rusiya müharibəsi başlayandan sonra biz qaz təchizatının artırılması ilə bağlı 10 Avropa ölkəsindən müraciətlər almışıq və bunu da edirik".

Azərbaycanın 2019-cu ildə 19 milyard kubmetr qaz ixrac etdiyini xatırladan dövlət başçısı bildirib ki, bu il həmin rəqəm 24 milyard kubmetrdən artıq olacaq. Onun ən azı yarısı Avropaya istiqamətləndiriləcək. Bu, birmənalı olaraq Avropa istehlakçılarına imkan verəcək ki, onların təbii qaza çıxışı olsun. Bu, xüsusən indiki geosiyasi vəziyyət baxımından çox zəruridir.

Beynəlxalq Maliyyə Korporasiyasının Xəzər dənizində külək potensialının yekun qiymətləndirməsini apardığını söyləyən dövlət başçısı bildirib ki, bu potensial 157 qiqavat təşkil edir. Prezident İlham Əliyev nəzərə çatdırıb ki, "yaşıl enerji"yə keçid sürətlə gedir.

Dünyanın qlobal bəlasına çevrilmiş COVID-19 pandemiyasına qarşı mübarizə çərçivəsində Azərbaycanın həyata keçirdiyi tədbirlərdən də söz açan dövlət başçısı qeyd etdi ki, biz pandemiya ilə mübarizə üçün 80 dövlətə yardım etmişik: "Biz peyvənd millətçiliyinə qarşı mövqeyimizi bildirdik. Biz həmçinin müəyyən tədbirlərin görülməsinə dəstəyimizi verdik və 80 dövlətə, əsasən Qoşulmama Hərəkatının üzvlərinə yardım etdik".

Azərbaycan dövləti bütün məsələlərdə hər zaman qanunları əsas götürür, haqq, ədalət prinsiplərindən çıxış edir. Beynəlxalq qanunlara hörmətlə yanaşır və əməl edir. X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında Prezident İlham Əliyev vurğuladı ki, ölkələr arasındakı mübahisələr ərazi bütövlüyü və suverenlik prinsipi əsasında həll olunmalıdır: "Hər münaqişənin öz tarixi, dinamikası və sonu var. Lakin vacib məsələ ondan ibarətdir ki, ölkələr arasındakı mübahisələr beynəlxalq hüquq - ərazi bütövlüyü və suverenlik prinsipi əsasında həll olunmalıdır".

Prezident İlham Əliyev qeyd etdi ki, bu, güclə dəyişdirilə bilməz: "Bu, Azərbaycanın mövqeyini təşkil edir. Bu, nəinki bizim işimizə, dünyadakı bütün münaqişələrə aiddir. Biz bu barədə öz mövqeyimizi aydın şəkildə nümayiş etdirmişik".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Dövlətçiliyin keşiyində əzmkar xidmət nümunəsi

*Əvvəli 1-ci səh.*

Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın döyüşlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz iz qoyub.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci il martın 9-da imzalanmış fərmana uyğun olaraq, 12 mart tarixi Daxili Qoşunlar Günü elan olunub. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüş əməliyyatlarına ilk dəfə olaraq 1992-ci il mart ayının 12-də başlayıb.




Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti yeni mərhələyə qədəm qoyub, onun təyinatından irəli gələn vəzifələrin icrasında zəngin təcrübə qazanılıb, geniş quruculuq işləri aparılıb, maddi-texniki bazası yenilənib, beynəlxalq hərbi əməkdaşlıq əlaqələri qurulub. Daxili Qoşunlar döyüş hazırlığına, hərtərəfli təchizatına, müasir silah-sursatına, texnikasına görə Avropanın qabaqcıl ölkələrinin müvafiq qurumları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlib.



2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini veriblər. Ön cəbhənin müxtəlif istiqamətlərində Daxili Qoşunların şəxsi heyəti düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirib.



Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının daim nəzarətindədir. İstər cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, istərsə də mühüm dövlət obyektlərinin mühafizəsində şəxsi heyət müsbət nəticələr əldə edib. Əlbəttə ki, bu uğurlar bilikli və bacarıqlı komandir heyətinin rəhbərliyi altında idarəçiliyin, yüksək döyüş hazırlığının və təlimlərin hesabına ərsəyə gəlib.

Daxili Qoşunlarda bu gün ciddi nizam-intizam hökm sürür, şəxsi heyətin mənəvi-psixoloji durumu qənaətbəxşdir. Şəxsi heyət Azərbaycan Prezidentinə, dövlətə, xalqa məhəbbət və sədaqət ruhunda tərbiyə olunur. Hərbi hissələrin döyüş qabiliyyəti və döyüş ruhu kifayət qədər yüksəkdir.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında da layiqincə iştirak edib. Hərbi qulluqçularımız işğalına son qoyulan torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanaraq, həmin bölgələrdə polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində yüksək peşəkarlıq göstərərək, dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlirlər. Bu da Daxili Qoşunların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

***Anar ƏHMƏDOV,***
***DİN-in Daxili Qoşunlarının "Əsgər" qəzetinin redaktoru, mayor***

# Gəncədə Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib







Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli sərəncamına əsasən, 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkil etdiyi silsilə tədbirlər çərçivəsində Gəncə şəhərində "Heydər Əliyev təhlükəsizlik orqanlarının fəxri rəhbəridir" adlı tədbir keçirilib.

Qurumun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, DTX-nin rəhbər heyəti və əməkdaşları, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri, Gəncədə yerləşən ali təhsil müəssisələrinin rektorları, Milli Məclisin deputatları və təhlükəsizlik orqanlarının veteranları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra tədbir DTX-nin Gəncə şəhər idarəsinin akt zalında davam etdirilib. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmiş, Dövlət himnimiz səsləndirilib.

Tədbirdə çıxış edənlər Heydər Əliyevin xüsusi xidmət orqanlarındakı 25 illik fəaliyyətindən ətraflı bəhs edib, dahi rəhbərin bu təsisatda apardığı milliləşmə prosesindən, fəaliyyəti dövründə çoxlu sayda azərbaycanlı kadrların xidmətə qəbul edilməsindən söhbət açıb, onun dərin zəkası, geniş dünyagörüşü, hadisələri düzgün təhlil etmək bacarığı, savadı və istedadı sayəsində əməliyyat müvəkkili vəzifəsindən Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinədək yüksəlməsini qeyd ediblər. Natiqlər müstəqillik qazanıldıqdan sonra da Ulu Öndərin heç zaman təhlükəsizlik təşkilatlarından öz dəstəyini əsirgəmədiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu orqanlara diqqət və qayğısını xüsusi vurğulayıblar.

Tədbir DTX-nin Azərbaycan Televiziyası ilə birgə reallaşdırdığı "Konfidensial" layihəsinin ilk buraxılışı olan və Ulu Öndər Heydər Əliyevin təhlükəsizlik orqanlarında xidmət etdiyi zaman onun rəhbərliyi ilə keçirilmiş "Naturalist" əməliyyatına həsr olunmuş sənədli filmin nümayişi ilə başa çatıb.

# XİN Türkiyədə zəlzələdən zərər çəkmiş vətəndaşların təxliyəsi barədə məlumat yayıb

Türkiyədə zəlzələ nəticəsində zərər çəkmiş Azərbaycan vətəndaşlarına dəstək tədbirləri çərçivəsində martın 10-da Azərbaycan Respublikası vətəndaşlarının və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşlarının zəlzələ bölgəsindən planlaşdırılan sonuncu təxliyəsi həyata keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bununla zəlzələ baş vermiş gündən etibarən ümumilikdə 686 nəfər təxliyə olunub.

Türkiyə Respublikasından təxliyəsi həyata keçirilən vətəndaşlarımız və onların ailə üzvlərinə lazımi tibbi, humanitar və psixoloji yardımın göstərilməsi, zərurət yarandıqda həmin şəxslərin müvəqqəti sığınacaq mərkəzlərinə yerləşdirilməsi istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

İndiyə qədər 2 nəfər Azərbaycan vətəndaşı haqqında hələ də məlumat əldə etmək mümkün olmayıb, onların axtarışları davam etdirilir.

# Azərbaycan könüllüləri Türkiyədəki fəaliyyətlərini yekunlaşdırıblar





*Əvvəli 1-ci səh.*

Kahramanmaraş şəhərində baş tutan yola salınma mərasimində iştirak edən Türkiyə Gənclər Fondunun (TÜGVA) nümayəndələri, türkiyəli könüllülər, yerli sakinlər, o cümlədən könüllülərimizin dostlarına çevrilmiş uşaqlar Azərbaycan könüllülərinə minnətdarlıq ifadə edib, gənclərimizin zəlzələ bölgəsindəki fəaliyyətini yüksək qiymətləndirib, onlara bu müddət ərzində göstərdikləri qardaş dəstəyinə görə təşəkkürlərini çatdırıb, uğurlu yol arzulayıblar. TÜGVA nümayəndələri bu müddət ərzində çiyin-çiyinə işlədikləri Azərbaycan könüllülərinin əzmkarlığına heyran olduqları, onların əsl qardaşlıq nümunəsi göstərdiklərini vurğulayıblar. Məlumat üçün bildirək ki, Türkiyədə baş vermiş və çoxsaylı insan itkilərinə səbəb olmuş zəlzələdən dərhal sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə Azərbaycan dövləti tərəfindən qardaş ölkəyə yardım məqsədilə həyata keçirilən və xalqımızın da böyük dəstək verdiyi genişmiqyaslı tədbirlərə Azərbaycanın könüllü gəncləri də qoşulublar.

# Müasir Azərbaycan hərbçisinin gözündən heç nə yayınmır və istənilən təxribat cavabsız qalmır

## Azərbaycan-Ermənistan şərti dövlət sərhədi boyu və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti ətraflı təhlil edilib

**Martın 11-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, hərbi birlik komandirləri, həmçinin videobağlantı vasitəsilə hərbi birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələri müşavirə iştirakçılarına çatdırıb.

Azərbaycan-Ermənistan şərti dövlət sərhədi boyu və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti ətraflı təhlil edilib.



Ordumuzun bölmələri tərəfindən dəfələrlə müşahidə olunan, Ermənistanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycanın suveren ərazilərində qalan qeyri-qanuni erməni silahlı birləşmələri üçün hərbi daşımaları və canlı qüvvənin rotasiyasını həyata keçirməsinin yolverilməz olduğu bildirilib.

Müdafiə naziri qeyd edib ki, qarşı tərəfin, o cümlədən qeyri-qanuni erməni silahlı birləşmələrinin fəaliyyətlərinin fasiləsiz müşahidəsi bundan sonra da davam etdirilməlidir. Ordumuz bölgədə süni gərginlik yaratmağa çalışan Ermənistanın ehtimal edilən təhdidlərinə qarşı preventiv tədbirlər görməli və zərurət yarandıqda adekvat cavab verməlidir.

Bildirilib ki, Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almaq üçün qəti zəruri addımlar atacaq.

General-polkovnik Z.Həsənov silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının şəxsi heyət tərəfindən öyrənilməsi və döyüş tapşırıqlarının icrası zamanı effektiv tətbiqinə dair konkret tapşırıqlar verib.

Hərbi qulluqçuların peşəkarlığının və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması məqsədilə keçirilən təlimlərin real döyüş şəraitinə uyğun təşkil edilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı təhlükəsizlik qaydalarına riayət edilməsi və yanğın əleyhinə zəruri tədbirlərin görülməsinin əhəmiyyəti qeyd olunub.

Novruz bayramı günlərində bölmələrin döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması, döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətin sayıqlığının daha da artırılması barədə konkret tapşırıqlar verilib.

Daha sonra Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən tədbirlər barədə məruzələr dinlənilib, bu istiqamətdə fəaliyyətlərin davam etdirilməsi barədə aidiyyəti vəzifəli şəxslərə göstərişlər verilib.

Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraiti, həmçinin tibbi təminatı ilə bağlı tələblərini müşavirə iştirakçılarına çatdırıb.

Azərbaycan Ordusunda mənəvi-psixoloji vəziyyətin, eləcə də döyüş ruhunun daim yüksək səviyyədə saxlanılmasına dair göstərişlər verən nazir şəxsi heyətə hər zaman diqqət və qayğı ilə yanaşılmasının vacibliyini vurğulayıb.

Sonda azad edilmiş ərazilərdə yerinə yetirilən mühəndis təminatı tədbirlərinin intensivliyinin artırılması barədə aidiyyəti üzrə müvafiq göstərişlər verilib.

## Laçın yolunun Azərbaycan-Ermənistan sərhədinin son nöqtəsində sərhəd-keçid nəzarət məntəqəmizin qurulması zəruridir

Ermənistan silahlı qüvvələri bölmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin şəxsi heyətini daşıyan hərbi nəqliyyat vasitələrinin Rusiya sülhməramlı kontingentinin müşayiəti altında növbəti dəfə Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu ilə hərəkəti bölmələrimizin texniki müşahidə vasitələri ilə qeydə alınıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təqdim olunan videogörüntülərdə Ermənistan silahlı qüvvələri bölmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi nəqliyyat vasitələrinin qeyd edilən marşrut üzrə hərəkətinin Rusiya sülhməramlı kontingentinə məxsus ZTR-82A döyüş maşını ilə müşayiət edilməsi və döyüş mövqeyinə gətirilən şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi aydın müşahidə olunur.

Bəyan edirik ki, Azərbaycanın Qarabağ iqtisadi rayonuna Ermənistandan hərbi yüklərin daşınması dərhal dayandırılmalı və qeyri-qanuni erməni silahlı dəstələrinin ən qısa müddətdə tərksilah edilərək ərazimizdən çıxarılması təmin edilməlidir.

Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin komandanlığı bu prosesdə öz məsuliyyətini dərk etməli və üzərinə düşən öhdəlikləri mütləq şəkildə icra etməlidir.

Mütəmadi baş verən bu kimi qeyri-qanuni fəaliyyətlər Laçın yolunun Azərbaycan-Ermənistan sərhədinin son nöqtəsində Azərbaycanın sərhəd-keçid və nəzarət məntəqəsinin qurulmasını zəruri edir.

## Aksiya iştirakçıları tələbləri yerinə yetirilənədək etirazlarını davam etdirəcəklər

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 91 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın soyuq olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər.




Aksiya iştirakçıları tələbləri yerinə yetirilənədək etirazlarını davam etdirəcəklərini bildirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# İstənilən təxribat Ermənistana baha başa gələcək

## Vətən müharibəsindəki biabırçı məğlubiyyətindən dərs çıxarmayan bu ölkə Azərbaycana qarşı təxribatlar törətmək kimi axmaq "cürət" sərgiləyir

***Əvvəli 1-ci səh.***

### Üçtərəfli Bəyanatın müddəaları pozulur

Faktdır ki, 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına rəsmən qol çəkən Ermənistan ötən dövr ərzində üçtərəfli Bəyanatın müddəalarını yerinə yetirməkdən yayınıb. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin həmin tarixdə imzaladığı bəyanata zidd olaraq erməni silahlı qüvvələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb, eləcə də bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilir. Ermənistan Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə edərək üçtərəfli Bəyanatın altıncı bəndinə zidd fəaliyyət göstərib.

Sadalanan bütün bu faktlar onu deməyə əsas verir ki, görünür, Ermənistan 44 günlük Vətən müharibəsində uğradıldığı biabırçı məğlubiyyətini unudub və güvəndiyi bəzi xarici ölkə və təşkilatların köməyinə ümid edərək Azərbaycana qarşı təxribatlar törətmək kimi quduz iştahaya düşüb.

### Bütün məsuliyyət rəsmi İrəvanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

Cari il martın 5-də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti olaraq yerləşdiyi Azərbaycan ərazilərində Ermənistanın törətdiyi növbəti təxribatlar da bunun əyani göstəricisidir.

O da diqqətçəkən məqamdır ki, son dövrlərdə ərazilərimiz Ermənistan silahlı qüvvələri tərəfindən mütəmadi olaraq atəşə tutulur. Martın 8-i saat 21:30-dan martın 9-u saat 04:15-dək də ordumuzun Azərbaycan-Ermənistan şərti sərhədində və Qarabağ iqtisadi rayonunda yerləşən mövqeləri 23 dəfə atəşə tutulub. Bununla əlaqədar Müdafiə Nazirliyi bildirib ki, Ermənistan silahlı qüvvələri mövqelərimizi sistematik atəşə tutmaqla ordumuzu cavab atəşi açmağa təhrik edir və bununla da şərti sərhəddə fəaliyyət göstərən Avropa İttifaqının mülki missiyasının nümayəndələrində yanlış rəy formalaşdırmağa, eləcə də bölgədə süni gərginlik yaratmağa cəhd edir: "Bir daha bildiririk ki, Ermənistan tərəfindən törədilə biləcək təxribatlara və bunun nəticəsində baş verəcək insan tələfatına görə bütün məsuliyyət rəsmi İrəvanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

### Azərbaycana qarşı hərbi təcavüz siyasəti dərhal dayandırılmasa...

Müdafiə Nazirliyinin martın 5-də Ermənistan tərəfindən həyata keçirilən təxribatla bağlı ötən çərşənbə axşamı yaydığı məlumatda da bildirilir ki, sözügedən tarixdə Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda baş vermiş insidentdən sonra Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin bu yoldan hərbi təyinatlı daşımaları həyata keçirmək məqsədilə növbəti dəfə istifadə etməsi Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələrinin texniki müşahidə vasitələri ilə qeydə alınıb. Belə ki, martın 7-də gün ərzində Ermənistan silahlı qüvvələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi nəqliyyat vasitələrinin qeyd olunan yoldan kolon şəklində hərəkəti Rusiya sülhməramlı kontingentinin müşayiəti altında təmin edilib. Ermənistanın təkzibinə və riyakarlığına baxmayaraq, texniki müşahidə vasitələri ilə yolun hərbi daşımalar üçün istifadə edildiyi bir daha təsbit olunub: "Bir daha bəyan edirik ki, Ermənistan tərəfindən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşən qeyri-qanuni erməni silahlı dəstələrinə silah, sursat, mina, təminat və digər hərbi vasitələrin çatdırılması, eləcə də bu yolla döyüş mövqelərinə şəxsi heyətin daşınması və rotasiyası Azərbaycanın suverenliyinin, üçtərəfli Bəyanatın müddəalarının kobud şəkildə pozulması və Azərbaycana qarşı hərbi təcavüz siyasətinin davam etdirilməsidir. Bu kimi əməllərə dərhal və birdəfəlik son qoyulmasa, Ermənistanın və qanunsuz erməni hərbi ünsürlərinin Azərbaycanın suveren ərazilərində törətdikləri hərəkətlərin qarşısını almaq məqsədilə Azərbaycan tərəfi zəruri tədbirlər görmək məcburiyyətində qalacaqdır".

### Laçın yolunun başlanğıcında sərhəd-nəzarət keçid məntəqəsi yaradılmalıdır

Ermənistanın törətdiyi bu hərbi cinayət əməlləri Azərbaycan-Ermənistan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin vacibliyini bir daha sübut edir.

Bununla əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyi bildirir ki, Ermənistan tərəfinin Azərbaycana qarşı təcavüz siyasətinin və qeyri-qanuni əməllərinin qarşısının alınması məqsədilə Laçın yolunun başlanğıcında sərhəd-nəzarət keçid məntəqəsi yaradılması labüddür. Çünki Vətən müharibəsindən ötən müddət ərzində Ermənistan bu yoldan ölkəmizə qarşı hərbi təxribatlar törətmək üçün istifadə edib. O cümlədən bu yolla daşıdığı minaları ərazilərimizə basdırıb.

Ötən il sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətmişdi. Həmin vaxt Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirmişdilər. Sözügedən tarixdə gecə saatlarından başlayan təxribata görə düşmən rəşadətli ordumuz tərəfindən yerində otuzdurulmuşdu.

### Ermənistanın sülh müqaviləsini bağlamaqdan başqa çıxış yolu yoxdur

Ermənistan hər dəfə ölkəmizə qarşı təxribatlara əl atdıqda Azərbaycan təcavüzkarı layiqincə yerində otuzdurub. Ötən il avqustun 3-də Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyini, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürməsi də buna sübutdur.

Bu həm də onu göstərir ki, Ermənistanın sülhdən başqa çıxış yolu yoxdur və rəsmi İrəvanın barışığı pozan riyakar və təxribatçı əməlləri Azərbaycanın öz milli maraqlarını qətiyyətlə təmin etməsinə heç bir əngəl törədə bilməz. İstər hərb meydanında, istərsə də diplomatik arenada Ermənistan Azərbaycanın qarşısında diz çökməyə məcbur və məhkumdur. Rəsmi İrəvan acı aqibətini gözü qarşısına alaraq üçtərəfli Bəyanatın şərtlərini dərhal yerinə yetirməli və sülh sazişini öz xoşuna imzalamalıdır. Bunun əksi isə ona dəlalət edir ki, Ermənistan yenə "dəmir yumruq" istəyir...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Nizami Gəncəvi Azərbaycan şairi və mütəfəkkiridir

## İranın cəfəng iddiaları isə həmişəki kimi iflasa məhkumdur



**Tehranda keçirilən "Nizami Gəncəvi həftəsi"nin açılış mərasimində İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani anti-Azərbaycan mövqeli iddialar səsləndirib, böyük Azərbaycan mütəfəkkiri Nizami Gəncəvini "fars şairi" adlandırıb.**

Rəsmi Tehran bununla anti-Azərbaycan xislətini bir daha nümayiş etdirib. İranın bu əsassız iddiasına Azərbaycanın cavabı gecikməyib. X Qlobal Bakı Forumunun açılış mərasimində Nizami Gəncəvinin doğma Gəncə şəhərində dünyaya gəldiyini, orada yazıb-yaratdığını və dəfn olunduğunu bildirən Prezident İlham Əliyev deyib ki, "Onun müdrikliyi və istedadı Azərbaycan xalqının müdrikliyinin və istedadının təzahürüdür".

### İran farsca yazan bütün şairləri özününküləşdirməyə cəhd edir

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Anar İsgəndərov qeyd edib ki, İran bir dövlət kimi Azərbaycana münasibətdə heç zaman ədalətli mövqe tutmayıb. Hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda da ilk etiraz məhz İrandan gəlmişdi. Onlar iddia edirdilər ki, guya Azərbaycan adlı dövlət heç zaman olmayıb, bu ərazilər İrana məxsusdur. Bu, əlbəttə ki, ağ yalandır. Nizaminin yaşadığı dövrdə fars dili poeziya dili idi. Təkcə azərbaycanlılar deyil, hətta Osmanlı türkləri, onların ən məşhur şairləri də fars dilində yazıb yaradırdılar. Eləcə də Suriya, Hələb və digər ölkələrdə bu dildən poeziyada istifadə olunurdu.

Deputatın sözlərinə görə, təkcə tarixçiləri deyil, İranın dövlət nümayəndələri də yeri gəldi-gəlmədi gah Xəzəri Mazandaran adlandırır, gah Şimali Azərbaycanla bağlı iddialarını dilə gətirir, gah da Nizami Gəncəvini özününküləşdirməyə çalışırlar. Nizami Gəncədə doğulub, bütün fəaliyyəti bu şəhərlə bağlıdır. Bunu təsdiqləyən əsaslı faktlar mövcuddur. Amma o da unudulmamalıdır ki, dahilər, istedadlı insanlar barədə rəvayətlər, müxtəlif fikirlər, özününküləşdirmə cəhdləri tarix boyu olub və olacaq da. Nizami Gəncəvi də o şəxsiyyətlərdəndir ki, onunla bağlı daim müxtəlif iddialar səsləndirilir. Həqiqət isə ondan ibarətdir ki, Nizami Azərbaycan şairidir, dahi şəxsiyyətdir, bu torpağın övladıdır. Bu gün İran dövləti Nizami Gəncəvi ilə bağlı iddialar səsləndirir. Sual olunur: bu günə qədər İrandan hansı səmimi münasibəti görmüşük ki, Nizamiyə də belə münasibət gözləyək? İran qonşu olsa da, Azərbaycana qarşı düşmən mövqe sərgiləyir. Xüsusilə 44 günlük müharibə, eləcə də erməni iddialarının baş qaldırdığı vaxtdan etibarən baş tutan bütün Qarabağ hadisələri bunu sübut edir".

A.İsgəndərov deyib ki, cənub qonşumuzun hansısa ədalətli davranışının şahidi olmamışıq: "İranın dövlət siyasətində səmimilikdən əsər-əlamət olmayıb. İran ən ağır günümüzdə belə Azərbaycan torpaqlarının bir hissəsinin ona məxsus olduğunu iddia etməkdən çəkinməyib. Bu gün açıq səma altında ermənilər tərəfindən xarabalığa çevrilmiş Qarabağda sökülən evlər, kəsilən qiymətli ağaclar və sairə İrana daşınıb. Bu, sirr deyil. İran həqiqi islam dövləti olsaydı, belə riyakarlıqlar nümayiş etdirməzdi".

Deputatın dediyinə görə, İran təkcə Nizami Gəncəvi ilə bağlı deyil, fars dilində yazan, demək olar ki, bütün şairlərə münasibətdə təxminən eyni münasibəti göstərir: "Amma bunlar bizi nə çəkindirir, nə də təəccübləndirir. Bu gün ölkəmizin həyata keçirdiyi siyasət kifayət qədər ədalətlidir. Biz beynəlxalq hüquq normalarına riayət edir, qonşu dövlətlərə münasibətdə hər zaman səmimiyyət sərgiləyirik. İranın iddiaları tamamilə boş və mənasızdır. Nizami Gəncəvi ümumbəşəri olsa da, Azərbaycan xalqının böyük şairidir".

### Rəsmi Tehran riyakar hədəflərinə çata bilməyəcək

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Tehranda keçirilən "Nizami Gəncəvi həftəsi"nin açılış mərasimində İran Xarici İşlər Nazirliyinin sözçüsünün Gəncənin "İran şəhəri", Nizami Gəncəvinin "fars şairi" olduğunu iddia etməsi ölkəmizə qarşı növbəti təxribatdır: "Bu yanaşmanın haradan və nədən qaynaqlandığı məlumdur. İran rəsmilərinə bir daha xatırlatmaq lazımdır ki, Gəncə şəhəri İranda yox, Azərbaycanda yerləşir və bu cür təxribatlarla nə tarixi həqiqətləri, nə də ölkəmizin haqlı mövqeyini dəyişmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, İranın cəhdlərinə baxmayaraq, bütün dünya Nizamini Azərbaycan şairi və böyük din alimi kimi qəbul edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Bakıda 10-cu forumunu keçirdi. Bu mərkəz dünyanın bir çox tanınmış siyasətçi və şəxsiyyətlərini öz ətrafına toplamağa artıq nail olub".

Deputat qeyd edib ki, Azərbaycan dünyanı narahat edən qlobal məsələlərin müzakirə olunduğu mühüm mərkəzə çevrilib: "Bəlkə İranı həm də bu narahat edir?! İran hər zaman olduğu kimi, bir tərəfdən dostluq və qardaşlıqdan dəm vurduğu halda, digər tərəfdən ölkəmizə qarşı təxribatlarını davam etdirir. Bu yanaşmanı dəyişməyin əsl vaxtıdır. İran artıq tamamilə ifşa olunduğuna görə bu siyasəti dəyişməsinin zamanı çatıb. Azərbaycanın isə nə istədiyi məlumdur, mövqeyi prinsipial və qətiyyətlidir. Biz İranın da nə istədiyini yaxşı bilirik. Lakin rəsmi Tehran bilməlidir ki, həmin məqsədə və hədəfə çata bilməyəcək".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 28 noyabr (Cümə axşamı günü) tarixli 51-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası




# AZƏRBAYCAN

Pəncşənbə, 23 səfərülmüzəffər sənə 1337.
28 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubladir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.


### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Səhhəti-Ümumiyyə Nəzarətində [Səhiyyə Nazirliyində]**

Təşrini-saninin [noyabrın] 12-sindən 8 nömrəli əmr ilə kargüzar müavini təyin edilib və kargüzar vəzifəsini də ifa etməkdə olan A.B.Prişeltsev, təşrini-saninin 13-ündən Səhhəti-Ümumiyyə Nəzarəti dəftərxanasının kargüzarı təyin edilir.

*Səhhəti-Ümumiyyə naziri Rafibəyov*

**Ümuri-Nafiə və Xeyriyyə Nəzarətində [Sosial Təminat Nazirliyində]**

20 təşrini-sani 1334

Nömrə-14

Təşrini-sani ibtidasından [əvvəlindən] Nikolay İvanoviç Qamrekeli, mərkəzi anbar müdiri təyin edilir.

Nömrə-15

Təşrini-saninin 8-indən Tereza Nikolayevna Maçavariani, mərkəzi anbar kantoru qulluqçusu təyin edilir.

Nömrə-16

Təşrini-saninin ibtidasından [əvvəlindən] Əli İsgəndər Cəfərov, Bakı nahiyəsinin Ümuri Nafiə və Xeyriyyə müdiri təyin edilir.

*Ümuri Nafiə və Xeyriyyə naziri Rafiyev*

### AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANI TƏSİSİ HAQQINDA QANUN

1) Azərbaycan Parlamanı (Məclisi-Məbusanı) 120 əzadan [üzvdən] ibarətdir.

2) Azərbaycan Parlamanı, Azərbaycan Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] dəvət olunca qədər aşağıdakı tərtiblə intixab olunmuş [seçilmiş] əzadan təşəkkül edir:

A) Rusiya Məclisi-Müəssisanına dörd müxtəlif siyasi firqə siyahıları mövcibincə [əsasında] Məvərayi-Qafqaz [Zaqafqaziya] əhaliyi-islamiyyəsi tərəfindən intixab olunub da, sonra Məvərayi-Qafqaz Seymində əza sifəti ilə bulunmuş və bədəhu [sonra] Azərbaycan Şurayi-Millisini təşkil eyləmiş 44 zatdan.

B) Azərbaycan bələdiyyələri müsəlman əzası ilə əskidən mövcud bulunan Milli Müsəlman Komitələri əzası tərəfindən intixab olunmaq surəti ilə cəlb olunacaq zəvatdan [şəxslərdən].

C) Əqəliyyətdə [azlıqda] bulunan millətlərin səlahiyyətdar müəssiseyi-milliyyələrindən [milli qurumlarından] cəlb olunacaq zəvatdan.

Ç) Bakı Həmkarlar Şurası ilə Sovet Syezd, Tüccar və Ərbabi-Sənaye İttifaqından cəlb olunacaq zəvatdan.

3) Əsasən mövcud olan 44 əzaya əlavə olunacaq əza, bu nisbətlə cəlb olunacaq:

A) Əhaliyi-islamiyyə tərəfindən Bakı 5, Göyçay uyezdi 2 (biri şəhər, biri uyezd), Cavad 2 (biri şəhər, biri uyezd), Quba 3 (biri şəhər, ikisi uyezd), Lənkəran 2 (biri şəhər, biri uyezd), Şamaxı 2, Gəncə 3 (biri şəhər, ikisi uyezd), Ərəş 2, Cavanşir 1, Zənəgəzur 2, Qazax 1, Cəbrayıl 1, Nuxa 2 (biri şəhər, biri uyezd), Şuşa 2 (biri şəhər, biri uyezd), Zaqatala 2 (biri şəhər, biri mahal). İrəvan vilayətinin Azərbaycana keçən hissəsi 3, Tiflis vilayətinin Azərbaycana keçən hissəsi 1.

Qeyd:

a) Bakı hissəsinə [payına] düşən 5 zat, Bakı Bələdiyyəsi müsəlman əzası tərəfindən seçiləcəkdir. Digər şəhərlərdə dəxi şəhər hissəsinə düşən nümayəndəni ümumi intixabla [seçki ilə] seçilmiş müsəlman qlasnıları seçəcəklərdir. Uyezd nümayəndələri isə uyezd milli komitələri tərəfindən intixab olunacaqlardır.

b) Seçkilər gizli olacaq.

B) Əqəliyyət təşkil edən millətlərdən:

Ermənı əhalisi tərəfindən 21: 8-i Gəncə erməni əhali komitəsindən, 8-i Şuşa erməni əhali komitəsindən, 5-i də Bakı erməni komitəsindən.

Rus əhalisindən: Bakıdakı Rus Milli Şurasından 10.

Alman əhalisi təşkilati-milliyyəsindən 1, Yəhudi Şurayi-Millisindən 1, gürcü komitəsindən 1, polyak komitəsindən 1.

C) Bakı Həmkarlar Cəmiyyəti Şurasından 3, Bakı Sovet Syezd və Ticarət-Sənaye Cəmiyyətlərindən müştərəkən [birgə] 2.

Qeyd 1. Bələdiyyəsi və milli komitəsi olmayan qəzalar, nümayəndələrini köy obşestva [cəmiyyəti] nümayəndələrinin ictimasında [yığıncağında] təyin edə bilərlər. Bu ictima, hər obşestvadan birər nümayəndə göndərilmək surəti ilə hasil olur.

Qeyd 2. Əhvali-fövqəladəyə məruz bulunan [fövqəladə hadisələrə səhnə olan] yerlərin nümayəndələrini Şurayi-Milli bizzat təyin edir.

Qeyd 3. Şurayi-Millinin əsaslı üzvlərini təşkil edən 44 əzadan biri istefa edər, mərhum olar və yaxud başqa bir səbəblə məclisdən çıxarsa, onun əvəzinə mənsub bulunduğu siyahının mürəttibi [tərtibçisi] bulunan firqə müəssisatı [partiya qurumları] tərəfindən başqa birisi təyin olunur.

Qeyd 4. Cəlb olunacaq əşxasın intixabatı şəhərlərdə bələdiyyə rəisləri, uyezdlərdə mirovoy sudyalar [məhkəmə hakimləri] və ya onların müavini və əqəliyyətə [azlığa] mənsub millətlərdə milli şura rəislərinin təşəbbüs və nəzarəti ilə icra olunur və intixab olunacaq zəvata kəndi imzaları ilə keyfiyyəti-intixabı müvəzzəh [seçimin necəliyini izah edən] və müsəddəq [təsdiq edilmiş] etimadnamələr verilir.

*Şurayi-Milli rəisi:*
*Məhəmməd Əmin Rəsulzadə*
*Şurayi-Milli katibi: Rəhim Vəkilov*
*Surəti əsli ilə mütabiqdir [uyğundur]*
*Şurayi-Milli İdarə müdiri: Məhəmməd Səid*

### RADİOTELEQRAF

25 təşrini-sanidə [noyabrda] "Royter" acentəliyi məlumatı:

**Almaniya vəliəhdi**

Alman kronprinsi (vəliəhdi) Veterinq şəhərində Zuiderze qəsəbəçəsində bəklənilir və "Parsonaj" adasında saxlanılacaqdır. Təhtəlbəhrlərdən [sualtılardan] çox xəsarətlər görmüş Felemenk [Niderland] balıqçılarına onun yaxınlığı xoş gəlməyir.

**Hollandiyada**

Kraliça Vilhelmina intibahnaməsində [bəyanatında] əksəriyyətiara [səs çoxluğu] ilə inqilab təhdidini rədd etməklərindən naşi [etdiklərinə görə] millətə minnətdar olduğunu bəyan və xalqın xahiş etdiyi islahatın Parlaman tərəfindən vücuda gələcəyini vəd edir.

**İngiltərədə seçki işləri**

İngilis vəzirlərindən [nazirlərindən] Lloyd Corc ilə Bonar Lou Müttəhid Krallıq [Birləşmiş Krallıq] seçkiçilərinə yazdığı müraciətnamələrində öz siyasi proqramlarını yazırlar. İşbu proqramın mühüm maddələrindən bəhriyyə əfradı [matroslar] ilə əsgərlər üçün xəzinə yerlərindən [dövlətə məxsus torpaq sahələrindən] almaq, bu yerlər içindəki evlər ilə ya hissələrə yaxud geniş bir miqyasda fənni-ziraət planı ilə hazırlamaq, meşə yerlərini böyütmək, yaramaz yerləri islah etmək, mənzil məsələsini təkmil [həll] etmək, təlim və təhsil məsələlərini geniş bir yola qoymaq, zəhmət və xidmət şəraitini maddi cəhətdən yaxşılaşdırmaq, müstəmləkələrə imtiyazat [imtiyazlar] vermək, gələcəkdə xammal və ərzaq üzərinə əlavə edilən məxaricdən [xərclərdən] vaz keçmək, əhalinin faydasına olaraq qüvvənin [enerjinin] və işığın və dəmiryolların üzərində kontrol qoymaq və onların mükəmməliyyətinə çalışmaq kimiləridir.

**Alman donanmasının təslimi**

Alman donanması, ilişiksiz [sürətlə; mərasimsiz] təslim olub getdi. Təbrikat mübadiləsi [qarşılıqlı salamlama mərasimi] olmadı.

Əsir edənlərin və əsirlərin gedişi, təşyiyi-cənazə [cənazənin yola salınması] mərasiminə bənzəyirdi.

Alman donanmasını pişvaz edən [qarşılayan] Müttəfiq donanması içində 60-adək drednot, 50 ingilis yüngül kruvazerləri və 180 kontr-minanosları [kontr-torpedoları] mövcud idi.

### TELEQRAF XƏBƏRLƏRİ

**(Gürcü teleqraf acentəliyindən)**

- Almaniya Hökuməti Müttəfiq dövlətlərə verdiyi notasında Prima-zensin, Sarqemin, Saarbrükken daxil edilməklə və Reyn oblastı hissəsinin alman əsgərləri tərəfindən təmizlənmələri məcburi şəraiti [şərti] əleyhinə protesto etmişdir. Almaniya Hökuməti bu yerlərin Almaniyadan ayrılması təşəbbüsatı əleyhində protesto etmişdir.

- Təşrini-saninin [noyabrın] 22-sində Nauendən xəbər verirlər ki, Vilnadan və Belostokdan verilən xəbərlərə görə, ora əhalisi zəbt edici dəstələr əleyhinə çıxmaqdadır. Alman qaraqollarına atəş açılıb, alman əsgəri dəstələrinin keçib getməsinə mümaniət [maneçilik] etməkdən ötrü dəmiryol xətti xarab edilmişdir.

- İngiltərə mətbuatının verdiyi xəbərlərə görə, Vaşinqtondan xəbər verirlər ki, Məclisi-Məbusanın Bəhriyyə [donanma] komissiyasında bəhriyyə işləri katibi Deniels demişdir ki, Millətlər İttifaqı və ümumi tərksilah məsələləri gələcək məsələsindən ibarətdir. Hal-hazırda üç sənəliyə hazırlanmış məramnamə üzərinə bəhriyyə qüvvəsini 10 dənə fövq[əl]zirehli, 6 zirehli və 140 kiçik gəmilərlə gücləndirmək lazımdır.

- Müttəfiqlər ordusu bilatəvəqqüf [durmadan] Belçikanı zəbt etməkdə davamla, Almaniyaya yaxınlaşmaqdadırlar.

- Belçika Hökuməti təntənəli bir surətdə Brüksel şəhərinə varid [daxil] olmuşlardır.

- Almanlar, Amerika bəhri [donanma] qüvvəsi iştirak etdiyi halda, İngiltərə donanmasına 70 gəmi təslim etmişlərdir. Bunlardan 9 dənəsi zirehli, 5 böyük kruvazer və 7 yüngül kruvazerlərdir.

- Alman mətbuatının məlumatına görə, axırıncı iki həftə müddətində Qaliçyanın bir çox yerlərində yəhudi talanı vüqu bulmuşdur. Krakovda çıxan "Dziennik" nam qəzetə yazır ki, bu cür talanlar çox yerlərdə vaqe olmuşdur. Bir çox yəhudi mütəzərrir olmuşdur [zərər çəkmişdir]. Bir paraları [bəziləri] qətl edilmişlər. Hamı yəhudi dükanları və evləri talan edilmişdir. Yəhudilər şəhərlərdən qaçıb fəna bir halda yaşamaqdadırlar. Bir çox şəhərlərdə təşkil edilmiş yəhudi müdafiə dəstələri tərksilah edilmişlər. Qaliçya yəhudiləri arasında əhval həyəcanlıdır. Bir para yerlərdən Vilsona və bitərəf dövlətlərə teleqraflar göndərilib, müavinət [yardım] xahiş edilməkdədir.

- "Lokal-Anzeyqer" qəzetəsi xəbər verir ki Lodzda olan alman əsgərləri müsəlləh [silahlı] çıxış yapmışlardır. 1700 nəfər alman əsgəri müsəlləh bir surətdə Lodzdan Almaniyaya piyada yola rəvan olmuşlar. Saldat Vəkilləri Şurasının [Əsgər Deputatları Sovetinin] başçıları nəql edirlər ki, general qubernator fon Bezeler hamı zabitlərlə bərabər şəhəri tərk etmişdir. Onlar hava duman olmasından və gecə qaranlığından istifadə etmişlərdir. Alman əsgərləri özlərinin tərksilah olunmalarına icazə verdikdən sonra hamısı zircamələrinə [alt paltarlarına] qədər qarət edilmişlərdir.

- Stokholmda çıxan "Politiken" qəzetəsi xəbər verir ki, Skandinav hökumətləri hal-hazırda Rusiya ilə münasibati-siyasiyyənin qət olunmasını [siyasi əlaqələrin kəsilməsini] və öz konsullarının Rusiyadan geri çağırılmaları ilə rus Şura Hökuməti nümayəndələrinin Skandinaviyadan kənar edilmələri məsələlərini müttəhidən [birgə] müzakirə etməkdədirlər.

- Hindenburq Baş ərkani-hərbdən [Baş qərargahdan] Vilhelmin Laheydə olan sarayındakı hökumət məmurlarına böylə bir teleqraf göndərmişdir: Mütarikə [atəşkəs] işləri komissiyası xəbər verir ki, düşmən hökumət üzvlərinin, xüsusən fransızların tutduğu mövqe mənfidir. Düşmən mümkün olmayan işlər haqqında öz tələbatını təkid etməkdədir. Bu qərarla mübarizənin təzələnməsi üçün ənənəli əsaslar hazırlayırlar. Qəti surətdə izhar edirəm ki, alman ordusu mütarikə şəraitinin [atəşkəs şərtlərinin] ağırlığı və vətənimizdəki hadisələr münasibətilə mübarizəni təzələməkdən acizdirlər. Hətta yalnız fransızlarla mübarizə edə bilməzlər.

### (Gürcü teleqraf acentəliyindən)

**İngiltərə mətbuatının məlumatı**

- İngiltərə bəhriyyə [donanma] müxbiri xəbər verir ki, günortaya yaxın alman qayıqları və nəqliyyat gəmiləri tərəfindən müşayiət edilən bir zirehli nümayan olmuşdur [görünmüşdür]. Açıq dənizdə şiddətli fırtına olduğuna görə zirehli, limanda təslim edilmişdir. Almaniyanın böyük sualtı qayıqlarının hamısında simsiz teleqraf istasyonu vardır. Almanlar varid olan [gəlib çatan] zaman alman donanmasında inqilabcu [inqilabçı] ünsürlərin qüvvətli olduğu müşahidə edilirdi. Bir para alman zabitləri alman qartalı nişanını başlarından çıxarıb, qırmızı nişan taxmışlardır. Alman bəhriyyələri [dənizçiləri] arasında intizam görülməyir, matroslar zabitlərə qulaq asmayırlar.

- İsveç sosial-demokratlarının başçısı Brantinq, Albert Tomasa bir teleqraf göndərərək deyir ki, Müttəfiq dövlətlər mütarikənin eyni-şəraitində [atəşkəs şərtlərinin dəyişməməsində] israr edərsələr, Almaniyanın halı xeyli fəna olar. Almaniyaya, təxliyə etmək və dəmiryol məvaddı [mallarının] təslimi üçün vaxt verilməsi lazımdır, vəilla [əks halda] bolşevizm hərcmərcliyi qalxıb demokratik cümhuriyyət təsisini mümaniətə [maneəyə] düçar edər.

- Mətbuat nümayəndəsi Kiyevdə olan alman əsgərləri ilə görüşdükdən sonra öz müşahidatını [müşahidələrini] böylə təsvir edir: Alman saldatları arasında gözəlcə asayiş və nizam hökm-fərma [hökmran] olmağına [görə], dövlət əmvalına [mallarına] qənaətkaranə bir münasibət vardır. Almanlar tərəfindən heç bir təcavüz və ya asayiş xələldar edilməsi [pozulması] ittifaqı [faktı] olmamışdır.

### SÜLH ƏTRAFINDA

**Almaniya ilə mütarikə şəraitindən [atəşkəs şərtlərindən]**

12-ci maddə – Hamı alman qoşunları Türkiyə, Avstriya-Macarıstan və Romaniya məmləkətlərinin 1914 səneyi-miladiyyəsi ağustos ayının birinədək olan hüduddan çəkilməlidirlər. Müttəfiqlərin təyin edəcəkləri vaxtadək müharibədən irəli Rusiyanın bir parçasını təşkil edən ərazilərdən də (yuxarıda söylənildiyi kimi) çəkilməlidirlər. Bu vaxtın təyini şu yerlərin daxili şəraitindən asılıdır.

13 – Bir ağustos 1914 sənəsi hüdudundan içəri Rusiyada olan alman qoşunları işbu zamandan bu yerləri təxliyəyə başlayacaqlardır. Habelə əsgəri acentələr, təlimçilər, əsir almanlar və təbəələr büsbütün Rusiyadan çağırılmalıdırlar.

14 – Bir ağustos 1914 sənəsi hüdudunda almanlar tərəfindən hər bir həcz [qəsb] və müsadirə ilə Romaniya və Rusiyadan Almaniya üçün ərzaq göndərməkdə əhalini sıxışdırma tamamilə götürülməlidir.

15 – Bükreş, Brest-Litovsk və əlavə müahidənamələrin hamısı ləğv edilirlər.

16 – Dansiq ilə Visladan keçib almanlardan təxliyə edilmiş yerlərin əhalisini aparmaq yaxud nizam və asayişi bərpa etmək üçün Müttəfiqlərə imtiyaz verilir.

18 – Müttəfiqlər yaxud özgə dostanə əlaqədə olan dövlətlər təbəələrindən Almaniyada məhbus, girov (rəhin), məhkum sifətiylə, nə ki var, uzaqbaşı bir ayın müddətində vətənlərinə buraxılmalıdırlar. Bu vaxtın dürüst təyini məsələsi tamamilə anlaşıldığından sonra vaqe olacaqdır.

19 – Müharibədən xəsarətdidə olmuşlara [zərər çəkənlərə] müavinət [kömək] mənbəyi ola biləcək camaat fondlarını (sandıq) mütarikə iniqadı mə'qud olduqca [atəşkəs sazişi qüvvədə olduğu müddətdə] aparmaq Almaniyaya qadağandır. Bilatəvəqqüf [dərhal] Almaniyadakı Belçika Milli Bankasındakı paralar iadə edilməlidir. Fəth edilmiş məmləkətlərdə zəbt edilmiş xətləri, kağız pul təb [çap] edən makinaları, burada camaat ya xüsusi şəxslər faydaları ilə əlaqədar bütün aksiya, pay, fiat kağızları (valyuta) və digər vəsiqələr bilatəxir [dərhal] iadə edilməlidir. Rusiya və Romaniyadan alınmış yaxud bu dövlətlər tərəfindən Almaniyaya güzəşt edilmiş qızılların (altunun) hamısını qaytarmalı və bu altun, sülh iniqadınadək [sazişinə qədər] Müttəfiqlərə tövdi edilməlidir [tapşırılmalıdır]. Böylə maliyyə tədabiri [tədbirləri] şimdilik lazımdır. Müttəfiq və Amerika dövlətlərinin gələcək tələbləri ilə yuxarıdakı tədabir xələldar olmasın [pozulmasın].

20 – Dəryada dayanmaqsızın müharibə işləri qət edilməli [kəsilməli] və alman vaporlarının məkanı və hərəkət etdiyi yerləri haqqında məlumat verilməlidir. Bitərəf dövlətlərin həpsinə Müttəfiqlərin və ittifaqa mənsub dövlətlərin [Antanta dövlətlərinin və onlarla ittifaq halındakı digər dövlətlərin] hərbi və ticarət donanmasına seyrisəfain [hərəkət] hamı sularda azad olduğunu elam etməli [bildirməli], bununla da bitərəf[lik] məsələsi büsbütün ləğv ediləcəkdir.

21 – Müttəfiqlərin və ittifaqa mənsub dövlətlərin (ticarət və hərbi) donanması bəhriyyunları [dənizçiləri] qaytarılmalıdır. Bunun əvəzində əsir verilməyir.

22 – Alman təhtəlbəhrlərinin [sualtılarının] həpsi (sualtı kruvuzer və sualtı qayıqlar da buraya daxildir) ümum ləvazimat və mühümmatı [silah və avadanlıqları] ilə Müttəfiq və Amerika dövlətlərinin göstərdiyi limanlarda təslim edilməlidir. Hərəkət etməyə qadir olmayan sualtı qayıqları Müttəfiqlərlə Amerika mübəssirlərinin [gözətçilərinin] təhti-nəzarətində [nəzarəti altında] alman limanlarında tərk-silah edilir. Əmələləri [işçiləri] də dəyişmə-lidir. Üzməyə müqtədir qayıqlar isə dənizlərə çıxmaq üçün alman liman-larında hazır olmalıdırlar. Radio (simsiz teleqraf) ilə xəbər verildikdə onlar təslim üçün getməlidir. Müəyyən limanlara mümkün qədər tez bir zamanda, əlbaqisi [qalanları] onların ardınca gəlməlidir. Bütün bu şərait, mütarikə əhdnaməsi [atəşkəs sazişi] imza edildikdən 14 gün müddətində tətbiq edilməlidir.

24 – Almaniya tərəfindən məmlə-kət sularından kənara dənizlərin ha-mısından torpedoları və mina hasarlarını [istehkamlarını] yığmaq üzrə Müttəfiqlərlə Amerikaya imtiyaz verilir. Bu torpedolar və onların yerləri göstərilməlidirlər.

25 – Müttəfiqlərə mənsub dövlət-lərin və müttəfiqlərin abluqası [müha-sirəsi] qüvvəsindən düşməyir və dənizlərdə təsadüf edən alman vaporları dərdəst [həbs] edilə biləcəkdir. Müta-rikə davamı müddətində Almaniyaya nə qədər ərzaq lazım olduğunu Müttəfiqlərlə Şimali Amerika nəzərə ala-caqdır.

28 – Bütün Almaniya hava maki-naları Müttəfiqlərlə Şimali Ameri-ka[nın] göstərdiyi üssülhərəkələrdə [bazalarda] çağırılıb toplanmalıdır.

29 – Qara dəniz limanlarının həpsi almanlardan təxliyə edilir. Qara dəniz-də tutulmuş rus hərbi vaporları Şimali Amerika ilə Müttəfiqlərə verilməlidir. Bütün əsgəri [hərbi] və qeyri ləvazimat iadə edilməlidir [qaytarılmalıdır].

30 – Almanlar tərəfindən tutulmuş Müttəfiqlərin və müttəfiqlərə mənsub dövlətlərin ticarət gəmiləri Amerika və Müttəfiqlər[in] göstərdiyi limanlara qaytarılmalıdır. Böylə müamilat [əmə-liyyat] hər iki tərəfdən olmayacaqdır. Vaporların və başqa ləvazimatın təxliyə, təslim və təviz [əvəz; kompensasiya] edilməsinədək təxrib edilmələri [sıradan çıxarılmaları] yasaqdır.

32 – Almaniya Hökuməti, xüsusi müəssisələr yaxud xüsusi ticarət cə-miyyətlərinin tərəfindən İsveç, Nor-veç, Danimarka, Felemenk və digər bitərəf məmləkətləri Müttəfiqlər və Müttəfiqlərə mənsub dövlətlərlə məhdud və yasaq olan ticarətin azadlığı haqqında Almaniya istixbar [xəbərdar] etməlidir.

33 – Mütarikə imza edildikdən son-ra Almaniya gəmilərinin bitərəf döv-lətlər bayrağı altına girməsi yasaqdır.

34 – Mütarikə vaxtı uzadılacağı mümkün olmaq üzrə 36 gün qərar qoyulur. Mütarikə maddələrinin biri-sinə əməl edilmədiyi halda, hər iki tərəfdən 48 saat irəlidən istixbar [xəbərdarlıq] etməklə mütarikəni pozmaq olar.

18-ci maddənin şərtlərini təyin edilmiş zamanda ifa etmək mümkün olmazsa, sui-istemal [sui-istifadə] olmamaq şərti ilə mütarikəni pozmaq demək deyildir. Bu şəraitin [şərtlərin] asanlıqla ifa edilməsi üçün beynəlmiləl bir mütarikə komissionu təşkil edə bilər. Bu komission, Müttəfiqlərin dəniz yaxud qara [quru qüvvələri] ordusunun bir baş komandanı sədarəti [sədrliyi] altında işləməlidir.

Bu mütarikə 12 təşrini-sani 334 öylədən [günortadan] sonra (fransız saatı ilə) 5-də imza edildi.

### BOSNA MÜSƏLMANLARI VƏ YUQOSLAVLAR

Vyanadan işar edildiyinə nəzərən [verilən xəbərə görə], yuqoslavların müddəayatına [iddialarına] qarşı Bosna müsəlman rüəsasının [rəislərinin] göstərdikləri hüsnqəbul [müsbət münasibət], Vyana məhafili-siyasiyyəsində [siyasi dairələrində] son dərəcə mövcibi-infial və hiddət olmaqdadır [qəzəb və hiddətə səbəb olmaqdadır]. Bu cümlədən olmaq üzrə, Bosna İslam Demokrat Partisi rəisi İsmayıl Ağa Smaroviç, Hersek Müstəqil İslam Partisi rəisi doktor Mehmed Spaho və Saraybosna Bələdiyyə rəisi doktor Həmdi Vuyiçin təbrikatını möhtəvi [ehtiva edən] teleqrafnamələri çexlərin yortuları [dini mərasimləri] münasibətilə Praqa kəşidə edilənlər [göndərilənlər] miyanındadır [arasındadır]. Bütün Bosna-Hersek mütəfəkkirin zümrəsi [ziyalıları] yuqoslavların hərəkatına əleni [açıq-aşkar] bir surətdə iştirak etməkdədirlər.

### MİLYUKOV İLƏ MÜSAHİBƏ

"P. K." qəzetəsinin 8 təşrini-sani tarixli nömrəsində Milyukovun müsahibəsi dərc edilmişdir.

– Kadet firqəsi üzvlərinin nahiyə ictimasının [yığıncağının] nəticələri nə olmuşdur? – sualına Milyukov cavab vermişdir ki:

– Bu ictima kadet firqəsini birləşdirməkdə böyük rol oynamışdır. İctima qərardadları iki əsas üzərinə əsaslanmışdır. Ən mühüm qətnamə Ümumrusiya Hökuməti təşkilindən ibarət olmuşdur. Bu Hökumət, gözlənən Müttəfiqlərin varid olmaları [gəlmələri] ilə şərqdən qərbə köçürüləcəkdir. Bu hökumətin nerədə təşkil olunacağını indidən söyləmək əlbəttə müşküldür. Lakin təsəvvür edildiyinə görə, mərkəz Könüllü ordudan ibarət olacaqdır. Hal-hazırda Könüllü ordu Baş komandanlığı ilə də müzakirat davam etməkdədir.

– Bu hökumətə kadetlər daxil olacaqlarmı?

– Əlbəttə, daxil olacaqlar. İctimanın arzusu da budur. Hətta hal-hazırda Könüllü ordu nəzdində Stepanov ilə Astrov bizim nümayəndələrimizdir. Astrov, Könüllü ordunun Ufa Hökumətinə olan münasibatı aşkar edilənə qədər orada qalacaqdır.

Sonra Milyukov Ufa Hökumətindən bəhs edib demişdir ki:

– Ufa Hökuməti dövləti nöqteyi-nəzərdə olan firqələrin sazişi nəticəsində əmələ gəlmişdir. Bu saziş hələ Moskvada hüsula gəlmiş idi. Fəqət Ufa Hökuməti qeyd edilən məqsədlərdən bir qədər imtina etmişdir. Ələlümdə [başlıca olaraq] Məclisi-Müəssisanın [Təsisçilər Məclisinin] indiki heyətinin ixtiyara malik olmasını təsdiq etmək məsələsində. Buna da biz çətin razı olarıq. Kadet firqəsi qənaət hasil etmişdir ki, Ufa Hökumətini qəti surətdə təşkil edilmiş hesab etmək olmaz. Təbəddülat [dəyişikliklər] vaqe olacaqdır. Buna görə də, bizim firqəmiz Ufa Hökuməti ilə müzakirata girişməyi mümkünədd [hesab] etmişdir.

Ümumrusiya Hökuməti ilə Ukrayna və Don hökumətləri arasında olan münasibata gəldikdə, Milyokov demişdir ki:

– Ukrayna məsələsi Don məsələsindən artıq qarışıqdır. Məlum olduğu üzrə, bizim ictimamız ancaq öz istiqlaliyyətindən imtina ilə müttəhid [vahid, birləşmiş], müəzzəm [böyük] Rusiya formulasını etiraf [qəbul] edən hökumətlərlə əlaqəyə girmək qətnaməsini çıxarmışdır. Ukrayna hələ ki, buna əməl etməmişdir. Don ilə bu barədə yollaşmaq asandır. Çünki Krasnov Hökumətinin birinci bəyannaməsində izhar edilmişdi ki, Don Hökuməti Rusiyanın parçalanmış yerlərini bitişdirəcək Ümumrusiya Hökuməti təşkil edilənə qədər, müvəqqət hökumət hesab olacaqdır.

– Kadet firqəsi kimlərlə və hansı firqələrlə ittifaqa girəcəkdir?

– Şimdilikdə bu barədə danışmaq çətindir. Bizim firqəmizlə sazişə girmək məsələsi hələ qaldırılmamışdır. Lakin bu məsələnin həlli tələb olunan mühüm bir məsələdir.

– Kadet fərqəsi indiki Ukrayna Hökumətinə nə nəzərlə baxır?

– Ukrayna Hökumətinə olan münasibatımız hələ aydınlaşdırılmamışdır. Hələliyə kadetlər hökumətə daxil olmamışlardır. Kim bilər, ola bilər ki, gələcəkdə siyasət dəyişilsin. Hər bir şey gələcək əhvaldan asılıdır. Bu əhval da öylə sürətli bir surətdə təbəddülata uğrayır ki, indilikdə davam edən hökumətə nə münasibatda bulunmağı söyləmək pək müşküldür.

Könüllü ordu ilə Müttəfiqlər arasında müntəzəm bir əlaqə davamı haqqındakı suala Milyukov cavab vermişdir ki:

– Mənə məlum olan budur ki, hələ müntəzəm əlaqə yoxdur. Fəqət bu, vaxta mövquf [bağlı] bir məsələdir. Müttəfiqlər ilə münasibat düzəlməkdədir. Burasını da söyləməlidir ki, Müttəfiq dövlətlər Könüllü ordunun qəhrəmananə xasiyyətləri haqqında ali rəylər bəsləyirlər. Şübhə yoxdur ki, Müttəfiqlər Könüllü orduya müavinət [yardım] göstərəcəklərdir.

– Bütün cahan inqilabı mümkündürmü?

– İnanmayıram. İnqilab çıxışları tək-tək məmləkətlərdə olacaqdır. Ələlxüsus müharibədə məğlub olan məmləkətlərdə. Lakin inqilab alovu köhnə Rusiya yanan hərarətdə olmayacaqdır. Müttəfiq məmləkətlərdə inqilabın mənası yoxdur. Hökumətlər möhkəmləşib, əhali qalibiyyətlə sevinir.

### POSTA-TELEQRAF NAZİRİ İLƏ MÜSAHİBƏ

"K." qəzetəsinin mühərriri Azərbaycan Posta-Teleqraf naziri Ağa Aşurov ilə müsahibəsi əsnasında Azərbaycan müsəlmanlarının və Hökumətin Müttəfiqlərlə münasibatı haqqında vermiş olduğu suala cavab almışdır:

*"Azərbaycan Hökumətinin və müsəlmanların halını heç bir təhlükə təhdid etməyir. Bu barədə şübhə etməməlidir. Çünki general Tomsonun təminatına ümidvar olmuşuq. Burasını da qeyd etməliyəm ki, Müttəfiqlərin bizə və ələlümum Hökumətə olan münasibatı artıq dərəcədə dostanədir. Hər bir barədə onlar bizə müavinət göstərirlər. Odur ki, şəhərdə heç bir ixtilaf və qeyrə [və sairə] yoxdur. Bu barədə bizim tərəfimizdən də tədbirlər görülmüşdür. Biz bacardığımız qədər çalışıb şəhərdə asayiş və qanun saxlayırıq. Hərgah bir para müzirr [zərərli] ünsürlər öz xüsusi hesablarından ötrü fürsətdən istifadə etmək niyyətində olsalar, bu tövr ixtilafların Müttəfiq ordu qüvvəsi tərəfindən bərtərəf ediləcəyinə [aradan qaldırılacağına] ümidvar oluruq. İndiki Hökumət kabinəsinə və gələcək müştərək Azərbaycan Hökumətinə gəldikdə, onu deyə bilərəm ki, Azərbaycan Şurayi-Millisi [Milli Şurası] bu barədə çalışmaqdadır və yəqin ki, kabinə təbəddülatı [dəyişikliyi] və hökuməti-müştərəkə təşkilatı [müştərək hökumət təşkili] dekabrın üçündə dəvət edilmiş Parlaman tərəfindən vücuda gətiriləcəkdir."*

*Ədəbi sütunlar*

### MƏRHUM SƏHHƏTİN SON MƏKTUBUNA CAVAB*

Cahana ilk çıxan tazə aya and olsun,
Cavanlığında dönən qəddi yaya and olsun.
Qəsəm o şəmsi-münirə, o mahi-tabana,
Şəhaba, nəyyirə, nura, ziyaya and olsun.
Qəsəm nəsimi-sabaha, sitareyi-səhərə,
Hilala, bədrə, Süheylə, səhaba and olsun.
Rümuzi-şe'ri bilən şairi-şəhirə qəsəm,
Nükati-nəzmə bələd aşinaya and olsun.
Cahanda xəlqi edən doğru-düz yola dəvət,
Həqiqi rahbərə, rəhnümayə and olsun.
Gözəllərin o mübarək, həyalı üzlərinə,
Yenə o çöhrələrə, ol həyaya and olsun.
Sənə birinci pərəstiş edən mənəm, Səhhət,
Rəvani-paki-Bahara, Səfaya** and olsun.
Neçün ki, Qafqazara sən sevimli şairsən,
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Sənin nəşidələrin, raiqanə şe'rlərin,
Dəyər cahana; cahana, səmaya and olsun.
Məni çıxarma yadından, çıxarmaram mən həm,
Təbiətə, suya, xaka, havaya and olsun.

*Məhəmmədəmin oğlu*
*Salman Mümtaz*

---

* Mərhum şair hali-həyatda ikən Mümtaza yazmış olduğu gilayə məktubunun cavabı ola-raq, vəfatı münasibətilə yazılmışdır.

** Şamaxılı Mirzə Nəsrullah "Bahar" tə-xəllüs ilə Qara Məhəmməd "Səfa" təxəllüsə işarədir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 28 noyabr (Cümə axşamı günü) tarixli 51-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## ZİRAƏT [KƏND TƏSƏRRÜFATI] İŞLƏRİ

Miləli-mütəməddinə [mədəni millətlər] arasında ziraət işləri nəzəriyyatla deyil, əməliyyatla [təcrübə ilə] irəliləmişdir. Maarif Nəzarətindən [Nazirliyindən] maada [başqa] Ticarət və Sənaye və habelə Ziraət və Əmlak nazirləri təhti-idarəsində [nəzdində] də bir çox ali edadi və ibtidai ziraət məktəbləri vardır. Qərbdə bu kimi məktəblər ələləksər [daha çox] əhalinin öz təşəbbüsü və xərci ilə təsis olunur və bəzi vaxt hökumətdən maddi cəhətcə kömək verilir. Fransada edadi məktəblərdə belə ziraətə dair "xüsusi dərslərin" olması məcburidir. Almaniya ziraət məktəblərində əməliyyata ziyadəsiylə məsai [əmək] sərf edilir. Ziraətin tərəqqisi üçün xüsusi məktəblərə kifayət edilməyib, Ziraət və Əmlak Nəzarəti tərəfindən kəndlərə bir çox səyyar mütəxəssis müəllimlər göndərilir. Bunlar kəndləri gəzib dolaşırlar. Özləri ilə götürdükləri ziraət makinalarının ya modellərini və ya da xüsusi jurnallarda rəsmlərini göstərir, qiymətini, yerini və qullanmasını əhaliyə öyrədirlər. Torpağın qüvvəli olaraq məhsulunun artmasına səbəb olan kimyəvi şeylərlə aşina edirlər. Bağçəvanlıq [bağbanlıq], barama bəsləmək, arı və mal saxlamaq haqqında məlumat verirlər. Böylə müəllim və mütəxəssislər bacıoğlu, əmioğlu deyə deyil, bildiklərinə görə işə göndərilmiş olduqlarından, ciddi çalışır və öz zəhmətlərinin səmərəsini də görürlər. Bir də görürsən yüz milyonlardan təşəkkül etmiş münbit yerlərə sahib bir millət arxada qalır da, Kanada, Avstraliya, Viktoriya kimi xırda ölkələr parlayır və bütün yer üzünü öz torpaqlarının məhsulu ilə doldururlar.

Zaqafqaziya ziraəti tərəqqisi üçün indiyə qədər bir şey edilməmişdir. Demək olar ki, iş bundan sonradır. Yüz sənədən ziyadə rus hakimiyyəti zamanında ancaq bir edadi ziraət məktəbi və altı bağçəvanlıq məktəbçələri açılmışdır. Bunun nəticəsi olaraq əhali ziraət makinalarından, yer əkmək qanunlarından xəbərsiz yaşamış, balaca bir dəmir parçasının (ciftin) [cütün, xışın] ümidinə qalmışdır və yüz illərlə məhsuldar torpaqlar üstdə ac dolanmışdır. Kəndçilərimiz yerlərindən, köçəbəmiz ayaqyalın, başıaçıq, yağışdolu altında yaylaq və qışlaqda saxladığı malından indiyəcən bir mənfəət götürə bilməmişlər. Bundan sonra götürə bilməyə hazırlanırlar. Bu xüsusda ağır vəzifələr Ziraət və Əmlak Nəzarətinə düşür. Eşitdiyimizə görə Ziraət və Əmlak Nəzarəti təşəbbüsü ilə bu yaxın vaxtlarda Tiflisdən Bakıya, Azərbaycan paytaxtına bir məktəb köçürülür və əhaliyə ziraət makinaları gətirilməsi və daha bir çox islahat üçün layihələr hazırlanır.

*Hüseyn Mirzəcamalov*

## TÖVSİYƏ

1914-cü ildən təqribən Amerika Cəmahiri-Müttəhidəsinin [Amerika Birləşmiş Ştatlarının] ümumcahan müharibəsinə iştirak etməsinə kimi Almaniya dövləti, alman milləti, daxili intizamatının əhənin [dəmir kimi] səbat və istiqaməti, hiss və qüruri-millisinin bütün başqa hislərin hakim[i] olduğu, tərəqqiyati-mədəniyyəsinin [mədəni inkişafının] övciəlayi-rüfətə [ən yüksək zirvəyə] çatdığı, sənaatinin [sənayesinin] ağıllar[ı] şaşıracaq möcüzələr, xariqüladə icadlar, ixtiralar yapmağı sayəsində cahanın ən qəvi [güclü] dövlətlərini aciz buraxmışdı. Sarsılması, dağılması muhal [qeyri-mümkün] iş sayılan Rusiya, gördüyümüz hala düşdü. Firənglər, ingilislər, italyanlar hədsiz zərbələr yedilər. Dala oturaraq Firəngistanın bir hissəsini Almanlara buraxdılar. Romaniya, Serbistan, Qaradağ, Belçika dövlətləri tutuldu. Fəqət şimdi böylə bir dövlət, tutduğu yerləri boşaltmağa, Müttəfiqlərin həva-həvəslərinin oyuncağı olmağa məcbur olmuşdur. Böylə ki, əvamünnasın [avam xalqın] şimdi hər yerdə: "Nə oldu bu tezliklə böylə bir qəvi və müdhiş dövlət bu hala düşdü?" söylədiyi eşidilir. Fəqət dörd il yarım müharibənin gedişini lazımınca təqib etmiş şəxslər şu təbəddüli-vüqatın [hadisələrin dəyişməsinin, çalxantıların] nagəhani [gözlənilməz] olmamasını və bəlkə müharibə başlandıqda onunla bərabər toxumu əkilərək nəşvünüma tapa gəldiyini [inkişaf edərək gəldiyini] bilirlər. Almanlar kəndilərini mümtaz [seçilmiş], müdam [həmişə] qalibiyyət qazanmaq üçün yaranmış, bütün dünyaya hakim olmağa layiq və şayəstə [yaraşan] bir millət sayırdılar. 1870-ci ildəki firənglərə qalibiyyətləri, ondan qabaq Danimark, Holland məmləkətlərinə endirdikləri zərbələri, hiss və qüruri-milliləri, tərəqqiyati-mədəniyyələri onları istiqballarına dair xülyalar aləminə buraxmışlardı. Qalibiyyətimiz təmin olunmuşdur, deyə etdiklərini bir dürlü düşünməyirdilər. Müharibəyə Lüksemburq və Belçika torpaqlarına daxil olmaqla ibtida etdilər [başladılar]. Halbuki, məzkur [adı keçən] dövlətlər bitərəf olduqlarından, beynəlmiləl şərtlər və qanunlar üzrə hər bir təcavüzlərdən məsun [toxunulmaz] və məhfuz [qorunmuş] olmalıydılar. İştə almanlar Lüksemburq və Belçika torpaqlarına daxil olmaqla, müharibəni başlamaqla bərabər, şimdiki təbəddüli-vüqatın toxumunu ən münbit bir zəmində əkdilər. Yəni dünyanın yarısından çoxunun hüsnrəğbətini itirdilər. Sonra təhtəlbəhrləri [sualtıları] düşmən gəmilərini batırmaqla bərabər, pək etinasızlıqla bitərəf dövlətlərin gəmilərini dəxi batırırdı. Hətta Amerika Cəmahiri-Müttəhidəsinin gəmilərini batırmaqdan dəxi çəkinmədilər. Dəfələrlə Amerika Cəmahiri- Müttəhidəsi və başqa bitərəf dövlətlər, beynəlmiləl şərtlərdən və qanunlardan dəm vuraraq, almanların şu hərəkətlərinə qarşı etirazlar etdilər. Fəqət 14-cü Lui: "dövlət mənəm" dediyi kimi, almanlar dəxi: "beynəlmiləl şərtlər və qanunlar biziz" deyə heç etina etməyərək, qabaqkı hərəkətlərində davam edirdilər. Bu sıralarda alman mətbuatı: "Amerika Cəmahiri-Müttəhidəsinin bizə elani-hərb etməsi gözlənir. Fəqət bak etməyiniz [qorxmayınız], bütün dünya ilə çarpışacaq qədər qüvvəyə malikiz. Amerikalılar Avropaya o qədər qüvvə keçirəmməzlər." yazırdı. İştə bu hərəkətləri sayəsində almanlar ibtidayi-müharibədə əkdikləri şimdiki təbəddüli-vüquatın toxumuna nəşvünüma verərək, amerikalıları müharibəyə sürükləməklə, dərəceyi-kamala yetirdilər. Gürcüstanda türklərə nisbətən nankorluqları ilə onları daha kəndilərindən nifrətləndirdilər. Böylə siyasətin nəticəsi məlumdur.

İştə, böylə təkəbbür və qürurana siyasət hamı "mənəm-mənəm" deyən dövlətlər üçün bir dərsi-ibrətdir. Başqa dövlətlər almanların dörd il yarım müharibə imtidadındakı [müddətindəki] hərəkətlərini və nəticəsini kəndilərinə ayineyi-ibrət [ibrət güzgüsü] edərək, Loğmanın dilindən ibrət alaraq, onun işlərini etmədiyindən əqil sanıldığı kimi, almanların tərzi-hərəkətlərinə təqlid etməməlidirlər. Rusiya yalnız ruslardan ibarət olmayaraq, təqribən yüz (100) milləti haizdir [ehtiva edir]. Şu yüz milləti ədalət və insaf üzrə razı salmadıqca, Rusiya islah bulmayacaqdır. Rusiya millətləri, o sırada Azərbaycan türkləri, Müttəfiqlərin istər şimdi, istər Sülh Konfransında Vilsonun 14 maddəsinə sadiq qalacaqlarına iman edərək, onlara qapılarını açırlar. Onlar şu 14 maddənin lafügüzaf [boş söz] olmadığına artıq inanmışlar. Rusiyanı doğrudan islah etmək istəyirlərsə, şu 14 maddəyə qövlən deyil feilən [sözdə deyil işdə] sadiq bulunsunlar və təbəddüli-vüquat toxumunu daha uyğun bir zəmində əkməsinlər.

*Əbdülvahab Məhəmmədzadə*

## KİÇİK FELYETON
### Növbəti maskarad

Bu əsər "Daşnak" firqəsi həyatından hədsiz-hesabsız pərdədən ibarət bir maskaraddır ki, hər dəm bir qismi oynanır. "Daşnak" firqəsinin mahir artistləri tərəfindən oynanmaqda olan son "seriya"sını qarelərimizə [oxucularımıza] təqdim ediriz.

**Birinci məclis**

Vaqe olur "Daşnaksutyun" firqəsinin mərkəzi komitəsi salonunda. İclas açılmadan əvvəl firqə əzası [üzvləri] dəstə-dəstə yığışıb nə isə mühüm bir əhval olduğunu danışırlar. Sədr öz kabinəsində bikef əyləşib düşünür. Pərdə qalxır. Sədr, dəryayi-fikrə [fikir dəryasına] qərq olmuş bir surətdə əyləşib, başını aşağı dikmişdir. Əza mütəhəyyirdir [üzvlər çaşqındır]. Sədr məclisi bu nitq ilə açır:

"Yoldaşlar! İnqilabçı firqəmizin hürriyyətpərvər əzası axır zamanlar nə isə bir dərəcə vəzifələrindən qafil olmuş kimi görünürlər. Doğrudur, adətimizə görə hər tərəfdə yenə torlar qurub, fitnələr qaldırmaq üçün müəyyən planlar tərtib verməkdən bir an qafil deyiliz. Amma nədənsə, axır zamanlar öylə parlaq bir müvəffəqiyyətə nail ola bilmədik. Gürcüstan sərhədində, Qarabağda və Göyçə yanında planlarımız gözlədiyimiz müvəffəqiyyəti vermədilər. Son müvəffəqiyyətsizliyimiz o dərəcə fəna təsir bağışlamışdır ki, hətta böyük müttəfiqimiz olan İblis həzrətlərinin də diqqətini cəlb edərək, onu bizdən incitmişdir. Həm də öylə incitmişdir ki, bu gün dostanə ruhda yazılmış lakin hiddət və qəzəb əsəri olan bir nota göndərərək, əski fəaliyyətimizi məmnuniyyətlə tədad [sadalayaraq] və hazırkı müvəffəqiyyətsizliyimizdən şikayət edərək yazır ki, ən yaxın zamanda böyük bir qanlı müsadimə [toqquşma] çıxarmaqla onu şad edəcəyimizə qəviyyən ümidvar olur [böyük ümid bəsləyir]. Filhəqiqə [doğrudan da], yoldaşlar, böylə şey olmaz ki, neçə müddətdən bəridir barı bir iyirmi-otuz min adamın da qanı tökülməyir. Burası əvvəla proqramımıza müqayir [zidd], saniyən [ikincisi] İblis ilə bağlamış olduğumuz əhdnaməyə zidd və salisən [üçüncüsü] insaniyyətpərvərlik şüarına bir zərbədir. İnsaf deyil ki, insanlar bu qədər artsın ki, çörəyin girvənkəsi on manata qalxıb camaat ac qalsın. Məncə, insaniyyətpərvərlik vəzifəmiz vadar edir, insanların bir qisminin qırılması ilə adam miqdarını azaldaraq, çörək və sairənin bollaşması və xalqın aclıqdan qurtarması üçün çarələr arayaq."

Sədrdən sonra bir neçə natiq dəxi bu ruhda nitqlər irad edərək [söyləyərək], nəhayət böylə bir qərarnamə qəbul olunur: Əhvalihazirənin [indiki vəziyyətin] tələbini nəzərə alaraq İblisin xatirini ələ gətirmək və proqramımızın insaniyyətpərvərlik haqqındakı maddəsinə əməl etmək qəsdi ilə firqəmiz lazım bilir ən yaxın zamanda, mümkün və lazım olan bir nöqtədə, qanlı bir müsadimə çıxarsın.

Bu qərarnamənin qəbulundan sonra müavini-sədr [sədr müavini] səs alaraq uzun bir nitq söyləyir və axırda təklif edir ki, qanlı müsadiməni pərdələmək üçün tədbir görülsün. Digər bir natiq bu xüsusda firqənin canfəşan mühərrirlərinə ümidvar olduğunu bəyanla təklif edir ki, mühərrirlər ilə görüşmək üçün bir nümayəndə təyin edilsin. Təklif qəbula keçir.

**İkinci məclis**

Vaqe olur "Aşxatavor" baş mühərririnin kabinəsində. Firqə tərəfindən göndərilmiş nümayəndə, öhdəsinə verilmiş olan vəzifədən bəhslə deyir ki:

– Bu surətlə firqəmiz qərar vermişdir, ən yaxın bir zamanda ölkənin bir nöqtəsində qanlı bir faciə oynasın. Fəqət bu faciəni öylə pərdələməlidir ki, firqə üzərinə töhmət düşməsin, təqsir məzlum tərəfində görülsün. Bu xüsusda möhtərəm mühərrirlərimizin məharətini və bu vaxtadək etmiş olduqları xidməti təqdirlə, firqəmiz bu vəzifəni yenə sizin öhdənizə verir.

Müdir: – (Bir qədər düşündükdən sonra) Məncə bundan asan heç bir şey ola bilməz. Böylə ki, mən bütün mühərrirlərimizə tapşıraram, öylə bir hay-küy salarlar ki, onların çığırtısı altında qan dəryasına batmış arvad-uşaqların ahü-fəğanı əsla eşidilməz. Firqəmizin qurşun yağmuru, axıdılan qanlar və göz yaşları bilmərrə görülməz. Görülsə də firqəmizə töhmət gəlməz.

"Növbəti masqarad"ın üçüncü pərdəsi "Aşxatavor" və "Kavkazskoye slovo" qəzetələrinin son nömrələrindəki məqalələrdən ibarətdir. Bu mühərrirlər daşnakların sui-niyyətini pərdələmək üçün bir müddət Gürcüstan Hökumətinə hücum edərək, şiddətli lisanla məqalələr yazdığı kimi, şimdi də Azərbaycan Hökuməti və hökumət nümayəndələrinə qarşı meydan açmışlardır. Məqalələrin məzmunu, Cəfərovun dünkü nömrəmizdə dərc etmiş olduğumuz müraciətindən məlumdur. Bu hücumlardan sonra şübhəsizdir ki, ən yaxın zamanda Zaqafqaziyanın bir nöqtəsində bir faciə oynanacağını gözləməlidir. Baxalım maskaradın faciəli son pərdəsi nerdə oynanacaqdır.

*Bir nəfər*

## BAKI XƏBƏRLƏRİ

- Ərzaq Nəzarəti müvəkkili Neftçilər İttifaqı nümayəndəsi Məşhədi Qasımova Xudat mövqifindən [stansiyasından] Bakıya gətirmək üçün beş vaqon arpa almaqdan ötrü vəsiqə vermişdir.

- Ərzaq Nəzarəti Bələdiyyə İdarəsinin Ərzaq şöbəsinə bütün Bakı körpüləri və körpü anbarlarındakı çayı həcz [müsadirə] etmək üçün müsaidə vermişdir.

- Təşrini-saninin [noyabrın] 27-dən etibarən Port dairəsi fəhlələrinin tətilinə xitam verilmişdir. Fəhlələrə eylül [sentyabr] ayının yarısı məvacibi verilmişdir.

- Təşrini-saninin 26-da Tazəşəhərdən "Qırğız" nam vapor Bakıya varid olmuşdur [gəlmişdir]. Vaporda ingilis saldatları gəlmişdir.

- Təşrini-saninin 26-da Hüseynova məxsus "Qədir" nam vapor Tazəşəhərdən Bakıya varid olmuşdur. Sərnişinlərin məlumatına görə, Tazəşəhər əhalisinin əhvalı fəna deyildir. Şəhərdə ərzaq azdır, ət yoxdur. Çörəyin qiyməti 3 ½ - 3 rublədir. Kartoçka ilə adambaşı ½ girvənkə əkmək verilir. Qiymət isə 70 qəpikdir.

- Daşkənd yaxınlığında bolşeviklərlə Tazəşəhər komitəsi qoşunları miyanında [arasında] müharibə davam etməkdədir. Fort-Aleksandrovsk bolşeviklər əlindədir.

- Ərzaq Nəzarəti Ərzaq şöbəsinə sabiq Türkiyə ordusu anbarlarındakı ərzaq və başqa ələ gələ biləcək mühümmatı [ləvazimatı] oradan götürməyə müsaidə buyurmuşdur.

- Bələdiyyə İdarəsi Kalandadzeyə təcili surətdə Bakıya ərzaq və ələfiyyat [yem] göndərməyi tövsiyə etmişdir. Həmin zat Lənkəran[dan] və Lənkəran qəzasından da taxıl almağa müvəkkil edilmişdir. Vəsaiti-nəqliyyədən [nəqliyyat vasitələrindən] ötrü Müttəfiq ordu komandanlığına müraciət etməlidir.

- Ərzaq şöbəsi Ağabala Quliyevə Yevlax ilə Kürdəmir arasında dəmiryol xəttindəki 13 vaqon buğdanı gətirmək üçün vəsiqə vermişdir.

- Bakıda taxıl qəhətliyindən naşi [ötrü], Ərzaq şöbəsi Quba qəzasında taxıl almağa müvəkkil edilmiş Yurvin Qalinovskiyə bütün Vladiqafqaz dəmiryolu mövqiflərindəki [stansiyalarındakı] taxılı həcz [müsadirə] etmək üçün əmr göndərmişdir. Hər bir həcz edilən ərzaq üçün xüsusi bəratülqövl [protokol] yazılmalıdır.

- Dün [dünən] Tiflisdən buraya Amerika Səlibi-əhmər [Qızıl xaç] mürəxxəsliyi [nümayəndəliyi] varid olmuşdur. Mürəxxəslik, Amerika milli bayrağı ilə bəzənmiş xüsusi vaqonda gəlmişdir.

- Şəhər məktəbləri müəllim və xidmətçilərinə təşrini-saninin ikinci nisfi [yarısı] məvacibi təşrini-saninin 28-də saat 2-yədək veriləcəkdir.

- İşbu günlərdə Bakıda rus dilində "Yedinaya Rossiya" nam gündəlik bir qəzetə nəşr ediləcəkdir.

- Petrovski meydançada və 4 nömrəli evdəki Britaniya Su Nəqliyyatı İdarəsində Britaniya postası yerləşdirilmişdir. İşbu posta dünyanın hər nöqtəsinə göndərilmək üçün məktubat qəbul edir. Bu vaxtadək məktubat Ənzəli-Bəsrə təriqi [yolu] ilə göndərilirdi. Buradan göndərilən məktub Bəsrəyə bir ayadək çatır. Sonra məktub bəhri-mühit [okean] vaporlarına verilir. Xərc, bura pulunun qiyməti qeyri-müəyyən olduğu üçün, burada qəbul edilməyib, çatacağı yerindəki qiyməti alınır. Göndəriləcək məktubat Britaniya hərbi sansürü [senzurası] nəzərindən keçməlidir. Məktubat pəncşənbə [cümə axşamı] və düşənbə [bazar ertəsi] günləri qəbul edilir. Xüsusi şəxslərin də məktubu qəbul olunur.

- Su nəqliyyatı təşkil tapdıqdan sonra işlər çox sürətlə irəliləyir. Ənzəli və Tazəşəhər ilə Bakı arasında gəmi hərəkəti təzələnmişdir. Lənkəran və Astara miyanında [arasında] hərəkat başlanmaqdadır. Bu vaxtadək əşya və əmval [mal] göndərdikdə, Britaniya idarəsindən xüsusi vəsiqə alıb vapor şirkətləri kağızları ilə dəyişilirdi. Məxarici oradaca verilirdi. Srağagündən şirkətlərə təklif edilmişdir ki, adəti üzrə işə başlanılsın. Yük tariflərinin nizama salınmasından ötrü Britaniya ərkani-hərbindən [qərargah zabitlərindən] və vapor sahiblərindən mürəkkəb bir komission təşkil edilir ki, ticarət donanması müfəttişi mayor Braun ilə bərabər işbu məsələni həll etsin.

- Gəncədəki Rus Milli Şurası Azərbaycan Parlamanına Rus Milli Şurası tərəfindən nümayəndə göndərilməsi haqqında Bakı Rus Milli Şurasından teleqrafla isticvab etmişdir [sorğu göndərmişdir].

- Təşrini-saninin 26-dan etibarən Mirzabekyanın tənbəki və papiros emalatxanası fəhlələri tətil elan etmişlər. Tətil fəhlələrin məvaciblərini artırmaq qəsdi ilə olmuşdur.

## BƏZZAZİYYƏ [PARŞA, ARŞIN MALI] MƏSƏLƏSİ

Tağıyev fabrikasında hazırlanan arşın malı tamamilə Ticarət və Sənaye Nəzarəti binagüzarlığına [sərəncamına] alınmışdır. Nəzarət bu malı ucuz qiymətlə əhaliyə satdıracaqdır. İşbu münasibətlə Ticarət və Sənaye Nəzarətinin Sənaye şöbəsi müdiri Sadıq Əhmədov, müxbirimizlə etdiyi müsahibəsində demişdir:

*"Bez və başqa bəzzaziyyə mallarının Nəzarət əlinə keçməsinə, möhtəkirlərin baha qiymətlə satması və əhalinin qismi-əzəmi [çox hissəsinin] istifadəsindən məhrum olması səbəbiyyət vermişdir. Bundan naşidir [buna görədir] ki, Nəzarət, Tağıyev fabrikası istehsalatını öz əlinə alaraq xalq miyanında [arasında] təşkilatlar vasitəsilə təqsim edəcəkdir [böləcəkdir]. Böyləliklə xüsusi əşxasa [şəxslərə] Tağıyev fabrikasından bəzzaziyyə malı buraxılmayacaqdır. Fəqət vəsiqələri olan kənd təşkilatlarına və istehlak cəmiyyətlərinə mal buraxılacaqdır.*

*Nəzarət böyük bəzzazları dəvətlə, bəzzaziyyə malını arşına 25 qəpik mənfəətlə satmaqdan ötrü sazişə gəlmək niyyətindədir. Bu malları qiyməti-müəyyənə [müəyyən qiymət] ilə satmaqdan ötrü böyük təşkilatların, məsələn bələdiyyə və qeyrisinin mübəssirləri [nəzarətçiləri] olacaqdır. Bezin arşını, ehtimala görə, təxminən 4 rublə 50 qəpiyədək satılmalıdır. Buraya bəzzazların mənfəətləri də daxildir. Nəzarətin [Nazirliyin] ehtimalınca görə, ev təşkilatları vasitəsilə xalqa bir qədər bəzzaziyyə verilsə, qiymət ucuzlaşacaqdır. Böylə vəsaitlə bəzzaziyyə qəhətliyini bərtərəf etməyə [aradan qaldırmağa] müvəffəq olacağımıza əminiz."*

## DEMOKRATLAR MÜŞAVİRƏSİNDƏ

Üç gün bundan əqdəm [əvvəl] "Texniçeskoye obşestvo" [Texniki Cəmiyyət] salonunda demokratlar müşavirəsinin ikinci iclası vaqe olmuşdur. İclasda 22 təşkilata mənsub 45 nümayəndə iştirak etmişdir. Müşavirədə erməni milli təşkilatlarından və "Daşnaksaqan" firqəsindən nümayəndələr olmadığı kimi, müsəlman da yox imiş.

İclas birinci cəlsədə [yığıncaqda] intixab edilmiş [seçilmiş] beş nəfərin məruzəsi ilə açılmışdır. Beş nəfər professor Qolovin ilə etdiyi müsahibəni söyləmişdir. Böylə məlum olmuşdur ki, Qolovin Ufa Hökuməti nümayəndəsi olmayıb, fəqət [sadəcə] hərbi şöbənin nümayəndəsidir və Bakıda Ufa Hökuməti namından müvəkkil deyildir. Professor burada fəqət rus orientasiyası tərəfdarı hökumət düzəltməkdə müavinət [yardım] göstərə biləcəkdir.

Məruzəni eşitdikdən sonra iclas qət etmişdir ki, məruzə fəqət məlumatı haizdir [əhatə edir]. Məhəlli [yerli] müştərək hökumət təsisi məsələsi mübadileyi-əfkarı [fikir mübadiləsi] isticvab edilmişdir [gündəliyə daxil edilmişdir].

Sonra iclas Kaspi-Qafqaziya Hökumətini müzakirəyə başlar. Zinovyeva-Deyç işbu hökumətin müştərək olmadığı üçün Bakı üçün yaramadığını söyləmişdir.

Bu məsələ haqqında Saakyan dəxi bir nitq söyləmişdir. Saakyanın əqidəsincə bir çox xüsusiyyətlərdən dolayı Rusiya müvəqqət olaraq bir hökumət şəklini ala biləcəkdir.

Məruzədən sonra bir çox natiqlər nitq söyləmişlər. Bunlardan bir parası milli əsas üzərinə və bir parası firqələrdən mürəkkəb hökumət təşkili tərəfdarı çıxmışlar. Mübadileyi-əfkardan sonra qət edilmişdir ki, müşavirəyə nüfuz verməkdən ötrü gələcək iclas üçün məruzə hazırlamaq üçün xüsusi bir komission intixab edilsin [seçilsin].

## TİCARƏT MÜFƏTTİŞLİYİ

Bələdiyyə İdarəsi Ərzaq şöbəsi tərəfindən Bakıda Ticarət Müfəttişliyi təsisi haqqında bir məsələ qaldırılmışdır. Şöbənin layihəsinə görə Ticarət Müfəttişliyi 1 ticarət müfəttişi, 4 müavin, 12 ticarət mübəssiri [nəzarətçisi], 15 nəfər bazar gözətçilərindən ibarət olmalıdır. Böylə bir təşkilata ayda 25000 rublə para sərf ediləcəkdir.

Ticarət Müfəttişliyinin fəaliyyəti bundan ibarətdir:

1. Tacir və alış-verişçilərin qiyməti bahalandırmaqdan ötrü iqdamatda [təşəbbüsdə] bulunmalarını təqib etmək.
2. Bazar və başqa ticarət mənbələrində nizam və asayiş saxlamaq üçün təşəbbüsatda bulunmaq.
3. Qiyməti-müəyyənə [müəyyən qiymət] ilə satılacaq ərzaq və mühümmatın [ləvazimatın] artıq qiymətlə satılmamasına diqqət etmək.
4. Ticarət etmək üçün Bələdiyyə İdarəsindən alınacaq ticarət vərəqələrini təhqiq etmək.
5. Tərəzi və başqa ölçüləri müayinə etmək.
6. Bazarlarda satılacaq ərzaq və mühümmatın təmiz olmasına çalışmaq.
7. Bütün Bələdiyyə İdarəsi tərəfindən nəşr ediləcək hifzüssihhə [gigiyena] və başqalarına dair qərardadların qövldən feilə [sözdən əmələ] gətirilməsinə və tətbiq edilməsinə çalışacaqdır.

## ŞURAYI-MİLLİ ƏZALARINA

Şurayi-Milli əzaları noyabrın 16-sına dəvət edilmişkən, bir çoxları hələ Bakıya gəlməmiş və nə səbəbə dəxi gəlmədiklərini bildirməmişlərdir. Şurayi-Milli rəyasəti əzayi-müşarileyhimin [haqqında danışılan üzvlərin] bəhəməhal [mütləq] dekabrın 3-də Bakıda bulunmalarını rica edir.

*Şurayi-Milli rəisi:*
*Məhəmməd Əmin Rəsulzadə*
*6/6*

## ŞURAYİ-MİLLİ İDARƏSİNDƏN

Şurayi-Milli dəftərxanasında xidmət etmək üçün türkcə və rusca bilir təcrübəli bir mütərcim lazımdır. Xahiş edənlərin Şurayi-Milli rəyasətinə müraciəti tövsiyə olunur.

*Şurayi-Milli idarəsi müdiri: Məhəmməd Səid*
*6/5*

## ELAN

Bakı İkinci zükur [oğlanlar] gimnaziyası cənbində [nəzdində] kamilən [tamamən] milliləşmiş əlifba şöbəsi açılır. Bu şöbəyə daxil olan çocuqlar türkcə təlim alacaqlar. Əhalinin nəzəri-etinası [diqqəti] bu milliləşmiş əlifba şöbəsinə cəlb olunaraq, uşaqlarını qeyd etdirəcəklərinə ümid ediriz. Qeyd etdirmək istəyənlər məktəbin dəftərxanasına müraciət edə bilərlər.

*725*

## BAKI ƏHALİSİNƏ

Bakı Şəhər İdarəsi çörək yoxluğunun səbəblərini göstərməyə özünü borclu bilir. Əvvəla, Türk Ordusunun Bakıdan köçməsindən naşi [ötrü] dəmiryolları yüklə dolmuşdur və saniyən [ikinci olaraq] Zaqafqaz dəmiryolu axırıncı yağışlardan çox zərərdidə olmuşdur [zərər çəkmişdir]. Bu səbəbdəndir ki, dəmiryolları ilə ərzaq gətirmək çətinləşib, bu axırıncı həftədə taxıl heç gəlməmişdir.

Tezliklə dəmiryolu təmir edilməsi üçün Hökumət tərəfindən tədbirlər görülməkdədir. Bu yaxında Lənkəran və İran yolları dəxi açıldıqda, Bakı Şəhər İdarəsi yenə də bazarda çörəyin bollaşmasına ümid edir.

Böylə müşkül halda camaatın imdadına yetişmək üçün Şəhər İdarəsi Ərzaq şöbəsi qabaqca hazırlanmış arpa ununu çörəkçilərə paylayıb, çörəyin girvənkəsini 2 manatdan satdırmaqdadır. Bu dükanlar siyahısı xüsusi elan olmuşdur.

Şəhər İdarəsi əhaliyə müraciət edib, camaatın təşvişə düşməməsini rica edib, bu yaxında ərzaq qəhətliyinin rəf ediləcəyinə [aradan qaldırılacağına] inandırır.

Bununla belə Şəhər İdarəsi alış-verişçilərə öz vətəndaşlıq vəzifələrini unutmamalarını tövsiyə edib, məişətin bu çətin zamanında ərzağı gizlədib qiymətlərin bahalaşdırmamasını və hər bir növ ilə ərzaq yoxluğunun asanlaşdırılmasına səy etmələrini rica və təmənna edir.

*Bakı Şəhər qlavası*
*[Şəhər İdarəsinin rəisi]*
*İlyuşkin*
*6/2 2-2*

**Doktor Krinski**

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovı caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

*263*

**Doktor F. S. Ştеyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Müdir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Ümuri-Nafiə və Xeyriyyə Nəzarətində***

"20 təşrini-sani 1334": Burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 20 noyabr 1918-ci ilə uyğundur.

***Azərbaycan Məclisi-Məbusanı təsisi haqqında Qanun***

Bu qanunun hərflərlə göstərilən maddələri qəzetdə ərəb əlifbasına uyğun olaraq (əlif, bə, tə və s. kimi) sırlanmışdır.

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

***Radioteleqraf: Almaniya vəliəhdi***

"Alman kronprinsi (vəliəhdi)...": Fridrix Vilhelm nəzərdə tutulur.

"...Veterinq şəhərində Zuiderze qəsəbəçəsində...": belə başa düşülməlidir: "Zuiderze körfəzində Veterinq qəsəbəsində".

***İngiltərədə seçki işləri***

"...bu yerlər içindəki evlər ilə ya hissələrə yaxud geniş bir miqyasda fənni-ziraət planı ilə hazırlamaq...": Xəbərin tərcüməsində qeyri-dəqiqlik olduğundan, cümlənin bu hissəsi anlaşılmır; belə başa düşülməlidir: "bu ərazilər ya evlər və bağçalar olmaqla hissələrə ayrılacaq, yaxud da geniş miqyaslı kənd təsərrüfatı planlarına uyğunlaşdırılacaqdır".

***Teleqraf xəbərləri***

"Bu qərarla mübarizənin təzələnməsi üçün ənənəli əsaslar hazırlayırlar.": Bu cümlə belə başa düşülməlidir: "Bu qərarla, get-gedə mübarizənin təzələnməsi üçün zəmin hazırlayırlar."

***Almaniya ilə mütarikə şəraitindən***

Qəzetdə müqavilənin sadəcə bir hissəsi verilmişdir, 1-11-ci, habelə 23, 26-27 və 31-ci maddələr buraxılmışdır.

"12-ci maddə": "Azərbaycan" qəzetində səhvən "21-ci maddə" kimi getmişdir.

"Böylə maliyyə tədabiri şimdilik lazımdır. Müttəfiq və Amerika dövlətlərinin gələcək tələbləri ilə yuxarıdakı tədabir xələldar olmasın.": Tərcümə xətası üzündən anlaşılmaz hala gələn bu cümlələr belə başa düşülməlidir: "Bu maliyyə tədbirləri, Müttəfiqlərin və Amerika Birləşmiş Ştatlarının bundan sonrakı tələb və iddialarını pozmadığı müddətcə həyata keçirilə bilər.

"21 – Müttəfiqlərin və ittifaqa mənsub dövlətlərin (ticarət və hərbi) donanması bəhriyyunları qaytarılmalıdır. Bunun əvəzində əsir verilməyir.": Burada söhbət, Almaniya və müttəfiqlərinin əlindəki əsirlərin birtərəfli qaydada qaytarılmasından gedir.

"Böylə müamilat [əməliyyat] hər iki tərəfdən olmayacaqdır.": Burada söhbət, tutulan gəmilərin qaytarılması əməliyyatının birtərəfli qaydada həyata keçirilməsindən gedir.

"32 – Almaniya Hökuməti, xüsusi müəssisələr yaxud xüsusi ticarət cəmiyyətlərinin tərəfindən İsveç, Norveç, Danimarka, Felemenk və digər bitərəf məmləkətləri Müttəfiqlər və Müttəfiqlərə mənsub dövlətlərlə məhdud və yasaq olan ticarətin azadlığı haqqında Almaniya istixbar [xəbərdar] etməlidir.": Tərcümə xətası üzündən anlaşılmaz hala gələn bu cümlə belə başa düşülməlidir: "Almaniya Hökuməti; gəmiçilik şirkətlərinin Antanta dövlətləri və onlarla ittifaq halındakı digər dövlətlərlə ticarət əlqələrinə tətbiq edilən bütün məhdudiyyətlərin – bu məhdudiyyətlər istər Almaniya Hökuməti, istər özəl müəssisələr tərəfindən qoyulmuş olsun – dərhal ləğvi barəsində dünyadakı bütün bitərəf dövlətləri, xüsusilə də Norveç, Danimarka, İsveç və Hollandiyanı rəsmi qaydada xəbərdar etməlidir.

"18-ci maddənin şərtlərini təyin edilmiş zamanda ifa etmək mümkün olmazsa...": Qəzetdə bu hissə belə getmişdir: "18-ci maddənin təyin edilmiş zamanda yazdığına ifa etmək mümkün olmazsa..."

"12 təşrini-sani 334": Burada il (1334-cü il), rumi təqvimlə göstərilmişdir. Miladi təqvimlə 12 noyabr 1918-ci ilə uyğundur.

***Milyukov ilə müsahibə***

"P. K.": "Priazovski kray" qəzeti nəzərdə tutulur; "Azərbaycan" qəzetində səhvən "P. F." kimi getmişdir.

"...Stepanov ilə Astrov bizim nümayəndələrimizdir.": Vasili Aleksandroviç Stepanov və Nikolay İvanoviç Astrov nəzərdə tutulur.

***Posta-Teleqraf naziri ilə müsahibə***

"K.": "Kaspi" qəzeti nəzərdə tutulur.

***Mərhum Səhhətin son məktubuna cavab***

"…….": Bir misra buraxılmışdır.

***"Mərhum Səhhətin son məktubuna cavab" şeiri üçün lüğət:***

şəmsi-münir: parlaq günəş
mahi-taban: işığlı ay
şəhab: alov
neyyir: nurlu
nəsimi-sabah: səhər yeli
sitareyi-səhər: səhər ulduzu
bədr: on dörd gecəlik ay
Süheyl: parlaq bir ulduzun adıdır
səhab: bulud
rümuzi-şe'r: şeirlərdəki işarələr
şairi-şəhir: şöhrətli şair
nükati-nəzm: nəzm əsərlərindəki incə nöqtələr
rahbər: rəhbər; yol göstərən
rəhnüma: yol göstərən
rəvani-pak: pak ruh
Qafqazara: Qafqazda
nəşidə: şərqi, şeir
raiqanə: saf
xak: torpaq

***Tövsiyə***

"1870-ci ildəki firənglərə qalibiyyətləri…": 1870-1871-ci illər Fransa-Prussiya müharibəsi nəzərdə tutulur.

***Kiçik felyeton***

"Bir nəfər": Bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

***Bakı xəbərləri***

"Daşkənd yaxınlığında bolşeviklərlə Tazəşəhər komitəsi...": Burada söhbət, Zakaspiysk Müvəqqəti Hökumətinin Krasnovodsk Komitəsindən gedir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İşğaldan azad edilən ərazilərdə yaradılacaq "yaşıl enerji" zonası böyük potensiala malikdir

"İşğaldan azad edilən ərazilərdə yaradılacaq "yaşıl enerji" zonası böyük potensiala malikdir və bu potensialdan istifadə edib ekoloji cəhətdən təmiz enerji istehsal etmək mümkündür".

AZƏRTAC xəbər verir ki, bu sözləri Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin (BOEMDA) direktoru Cavid Abdullayev deyib. O, bildirib ki, yaradılacaq "yaşıl enerji" zonasında 380 Mvt gücündə su, 7200 Mvt gücündə günəş və 2000 Mvt külək enerjisi istehsal etmək potensialı var.

Artıq Ağalı kəndinə qayıdan ailələrin evlərinin damında günəş panelləri quraşdırılıb və onlar günəşdən alınan ekoloji cəhətdən təmiz elektrik enerjisindən istifadə edirlər.

"Yaşıl enerji" zonası böyük potensiala malik olduğu üçün xarici sərmayədarlar enerji istehsalı üçün sərmayə yatırmaqda maraqlıdırlar. Bir sıra xarici şirkətlə bu istiqamətdə danışıqlar aparılır.

## 2700-dən çox müharibə veteranına reabilitasiya xidmətləri göstərilib

Son illər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin regional mərkəzlərində reabilitasiya infrastrukturu müasir tələblərə uyğun qurulur.

Məlumat üçün bildirək ki, agentliyin tabeliyində Bakıda və ölkəmizin regionlarında olmaqla 14 reabilitasiya müəssisəsi və 1 Protez-Ortopedik Reabilitasiya Mərkəzi fəaliyyət göstərir. Ötən il də qurumun reabilitasiya müəssisələrində əvvəlki ilə nisbətən 5,4 dəfə çox olmaqla 50,4 min, bu ilin iki ayında isə 10,3 min şəxsə reabilitasiya xidməti göstərilib. Həmçinin 2022-ci ildə əlilliyi olan şəxslər əvvəlki ilə nisbətən 40 faiz çox olmaqla 66,3 min, son iki ayda isə 12,6 min reabilitasiya vasitəsi ilə təmin ediliblər.



Qeyd olunan müəssisələr 44 günlük Vətən müharibəsində yaralanmış hərbçilərimizin səmərəli bərpa müalicəsi xidmətləri ilə təminatında mühüm rola malikdir. ƏƏSMN-nin yaydığı məlumata görə, postmüharibə dövründə agentliyin reabilitasiya müəssisələrində 2700-dən çox müharibə veteranına sosial-psixoloji və reabilitasiya xidmətləri göstərilib. Bu dövrdə müharibə ilə əlaqədar əlilliyi olan 1900-dən çox şəxs 34 min reabilitasiya vasitəsi, I və II Qarabağ müharibəsində yaralanaraq aşağı və yuxarı ətrafları amputasiya olunmuş ümumilikdə 406 hərbçi 423 yüksək texnologiyalı son nəsil protezlərlə təmin edilib.

# Qoşulan ölkələr də Azərbaycanı seçir

## Latviya Prezidenti Egils Levits: "Azərbaycanın son illər ərzində oynadığı mühüm rol beynəlxalq münasibətlərdə etiraf olunub"

**Azərbaycan əksər ölkələrlə qarşılıqlı faydalı əlaqələri quran və bununla iqtisadi münasibətləri inkişaf etdirən sivil dövlətdir. Buna misal kimi Latviya və Azərbaycan arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni göstərə bilərik. Artıq bir neçə ildir ki, bu sənəd iki ölkə arasında iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayır.**

Ötən dövrdə hər iki ölkənin prezidentləri qarşılıqlı səfərlər etmişlər. Azərbaycan-Latviya Hökumətlərarası Birgə Komissiya isə işgüzar münasibətlərin dərinləşməsində fəaliyyətini daha da genişləndirmişdir.

Bir neçə gün əvvəl Bakıda növbəti dəfə görüşən hər iki dövlətin başçısı bir daha ikitərəfli əlaqələrin inkişafında maraqlı olduqlarını bəyan etmişlər. Prezident İlham Əliyev həmçinin Latviyanın Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında inkişaf edən əməkdaşlıqda aparıcı qüvvə olduğunu vurğulamışdır. Bu da təsadüfi deyil. Məlumdur ki, Azərbaycan Aİ-nin enerji təchizatında əhəmiyyətli tərəfdaşa çevrilməkdədir. Bu gün ölkəmiz Avropaya neft, təbii qaz, neft-kimya məhsulları ixrac edir. Gələcəkdə bu siyahıya "yaşıl enerji" də əlavə olunacaq. Paralel olaraq Azərbaycanla Avropa arasında qlobal layihələr üzrə müqavilələr imzalanır. Artıq Avropa Komissiyası ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında imzalanan saziş əsasında yeni yaradılan şaxələndirilmiş marşrutlarla qaz təchizatı artır. Bütün bunların sayəsində Aİ ölkələri əsas ticarət tərəfdaşımıza çevrilir.

Məlumdur ki, Azərbaycan və Latviya diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd etməyə hazırlaşır. İldən-ilə genişlənən siyasi münasibətlər iqtisadi əlaqələrin də dərinləşməsinə qapı açmışdır. Azərbaycanla Latviya arasındakı iqtisadi münasibətlərdə İKT, "ağıllı enerji", "yaşıl texnologiyalar", nəqliyyat və daşımalar sahəsində mövcud imkanların nəzərdən keçirilməsi tədricən aktuallaşır. Artıq Latviyanın "airBaltic" milli aviaşirkəti bu ilin mayından Riqa ilə Bakı arasında birbaşa uçuşları bərpa etməyə hazırlaşır. Bu müstəvidə qarşılıqlı turizm imkanlarının genişləndirilməsi də diqqət mərkəzindədir.



Dövlətimizin başçısının Latviya Prezidenti Egils Levits ilə keçirilən məhdud tərkibli görüşündə Latviyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafına verdiyi dəstək yüksək qiymətləndirilmişdir. Latviya Prezidenti Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə toxunaraq Hərəkatın Bakıda keçirilmiş son Zirvə toplantısını qeyd etmiş, beynəlxalq hüququn ölkəsinin xarici siyasətinin təməl prinsipi olduğunu bəyan edərək Latviyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulamışdır.

Məlumdur ki, Azərbaycan-Aİ əlaqələrinin ümumi mənzərəsinin fonunda ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rol getdikcə artmaqdadır. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu Aİ ilə iqtisadi-ticari münasibətlərin genişləndirilməsinə yol açır. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işlərində Latviya şirkətlərinin iştirakının reallaşması, iki ölkə arasında enerji, turizm, İKT, süni intellekt və qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə mövzusuna çevrilməsi məhz bunun nəticəsidir.

Yeri gəlmişkən, xatırladaq ki, keçən ilin may ayında Riqa şəhərində Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilmişdir. Tədbirdə ticarət və investisiya, elm və təhsil, turizm, mədəniyyət, nəqliyyat, innovasiya, kənd təsərrüfatı və qida təhlükəsizliyi, energetika, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi sahələri üzrə əməkdaşlıq məsələləri geniş müzakirə edilmişdir.

Bu il martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev bir daha Avropa dövlətləri ilə əməkdaşlıq mövzusuna toxunaraq demişdir: "Biz nefti, neft məhsullarını, təbii qazı, elektrik enerjisini, neft-kimya məhsullarını beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixrac edirik. Ötən ilin dekabrında Buxarestdə əlamətdar hadisə baş verdi - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Avropa Komissiyasının sədrinin iştirakı ilə "yaşıl enerji" və onun ötürülməsinə dair saziş imzaladılar. Biz onun əsasında Azərbaycandan Avropaya dənizdən külək enerjisi stansiyalarından ötürmə xəttini çəkəcəyik. Həmin ötürmə xəttinin bir hissəsi Qara dənizin dibi ilə gedəcək. Hazırda biz texniki əsaslandırma prosesini aparırıq".

Tədbirdə iştirak edən Latviya Prezidenti Egils Levits isə çıxışında ölkəmizin son illər beynəlxalq münasibətlərdə oynadığı mühüm rolu vurğulayaraq bildirmişdir: "Azərbaycan Qoşulmama Hərəkatında aparıcı rol oynayır. Bu, sözün əsl mənasında, 120 üzv dövlətdən ibarət olan yaxşı bir platformadır və onların əksəriyyəti BMT-nin üzvləridir. Azərbaycanın son illər ərzində oynadığı mühüm rol, əslində, beynəlxalq münasibətlərdə etiraf olunub. Əslində, Azərbaycan siyasi baxımdan, yeni sülhün necə qorunması, qlobal məsələlərin həlli ilə bağlı bir çoxlarını ilhamlandırıb".

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

## "7-ci İnvestisiya səyahəti" Şabranda keçirildi

**Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB), Bakı Fond Birjası (BFB), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və investisiya şirkətlərinin iştirakı ilə Şabran şəhərində "7-ci İnvestisiya səyahəti" tədbiri təşkil olunub.**

BFB məlumat yayıb ki, Şabran rayon Heydər Əliyev Mərkəzində keçirilmiş tədbirdə regionda fəaliyyət göstərən biznes subyektləri mütəşəkkil kapital bazarının imkanları və Bakı Fond Birjasında listinqin üstünlükləri barədə məlumatlandırılıb. Tədbirdə qiymətli kağızlar bazarına dair məlumatlılıq səviyyəsinin yüksəldilməsi, regionlarda bu sahəyə marağın artırılması və biznes ictimaiyyətinin diqqətinin kapital bazarına yönəldilməsi istiqamətində təqdimatlar olub.

Həmçinin tədbir çərçivəsində investisiya şirkətləri tərəfindən kapital bazarı vasitəsilə maliyyələşməyə marağı olan biznes subyektlərinin təsərrüfatlarına yerində baxış keçirilib, onların maliyyələşmə imkanları dəyərləndirilib.

Qeyd edək ki, bu, sayca yeddinci belə tədbirdir. Bundan əvvəl "İnvestisiya səyahəti" tədbiri Gəncə, Xaçmaz, Lənkəran, Yevlax, Qəbələ və Şamaxı şəhərlərində təşkil olunub. Mütəmadi təşkil edilən investisiya səyahəti tədbirlərinin məqsədi regionlarda fəaliyyət göstərən biznes subyektlərini alternativ maliyyələşmə mənbəyi olan qiymətli kağızlar bazarı barədə məlumatlandırmaqdır.

# Torpağı su ilə sınağa çəkməmək üçün

## yeni suvarma texnologiyalarından istifadə edilməlidir

**Dünya əhalisinin sayı artmaqda davam edir. Son statistikaya görə, artıq 8 milyarda elə də çox qalmayıb. Əhalinin çoxalması isə ərzağa olan tələbatı da artırır. Son vaxtlar dünyada yaranan ərzaq böhranının bir səbəbi də budur. Qalan səbəblər də məlumdur: koronavirus pandemiyası, Rusiya-Ukrayna müharibəsi və s.**

Yaranmış böhrandan yeganə çıxış yolu kənd təsərrüfatında məhsul istehsalını artırmaqdır. Hazırda dünyada aqrar elmin qarşısında duran başlıca vəzifə az torpaq sahəsində daha çox məhsul istehsal etməkdir. Cəsarətlə demək olar ki, bu sahədə müasir texnologiyanın sayəsində xeyli uğurlar əldə olunub. Məhsuldar toxumlar, damazlıq heyvandarlığın inkişafı, intensiv bağçılıq və yeni sortların yaradılması məhsuldarlığın artmasında önəmli rol oynayır.

Amma bu uğurların heç birini su ilə etibarlı təminatsız qazanmaq olmazdı. Çünki məhsuldarlığın açarı su ilə təminatdır. Bu üzdən dünyada kənd təsərrüfatında sudan qənaətlə istifadə üçün yeni texnologiyalar hazırlanıb tətbiq edilir. Əldə olunan nəticələr isə göstərir ki, bu yolla yüksək məhsul götürmək mümkündür.

Dəfələrlə qeyd etdiyimiz kimi, Azərbaycan dünyada su resursları məhdud olan ölkələrdən sayılır. Səbəbi əsas su mənbələrimizin ölkədən kənarda formalaşmasıdır. Bununla yanaşı, daxili su mənbələrimizin 25 faizinin formalaşdığı ərazi 30 ildən çox düşmən işğalında idi. Ermənilər bu su



resurslarından istifadə etməməyimiz üçün bütün çirkin üsullardan istifadə edirdilər.

Bununla belə, indi həmin su resurslarından istifadə etmək imkanımız olsa da, ölkəmizin suvarma suyuna olan tələbatı hələ də tam ödənilmir. Ona görə də biz suya qənaət edən texnologiyalardan istifadədə üstünlük verməliyik. Yeri gəlmişkən qeyd edək ki, hazırda bir çox iri aqrar fermer təsərrüfatında və aqroparklarda bu üsuldan geniş istifadə olunur. Ancaq ölkənin hər yerində belə olduğunu söyləyə bilmərik. Bu istiqamətdə hələ çox iş görülməlidir.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, "Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması" (ECOserve) proqramı çərçivəsində dayanıqlı kənd təsərrüfatı üçün su resurslarına tələbatın təhlilinin modelləşdirilməsi mövzusunda təlim keçirilib. Kənd Təsərrüfatı Nazirliyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə partnyorluq çərçivəsində icra olunan ECOserve proqramı üzrə beynəlxalq ekspert tərəfindən keçirilən təlimdə nazirliyin Torpaqdan istifadəyə nəzarət şöbəsi, Aqrar Tədqiqatlar Mərkəzi, Kosmik və Milli Aerokosmik agentliklərinin mütəxəssisləri iştirak ediblər.

Təlimdə peyk təsvirlərindən və Coğrafi İnformasiya Sistemləri (CİS) məlumatlarının təhlili zamanı proqramlaşdırma vasitələrindən istifadənin əhəmiyyəti barədə təqdimat olub. Bildirilib ki, kənd təsərrüfatı məhsullarının istehsalında suvarma suyundan səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Həmçinin qlobal iqlim dəyişikliyi fonunda dünyanın əksər ölkələrində aqrar sahədə su resurslarının səmərəli idarə edilməsinin vacibliyi qeyd olunub. O da vurğulanıb ki, proqnozlaşdırılan su resurslarının azalması suvarmanın düzgün idarə edilməsini və suya tələbatın dəqiq hesablanmasını zəruri edir.

Təlim zamanı ECOserve proqramı çərçivəsində aidiyyəti qurumlarla birlikdə kənd təsərrüfatı sektorunda suyun davamlı istifadə ilə bağlı məlumatların toplanılması, təhlillərin aparılması və suvarma suyuna tələbatın analizi məqsədilə yeni yanaşmanın hazırlanması barədə məlumat verilib. Bildirilib ki, ölkə üzrə bitkilərin suya olan tələbatının qiymətləndirilməsi məsafədən zondlama ilə torpaq təsnifatı, bulud hesablamaları və CİS mühitində su balansı sxeminin tətbiqi vasitəsilə həyata keçirilib. Bu tədqiqat regionda tələb olunan dayanıqlı su siyasətinin həyata keçirilməsi vacib olan ərazidə su ehtiyatlarının suvarmada istifadəsi üzrə məlumat çatışmazlığını aradan qaldırmağa kömək edəcək.

Qeyd edək ki, "Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması" (ECOserve) proqramının əsas məqsədi təbii ehtiyatlardan davamlı və ekoloji cəhətdən təmiz istifadəni təşviq etməkdir. Proqram çərçivəsində ətraf mühitin və biomüxtəlifliyin mühafizəsi, suvarma suyuna olan tələbatın təhlili, kənd təsərrüfatında təbii ehtiyatlardan davamlı istifadə, hüquqi çərçivənin təkmilləşdirilməsi ilə bağlı təlimçilər və fermerlər üçün təlimlər keçirilib, ekskursiyalar təşkil olunub.

*Rüstəm KAMAL, "Azərbaycan"*

## Euronews: "Bu il Azərbaycanda turizm sahəsinin inkişafında mühüm il olacaq"

Bu il Azərbaycanda turizm sektorunun inkişafında mühüm il olacaq. Bu barədə Euronews.com xəbər portalındakı məqalədə deyilib.

"Azərbaycan Avropa ilə hava nəqliyyatını açmaqla və vizaların verilməsini asanlaşdırmaqla turizmin inkişafı üçün mühüm bir ilə hazırlaşır, belə ki, bu, milyonlarla səyahətçiyə ölkənin görməli yerlərindən və nəfəs kəsən mənzərələrindən zövq almaq imkanı verəcək", - məqalədə deyilir.

Məqalədə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqştşmiddən sitat gətirilərək Azərbaycanın turizm sənayesinin "çox aktiv və parlaq olduğu" qeyd olunur.

"Biz Azərbaycanın biomüxtəlifliyi ilə çox qürur duyuruq. Landşaft və iqlim zonalarının çoxobrazlılığı insanı valeh edir. Son illər ərzində bir çox yeni layihə işlənib hazırlanıb və inkişaf istiqamətləri müəyyən edilib: yeni hotellər açılıb, turizm infrastrukturu əhəmiyyətli dərəcədə genişlənib", - F.Zenqştşmid deyib.

Xatırladaq ki, ötən il Azərbaycana 1,6 milyondan çox xarici vətəndaş səfər edib ki, bu da 2021-ci ilin göstəricisindən (790 062) iki dəfə çoxdur.

## "KazTransOil" Bakı limanına sınaq məqsədilə neft daşıyacaq

Qazaxıstanın "KazTransOil" neftdaşıma şirkəti Bakı limanına tədarük olunması üçün Kaşaqan yatağından Aktau limanına 7 000 ton neftin sınaq məqsədli daşınmasını həyata keçirməyi planlaşdırır.

Trend-in şirkətə istinadən məlumatına görə, Kaşaqan neftini göndərən "INPEX North Caspian Sea, Ltd"dir.

Qeyd edək ki, Qazaxıstanın xarici işlər nazirinin müavini Roman Vasilenko dünənki brifinqdə Qazaxıstan neftinin Azərbaycandan keçərək nəqlinin bu il başlayacağını bildirib.

Daha əvvəl Qazaxıstanın baş naziri Əlixan İsmayılov 2023-cü ilin əvvəllərində Azərbaycan ərazisindən keçərək 1,5 milyon ton Qazaxıstan neftinin nəqlinə başlanılacağını bildirib.

"Bizim artıq 1 yanvar 2023-cü ildən etibarən Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə 1,5 milyon ton neft nəqlinə dair sazişimiz var. Eyni zamanda həcmi gələcəkdə 6-6,5 milyon tonadək artırmağı nəzərdə tuturuq. Batumi və Özbəkistan istiqamətində dəmir yolu ilə pilot daşımalar artıq başlayıb, vaqon sisternlərinin sayı isə ikiqat artırılıb", - Ə.İsmayılov deyib.

# Avtomobillərdəki gizli təhlükə

## Dəm qazı sürücü və sərnişinlərin həyatını təhdid edir

**Havalar soyuduqca avtomobillərin istilik sisteminə tələbat artır. Bu da bəzən sürücü ehtiyatsızlığı və nəqliyyat vasitəsindəki nasazlıq ucbatından dəm qazı ilə zəhərlənmə hallarına səbəb olur.**



Bu kimi hadisələrin baş verməsi ilə bağlı xəbərlərə həm xarici, həm də yerli mediada tez-tez rast gəlirik. Təəssüf ki, bəzən belə hadisələr faciə ilə nəticələnir. Nəqliyyat vasitələrində baş verən belə halların səbəbini, əsasən hansı avtomobillərdə dəm qazının yarandığını, zəhərlənən şəxslərə ilkin tibbi yardımın necə həyata keçirildiyini öyrənmək üçün ekspertlərə müraciət etdik.

### Uşaqlarda, yaşlılarda, yanaşı xəstəliyi olanlarda risk daha yüksəkdir

Kliniki Tibbi Mərkəzin baş toksikoloqu Azər Maqsudov deyir ki, dəm qazından boğulma zamanı ilk növbədə beyin və sinir sistemi zədələnir: "Bu zaman baş ağrısı, baş gicəllənməsi yaranır, ürək döyüntüsü artır, hava çatışmazlığı olur, təzyiq düşür. Həmin mühitdə 5-10 dəqiqə qalmaq insanın huşunu itirməsinə səbəb olur".

A.Maqsudov qeyd edir ki, digər situasiyalarda olduğu kimi, dəm qazından zəhərlənmə anında da ilkin tibbi yardım göstərmək önəmlidir: "Dəm qazından zəhərlənmiş şəxsi rahat nəfəs ala biləcəyi təmiz havaya, qapalı olmayan mühitə çıxarmaq, arxası üstə uzadıb yaxasını açmaq, başına və sinəsinə soyuq su ilə islanmış bez qoymaq, ağız boşluğunu selikdən təmizləmək lazımdır ki, hava yolları açılsın, boğulma hissi olmasın. Zərərçəkmiş özünə gəldikdə bədən hərarəti düşməyə meyilli olduğu üçün üstünü örtmək və isti içki vermək tövsiyə olunur".

Həkimin sözlərinə görə, bədən çəkisi, yaş faktoru və orqanizmdən asılı olaraq dəm qazından zəhərlənmə hallarının ağırlıq dərəcəsi dəyişir. Uşaqlarda, yaşlılarda və yanaşı xəstəliyi olanlarda risk daha yüksəkdir. Onların bərpa müddəti də daha uzun vaxt alır.

### Dizel yanacağı və benzinlə işləyən avtomobillər daha təhlükəlidir

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov deyir ki, sürücülərin avtomobillərdə dəm qazından zəhərlənmələrinin müxtəlif səbəbləri var: "Başlıca səbəbi isə avtomobildə katalizator sisteminin, zərərli qazların onun salonuna dolmasının qarşısını alan müəyyən qurğuların, cihazların sıradan çıxmasıdır. Hər bir sürücü məsuliyyətli olub zamanında servisə müraciət etməli, nə özünü, nə də sərnişinləri təhlükəyə atmalıdır".

E.Cəfərov bildirir ki, dəm qazından zəhərlənmə hallarına adətən, dizel yanacağı və benzinlə işləyən avtomobillərdə rast gəlinir: "Əgər avtomobilin qızdırıcı sistemi nasazdırsa, həmçinin qızdırıcı sistem uzun müddət qapalı mühitdə işləyirsə yanacaqdan ayrılan dəm qazından zəhərlənmə halları qaçılmazdır. Qızdırıcı sistemi işlək vəziyyətdə qoyub yatmaq ölümlə nəticələnə bilir. Havalandırma sistemində və səs boğucularda problem olanda dəm qazı salona dolur. Qapalı mühitlərdə, qarajlarda maşın işlək vəziyyətdədirsə havalandırmanı, qapı-pəncərəni açmaq lazımdır ki, hava sirkulyasiya etsin".

Avtomobillərdə dəm qazının ölçülməsinin mühüm amillərdən biri olduğunu vurğulayan ekspert bildirir ki, bu proses ölkəmizdə lazımi səviyyədə həyata keçirilir: "Bunu DYP həyata keçirir. Belə cihazlar ölkəmizdə çoxdan mövcuddur. Dəm qazının miqdarı avtomobillərdə 2 faizi keçməməlidir. Sürücülərimizə tövsiyə edirik ki, avtomobillərini yaşayış məntəqələrində mühərriki işlək vəziyyətdə saxlamasınlar. Avtomobilin dayanıqlı vəziyyətdə mühərrikinin işləməsi qadağandır. Xüsusən də qapalı ərazilərdə, qaraj və üstüörtülü parklanma yerlərində. Avtomobilin qurğularından atmosferə çıxan dəm qazı qapalı yerlərdə avtomobilin salonuna da dola bilər ki, bu da faciə deməkdir".

### Ekoloji cəhətdən zərərli avtomobillərin idxalı qadağan edilib

E.Cəfərov deyir ki, Azərbaycanda "Avro4" ekoloji standartları tətbiq olunub: "Bu o deməkdir ki, ölkəmizə ekoloji cəhətdən zərərli olan avtomobillərin idxalı artıq qadağandır. Burada əsas məqsəd ölkəmizin "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in əsas bəndlərindən biri olan "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"nə əməl edilməsidir. Dövlətimiz qarşısına məqsəd qoyub ki, 2030-cu ilə qədər respublikamız təmiz ətraf mühit, yaşıl artım ölkəsinə çevriləcək".

Bu məqsədə çatmaq üçün atmosferə buraxılan zərərli qazların miqdarını azaltmağın vacibliyini vurğulayan ekspert qeyd edir ki, ötən ildən ölkədə ekoloji təmiz nəqliyyat vasitələrinin istismarını stimullaşdıran addımlar atılıb: "Azərbaycana idxal olunan yeni elektromobillər gömrük rüsumlarından, hibrid avtomobillər gömrükdə idxal zamanı ƏDV-dən azad edilib. Belə növ avtomobil almaq istəyən vətəndaşlar üçün kredit şərtləri də sadələşdirilib. Bütün bunlar atmosferə zərər verməyən ekoloji təmiz avtomobillərin istifadəsini stimullaşdırır".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ölkə ərazisində hava əsasən yağmursuz olacaq

**Azərbaycanda martın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 5-8°, gündüz 13-18° isti olacaq.

Atmosfer təzyiqi 761millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Bəzi yerlərdə duman gözlənilir. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 20-25° isti, dağlarda gecə 1-6°, gündüz 9-14° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, bəzi yerlərdə 2°-dək şaxta, gündüz 15-20° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 9-14° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 17-22° isti, dağlarda gecə 0-5°, gündüz 13-18° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 20-25° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 18-23° isti, dağlarda gecə 7-10°, gündüz 14-18° isti olacaq.





OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Bakı islamofobiya ilə mübarizəyə dair beynəlxalq konfransa evsahibliyi edəcək

Martın 15-16-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və G20 Dinlərarası Dialoq Forumu İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə həsr olunan "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirəcək.

BBMM-in və BMTM-in Mətbuat xidmətlərindən AZƏRTAC-a bildiriblər ki, konfransın əsas məqsədi beynəlxalq və milli səviyyədə müsəlmanları və əhalisi müsəlman olan ölkələri hədəf alan həyəcanverici tendensiyaları müzakirə etmək üçün akademik platforma yaratmaqdır. Konfransda 32 ölkədən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edəcək, islamofobiya ilə mübarizədə fərqli yanaşma, Avropanın bəzi ölkələrində islamofobiyanın təzahürləri, dünya mediasında islamofobiya mövzularında müzakirələr aparacaqlar.




Qeyd edək ki, 15 mart tarixinin İslamofobiya ilə Mübarizə Günü olması ilk dəfə 2020-ci il noyabrın 27-28-də İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Niger Respublikasının Niamey şəhərindəki toplantısında elan edilib. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 2022-ci ildə 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qəbul edib.

# 30 kiloqramdan çox narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısı alınıb

Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Horadiz" və "Göytəpə" sərhəd dəstələrinin əməkdaşları tərəfindən ümumi çəkisi 30 kiloqram 600 qram narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikası ərazisinə keçirilməsinin qarşısı alınıb, "Xudat" və "Zaqatala" sərhəd dəstələrində isə dövlət sərhədini pozmağa cəhd göstərən 4 nəfər sərhəd pozucuları sərhəd naryadlarının sayıqlığı nəticəsində saxlanılıb.





DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, martın 10-da saat 20:40-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Cəbrayıl rayonunun Şükürbəyli kəndi yaxınlığında, martın 11-də saat 05:55-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonunun Mikayıllı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisindən sərhəd naryadlarının sayıqlığı nəticəsində narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Ərazidə keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumilikdə 30 kiloqram 600 qram narkotik vasitə, 1440 ədəd Metadon M-40, 754 ədəd Preqabalin, 50 ədəd Qababrel psixotrop həbləri və müxtəlif təyinatlı dərman preparatları aşkar olunaraq götürülüb.

Martın 10-da saat 22:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin Xaçmaz rayonunun Samurçay kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədini pozaraq qanunsuz yolla Azərbaycandan Rusiyaya keçməyə cəhd göstərən 2 nəfər Azərbaycan vətəndaşı - 2006-cı il təvəllüdlü Mahmudov Rəhman Aydın oğlu və 2008-ci il təvəllüdlü Qədirov Paşa Vüqar oğlu saxlanılıb.

Martın 10-da saat 20:50-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Zaqatala" sərhəd dəstəsinin Balakən rayonunun Poçtbinə kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində Azərbaycandan Gürcüstan istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən 2 nəfər sərhəd pozucusu Qvineya Respublikasının vətəndaşı Camara Moussa və Liberiya Respublikası vətəndaşı Vhyee Jr Samie Saye saxlanılıb.

Araşdırma zamanı saxlanılan şəxslərin ölkə ərazisinə rəsmi qaydada gəlmələri, dövlət sərhədini pozaraq Azərbaycandan Gürcüstana, oradan isə Avropa ölkələrindən birinə miqrasiya etmək niyyətində olduqları müəyyən edilib.

Qeyd olunan faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.








BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5184
Sifariş 631

Qiyməti 40 qəpik